Xalqın qəzeti!

# Xalq qəzeti

№ 241 (30357) 3 noyabr 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


## Günün sözü

**Prezident İlham ƏLİYEV:**

**Türk dünyası böyük bir ailədir. Bir-birimizin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməliyik. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq.**

# “Türk əsri” yeni hədəflərə yön alır

## Prezident İlham Əliyev Qazaxıstana səfərə gəlib



**Noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının “Türk Əsri” çağırışı altında keçiriləcək 10-cu yubiley Zirvə görüşündə iştirak etmək üçün Qazaxıstan Respublikasına səfərə gəlib.**

Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Qazaxıstanın Baş naziri Alixan Smailov və digər rəsmi şəxslər qarşıladılar.

# Üçtərəfli bəyanatın 9-cu bəndi ləğv olunurmu?



**Ermənistan baş naziri Nikol Paşinyan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın 9-cu bəndini ləğv edib. Belə bir fikri ölkənin “Hraparaq” qəzeti yayımlayıb. Digər media vasitələri də məsələyə geniş yer ayırıblar.**

Əvvəlcə görək 2020-ci ilin 44 günlük müharibəsinə son qoymuş, Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən imzalanmış üçtərəfli bəyanatın 9-cu bəndində nə yazılıb: “Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidməti orqanları həyata keçirirlər. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək”.

*(ardı 4-cü səhifədə)*

# Heydər Əliyev Mərkəzində nadir tarixi sərgi



Səhifə ⇨ 10

# İlin iqtisadi yüksəliş mənzərəsi

Səhifə ⇨ 7

# Qış qapını almamış...



Səhifə ⇨ 9

# Aİ-nin “patrul missiyası” sərhədimizdə

**Kənardan belə təsəvvür yaranır ki, Avropa İttifaqının (Aİ) mülki missiyasının “növbəti dayanacağının” Ermənistanın Azərbaycanın Qazax rayonu ilə həmsərhəd Yeğeqnadzor rayonunda qurulması müdafiə xarakterli tədbirdir. Yəni, Aİ-nin əsasən fransız-alman tərkibli mülki missiyasının baş ofisinin məhz bu ərazidə açılması, ola bilsin ki, Qazaxın anklavda olan kəndlərini Bakının “hərbi təcavüz” yolu ilə ələ keçirməsinin qarşısını alması üçündür.**



Avropalıların bu cür “praqmatik” düşündüyünü güman etməyə xeyli əsas var. Amma məsələ o qədər də sadə deyil. Çünki İrəvan bu missiyanı üçtərəfli bəyanatın digər tərəfləri olan Azərbaycan və Rusiya ilə razılaşdırmadan yerləşdirməyə razılıq verməklə, sülh danışıqları prosesində Avropadan olan aktorlar arasında öz mövqeyini gücləndirməyi düşünürdü.

Əvvəla, onu nəzərə çatdıraq ki, Avropa İttifaqı (Aİ) təxminən bir il əvvəl bölgəyə göndərdiyi mülki missiyasının məqsədini bu cür formalaşdırmışdı: “Məqsəd Ermənistanın sərhədyanı ərazilərində sabitliyə, regionda etimadın yaranmasına töhfə vermək və Avropa İttifaqı tərəfindən dəstəklənən Ermənistanla Azərbaycan arasında normallaşma səyləri üçün əlverişli mühiti təmin etməkdir”.

Doğrudan da, əsl niyyətləri dedikləri kimidirsə, onda xeyirxah missiyanın savab işini alqışlamaq lazımdır. İntəhası, rəsmi Bakının xidmətindən imtina etdiyi Avropanın çoxmillətli monitorinq qrupunun, əslində, missiyasının nədən ibarət olduğu bugünədək tam aydınlaşdırılmayıb. Bu məsələ təkcə Bakıda deyil, Ermənistanın özündə də tez-tez dartışılan mövzulardan biridir.

*(ardı 3-cü səhifədə)*

# Qəzzada atəşkəs olacaqmı?

**Oktyabrın 7-də gözlənilmədən başlanan, dərhal da şok effekti yaradan HƏMAS-İsrail qarşıdurmasından ötən 27 gün ərzində dünyanın yaxın və uzaq ölkələrində ekran qarşısındakı tamaşaçıların çoxu bölgədə cərəyan edən faciəvi prosesləri nəfəs dərmədən müşahidə edirlər. Hər bir izləyici özündə bu suala cavab tapmaq istəyir: Kimdir günahkar?**

*(ardı 11-ci səhifədə)*



# Həm sülhdən dəm vururlar, həm də hərbi xərcləri ikiqat artırırlar



**Ermənistan baş naziri Nikol Paşinyan Azərbaycanla sülh müqaviləsinin imzalanmasının, nəqliyyat kommunikasiyalarının açılmasının, qarşılıqlı iqtisadi əlaqələrin bərpasının tərəfdarı olduqlarını hər addımbaşı bəyan edir.**

Sonuncu dəfə oktyabrın 26-27-də Tbilisidə keçirilən beynəlxalq İpək Yolu Forumunda çıxışı zamanı baş nazir deyib: “Əgər məşğul, aktiv yol əməkdaşlığa, sülhə, uğura işarədirsə, bağlı yol problemlərdən xəbər verir. Biz bunu öz təcrübəmizdən bilirik. Dörd qonşumuzdan ikisi ilə yollarımız açıqdır ki, bu, bizim onlarla münasibətlərimizin rəvan olduğuna dəlalət edir. İki qonşumuzla yollar bağlıdır ki, bu da münasibətlərdəki fəsadların bariz sübutudur. Yollar olmadan sülh qurmaq çox çətin olacaq. Aydındır ki, regionumuzun, Cənubi Qafqazın daimi sülhə ehtiyacı var. O zaman sülh olur ki, ölkələr açıq sərhədlərlə yaşayır, bir-birinə fəal iqtisadi, siyasi, mədəni və insani əlaqələrlə bağlanır, bütün məsələlər diplomatik yolla həll edilir”.

Nikol bildirib ki, başçılıq etdiyi hökumət sülh gündəliyinin ayrılmaz hissəsi kimi sülh üçün yolayrıcları (qovşaqları) layihəsini işləyib hazırlayıb: “Sülh üçün yolayrıcları sülh gündəliyinin ayrılmaz hissəsidir. Biz hazırda Azərbaycanla sülh və münasibətlərin nizamlanması sazişi layihəsi üzərində işləyirik. Ümid edirəm ki, bu proses yaxın aylarda başa çatacaq və sülh və münasibətlərin qurulması sazişinin imzalanması mümkün olacaq”.

*(ardı 3-cü səhifədə)*

# Kənddə zəhmət marafonu bar-bərəkət ünvanına çatıb

Səhifə ⇨ 7

# Sahibə Qafarova Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının həmsədri ilə görüşüb



**Koreya Respublikasında rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 2-də Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının (İCAAP) həmsədri Çunq Eui-Yonq ilə görüşüb.**

Çunq Eui-Yonq Azərbaycana bir neçə dəfə səfər etdiyini bildirib və ölkəmiz haqqında xoş təəssüratlarını bölüşüb. O, Prezident İlham Əliyevlə 2015-ci ildə keçirdiyi görüşü böyük məmnunluqla xatırladıb və Azərbaycanın siyasi cəhətdən sabit inkişaf yolu keçdiyini bildirib.

Sahibə Qafarova Azərbaycan ilə Koreya arasında fəal siyasi dialoq və sıx iqtisadi əməkdaşlığın ikitərəfli münasibətlərin inkişafı üçün möhkəm zəmin yaratdığını bildirib. O, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə Prezident İlham Əliyev tərəfindən irəli sürülən qlobal təşəbbüslər, o cümlədən Hərəkatın Gənclər Təşkilatı və Parlament Şəbəkəsinin yaradılması haqqında geniş məlumat verib.

Görüşdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə İCAAP arasında mümkün əməkdaşlıq məsələləri də müzakirə edilib.

* * *

Həmin gün Milli Məclisin Sədri Sahibə Qafarova Koreya parlamentinin Azərbaycanla parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşüb. Ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunduğu görüşdə siyasi təmasların – yüksək səviyyəli səfərlərin, görüşlərin bu əlaqələrin daha da genişlənməsinə xidmət etdiyi bildirilib.

*Ə. BƏDƏLOV*
XQ

# Baş prokuror Abşeron rayonunda qəbul keçirib



**Noyabrın 2-də Baş prokuror Kamran Əliyev Abşeron rayon prokurorluğunun inzibati binasında Abşeron və Zəngilan rayonlarından olan vətəndaşlarla görüşüb.**

Görüşdə iştirak edən 135 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

Həmçinin Baş prokuror "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair əməkdaşların təkliflərini dinləyib, müvafiq göstərişlər verib.

XQ

# 2024-cü ilin dövlət büdcəsi layihəsi müzakirə olunub



**Dünən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.**

Komitə sədri Tahir Mirkişili iclasın gündəliyinə "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının qanun layihəsinin (birinci oxunuş) daxil olduğunu deyib. O, sənədin ölkə Prezidenti tərəfindən Milli Məclisə təqdim edildiyini söyləyib.

Komitə sədri qeyd edib ki, ölkənin 2024-cü il üçün dövlət və icmal büdcəsinin layihəsi və sonrakı 3 il üçün dövlət və icmal büdcənin parametrləri, ortamüddətli dövr üçün makro-iqtisadi proqnoz göstəriciləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada Milli Məclisə daxil olub. Büdcə layihəsində növbəti ilin gəlirlərinin cari ilə nisbətən 282,5 milyon manat, xərclərinin isə 138,2 milyon manat artması planlaşdırılır. Sosial xərclərin 1 milyard 34,5 milyon manat artması planlaşdırılır və bu da insanların maddi rifah halının daha da yaxşılaşdırılmasına xidmət edəcək.

Maliyyə naziri Samir Şərifov bildirib ki, 2024-cü ilin dövlət büdcəsi layihəsi regionda yaranan yeni reallıqlar nəzərə alınmaqla, güclü milli iqtisadi resurslara söykənərək Azərbaycanın gələcək sosial-iqtisadi inkişafı ilə bağlı mühüm əhəmiyyətə malik tədbirlərin maliyyələşdirilməsi üçün zəmin yaradır. Növbəti ilin dövlət büdcəsində ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, azad edilmiş ərazilərimizə Böyük Qayıdışa dair Birinci Dövlət Proqramında müəyyən edilmiş mühüm tədbirlərin icrası üçün maliyyə təminatının yaradılması əsas prioritet xərc istiqamətləri kimi nəzərdə tutulub.

İqtisadiyyat naziri Mikayıl Cabbarov 2024-cü il və sonrakı 3 il üçün sosial-iqtisadi inkişafın parametrləri barədə məlumat verib. Mərkəzi Bankın sədri Taleh Kazımov, Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov müzakirə edilən layihə barədə rəy və təkliflərini bildiriblər.

Sonra iclasda 2024-cü ilin dövlət büdcəsi layihəsi ətrafında geniş müzakirələr aparılıb.

XQ

# QMİ sədri Qəzzada sülhə çağırıb

**Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə Qəzzada sülhə nail olmaq üçün siyasətçiləri tezliklə qərarlar qəbul etməyə çağırıb.**



Bu barədə Allahşükür Paşazadə noyabrın 2-də İordaniyanın Azərbaycandakı səfiri Ömər Bərəkət əl-Nahar ilə görüşdə bildirib.

QMİ sədri son günlər Yaxın Şərqdə baş verənlərə toxunaraq Qəzzada mülki şəxslərin, qoca, qadın və uşaqların həlak olmasına təəssüfləndiyini bildirib, siyasətçilərin sülhə nail olmaq üçün tezliklə müdrik qərarlar qəbul edəcəklərinə inandığını qeyd edib.

XQ

# Heydər Əliyev Fondunda not kitablarının təqdimatı



**Bakı Kitab Mərkəzində Heydər Əliyev Fondu tərəfindən hazırlanan Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrinin əsərlərindən ibarət not kitablarının təqdimatı olub.**

Bakı Kitab Mərkəzinin direktoru Günel Rzayeva təqdim edilən əsərlərin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Əbədi imzalar" layihəsi çərçivəsində işıq üzü gördüyünü bildirib.

Tədbirdə mədəniyyət nazirinin müavini Murad Hüseynov, Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli, Xalq artisti, dirijor Yalçın Adıgözəlov və Əməkdar artist, bəstəkar Vüqar Camalzadə çıxış edərək Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən bu tədbirin mühüm əhəmiyyət kəsb etdiyini deyiblər. Diqqətə çatdırılıb ki, müasir dövrdə Azərbaycan musiqisi Heydər Əliyev Fondu tərəfindən bütün dünyada tanıdılır.

Qeyd edilib ki, layihə çərçivəsində Azərbaycan bəstəkarlıq məktəbinin altı görkəmli nümayəndəsi – Asəf Zeynallı, Cövdət Hacıyev, Qara Qarayev, Fikrət Əmirov, Niyazi və Vasif Adıgözəlovun simfonik, kamera-instrumental, vokal, fortepiano əsərləri, eləcə də müxtəlif alətlər üçün solo və xor partiyaları çap olunub.

XQ

# Madat Babayanın Xocalı soyqırımı ilə bağlı məlumatları araşdırılır

**Qanunsuz erməni silahlı birləşmələrinin Azərbaycan Respublikasının ərazilərində törətdikləri terrorçuluq və digər ağır cinayətlərlə bağlı araşdırmalar davam etdirilir.**

Dövlət Təhlükəsizliyi Xidmətinin mətbuat xidmətindən verilən məlumata görə, 2023-cü ilin sentyabrında keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində qanunsuz silahlı birləşmələrə daxil olmaqla "AKM" avtomatı ilə silahlanıb, mütəşəkkil dəstə halında milli ədavət və düşmənçilik niyyəti ilə terrorçuluq əməlləri törətməkdə şübhəli bilinən Babayan Madat Arakeli Kəlbəcər rayonunun Qozlukörpü kəndi ərazisində tərk-silah edilərək saxlanılıb.

İstintaq zamanı təqsirləndirilən şəxs Madat Babayan ifadəsində digər xüsusatlarla yanaşı, bildirib ki, 1992-ci ilin fevralında Xocalı faciəsinin törədilməsində iştirakçı olub, 1992-ci il fevralın 24-də "Xolostoy" ləqəbli Ermənistan silahlı qüvvələrinin polkovnik-leytenantı Arkadi Şirinyanın rəhbərliyi ilə Kəlbəcər rayonunun Çapar, Qozlu və Qozlukörpü kəndlərinin sakinlərindən ibarət erməni silahlı birləşmələrinin tərkibində Kəlbəcərin Yayıcı, Heyvalı və Zəylik kəndlərindən gələn digər erməni silahlıları ilə Xocalı rayonunun Təzəbinə kəndində birləşərək azərbaycanlı əhalini məhv etmək məqsədilə qabaqcadan qurulmuş plana uyğun olaraq, 1992-ci il fevralın 25-də gecə saat 23:00 radələrində Xankəndi şəhərindən Xocalı şəhəri istiqamətində edilən hücum zamanı xilas olmaq üçün Əsgəran rayonuna tərəf qaçmaq istəyən, əksəriyyəti qadın, uşaq və qocalar olmuş 150 nəfərdən çox əliyalın şəxsdən ibarət mülki əhalini həmin ərazidə pusquya salaraq avtomat silahlarından atəş açmaqla qətlə yetiriblər.




Eyni zamanda, Madat Babayan 1992-ci il fevralın 26-da azərbaycanlıların meyitlərini yığdıqları zaman Vamik Petrosyan, Şirin Şirinyan və digər dəstə üzvləri tərəfindən meyitlər üzərində təhqiredici hərəkətlərin törədilməsini, bundan başqa 100-dən çox mülki Xocalı sakininin əsir düşdüyünü müşahidə edib.

Madat Babayan 1992-ci il fevralın 26-da Xocalıda olan erməni silahlıları ilə birlikdə şəhərdə azərbaycanlılara məxsus olan əmlakların talan edilməsi və törədilən kütləvi insan qırğını faktlarının gizlədilməsini təmin etmək üçün Xankəndi istiqamətində Xocalı–Ballıca–Xankəndi yolayrıcında silahlı post qurduqlarını, üç gün sonra isə bu postda xidmət apardığı vaxt Xocalıda qətlə yetirilən azərbaycanlıların meyitlərinin üç yük avtomobilində gətirildiyini, həmin postdan təxminən 400 metr məsafədə Qarqar çayının sol sahilində qazılan əraziyə tökülərək kütləvi basdırıldığını qeyd edib, eləcə də 1992-ci ilin fevral-mart aylarında Xocalıda törədilən talanlar barədə məlumat verib.

İfadənin yerində yoxlanılması istintaq hərəkəti həyata keçirilərkən, Madat Babayan mülki əhaliyə qarşı cinayət əməllərinin törədildiyi yerləri əyani şəkildə göstərərək bu barədə ətraflı məlumat təqdim edib.

Bundan əlavə Madat Babayan, əsir götürülmüş və qanunsuz olaraq Qozlukörpü kənd məktəbində saxlanılıb, amansız rəftar və işgəncələr nəticəsində ölmüş azərbaycanlıların meyitlərini Qozlukörpü kəndində şəxsən dəfn etdiyi yerləri də göstərib.

Hazırda qeyd olunan və digər əlaqəli cinayətlərlə bağlı kompleks araşdırmalar aparılır.

XQ

# Azərbaycana qarşı qeyri-dost hərəkətə adekvat cavab veriləcək

**Azərbaycanla təhdid dili ilə danışmaq qəbuledilməzdir. Azərbaycana qarşı hər hansı qeyri-dost hərəkət müsbət nəticə verməyəcək və bu cür hərəkətlərə adekvat cavab veriləcək.**

Bu sözlər XİN-in mətbuat katibi Ayxan Hacızadənin ABŞ Dövlət Departamenti rəsmilərinin Azərbaycan əleyhinə bəyanatlarına cavabında yer alıb.

Ayxan Hacızadə təəssüflə bildirib ki, ABŞ onilliklər ərzində vasitəçi olsa da, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün dəstəklənməsini, Ermənistan tərəfindən həyata keçirilən etnik təmizlənmənin qurbanı olmuş azərbaycanlı qaçqın və məcburi köçkünlərə humanitar yardım göstərilməsi məsələsini heç zaman bu qədər qətiyyətlə təşviq etməyib. Bununla yanaşı, ABŞ beynəlxalq öhdəliklərə uyğun olaraq, o cümlədən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi çərçivəsində Azərbaycan ərazilərinin işğaldan azad edilməsinə, Ermənistan silahlı qüvvələrinin çıxarılmasına, o cümlədən erməni qondarma rejiminin ləğvinə heç vaxt çağırış etməyib.

"Əgər ABŞ Azərbaycana, habelə beynəlxalq sülh və təhlükəsizliyə qarşı təhdidlərə fərqli münasibət göstərsəydi, Azərbaycana qarşı təhdidlərin güc yolu ilə həllinə ehtiyac qalmazdı və məsələ sülh yolu ilə həll olunardı. Buna görə də, digər faktlarla yanaşı, ABŞ da keçmiş münaqişənin sülh yolu ilə həlli istiqamətində fəaliyyətsizliyinə görə məsuliyyət daşıyır", – deyən XİN rəsmisi vurğulayıb ki, sülhün və sabitliyin təmin edilməsi qarşısında əsas maneə olan təcavüzkar dövlət Ermənistanı regionumuzda cəsarətləndirmək siyasətinə son qoyulması vacibdir.

Qeyd edək ki, oktyabrın 31-də Senatın Təxsisatlar Komitəsində çıxışı zamanı ABŞ Dövlət katibi Antoni Blinken digər məsələlərlə yanaşı, münaqişə nəticəsində Ermənistanda yaranmış ağır humanitar ehtiyaclara həlli üçün əlavə maliyyəyə ehtiyac olduğunu bildirib. Daha sonra isə noyabrın 2-də Dövlət Departamenti "Amerikanın Səsi" xəbər agentliyinin sualına cavab olaraq vurğulayıb ki, ABŞ Ermənistanın suverenliyini və ərazi bütövlüyünü qəti şəkildə dəstəkləyir, bu suverenliyin və ərazi bütövlüyünün istənilən şəkildə pozulması ciddi nəticələrə gətirib çıxaracaq.

XQ

# Aİ-nin "patrul missiyası" sərhədimizdə

## *Onların məqsədi, guya, Azərbaycanın Ermənistana "hərbi təcavüz"ünün qarşısını almaqdır*

(əvvəli 1-ci səhifədə)

**Siyasi analitik Asif Nərimanlı Aİ missiyasının reallıqda heç də mülki olmadığı qənaətindədir:** "Bu missiyanın Ermənistana yerləşdirilməsinin hədəfi var: Rusiyanı Ermənistanda sıxışdırmaq və Qərbin Cənubi Qafqazda hərbi-siyasi müstəvidə təmsilçiliyini yaratmaq. Bu baxımdan, Aİ-nin mülki missiyasındakıların kəşfiyyatçı ola biləcəyi istisna edilməməlidir. Burada bizim üçün



əsas məqam bu kəşfiyyat missiyasının hansı ssenarini tətbiq edə biləcəyidir. Məqsəd Rusiyanın Ermənistanın təhlükəsizliyində oynadığı rolu azaltmaq, bunun yerini Qərbin tutması imkanlarını artırmaqdırsa, o zaman Azərbaycanla sərhəddə hərbi eskalasiyaya "ehtiyac" yaranır. Belə bir eskalasiya Ermənistana "Azərbaycanı təcavüzkar" kimi göstərmək üçün lazımdırsa, İrəvanla Avropa İttifaqının missiyasının ortaq mövqeyi Rusiyanın "Ermənistanı müdafiə etmədiyini" əsaslandırmaqdır. Eskalasiya baş verərsə, Ermənistan yenidən KTMT-nin öz öhdəliklərini yerinə yetirmədiyini bildirəcək və Aİ missiyasının, yəni Qərbin onların təhlükəsizliyində Rusiyadan daha çox rol oynadığı fikrini irəli sürəcək. Bundan istifadə edərək, KTMT-dən çıxmaq məsələsini yenidən aktuallaşdıra, yaxud Qərb ölkələrinin bölgədə hərbi müstəvidə təmsilçiliyini gündəmə gətirə bilər. Ermənistan sərhəddə təxribat törədə, daha sonra Avropa İttifaqının "Azərbaycanın hücum edəcəyi gözləntiləri öncədən var idi" – fikrini dövriyyəyə buraxa bilər".

Avropa İttifaqı Şurası ilk dəfə 2022-ci il oktyabrın 17-də regionda vəziyyətin monitorinqi, təhlili və hesabat üçün Azərbaycanla beynəlxalq sərhədin Ermənistan tərəfi boyunca 40-a yaxın monitorinq üzrə ekspertin göndərilməsi barədə qərar qəbul edib. Monitorinq qrupu bir ay müddətində regionda olub və missiyası başa çatıb. Amma Qarabağın qənşərində qə-



rar tutmuş alman-fransız missionerlərinə bölgənin suyu, havası necə xoş gəldisə, monitorinqçilərin fəaliyyəti iki ilə qədər uzadıldı.

* * *

İndi isə Avropa İttifaqının "beynəlmiləl tərkibli" missiyası Azərbaycanın Qazax rayonu ilə həmsərhəd olan Tavuş vilayətində baş ofisini işə salıb. Aİ-yə üzv 23 ölkədən 93 nəfərin daxil olduğu missiyanın baş ofisinin açılışında Ermənistan müdafiə nazirinin müavini Qraçya Sarkisyan və Tavuş vilayətinin qubernatoru Ayk Qalumyan da iştirak ediblər. Tədbirdə əvvəlcə Aİ-nin Ermənistandakı müşahidə missiyasının rəhbəri Markus Ritter çıxış edib. Mülki monitorinq qrupunun 10 ay ərzində Ermənistanın Azərbaycanla sərhədboyu ərazisində gördükləri "genişmiqyaslı işlərindən" danışan polis məmuru Ritter bildirib ki, Aİ-nin Ermənistandakı mülki missiyası 2023-cü ilin fevralında fəaliyyətə başladığı zaman iki daimi işçisi və üç sahə ofisi olub: "Səkkiz aydan sonra Aİ-nin 23 dövlətindən göndərilmiş 93 missiya üzvü ilə yeni qərargahımızın qarşısında dayanmışam. Bəzi çətinliklər olsa da, fəxrlə deyə bilərəm ki, Avropa İttifaqının missiyası tam fəaliyyət qabiliyyətinə çatıb. Sentyabrın əvvəlində bizim Qafan, Gorus, Cermux, Yeğeqnadzor və İcevanda 6 ofisimiz var idi. Patrullarımızın köməyi ilə biz Ermənistan və Azərbaycan arasındakı beynəlxalq sərhədin bütün uzunluğu boyunca işləyə bilirik".

Daha sonra Aİ-nin Ermənistandakı müşahidə missiyasının tərkibinin genişləndirilməsi məsələsinin bu ilin sonuna qədər Brüsseldə müzakirə ediləcəyini diqqətə çatdıran alman missionerin sözlərinə görə, missiyaya Aİ-nin bütün 27 üzv ölkəsinin nümayəndələrinin daxil edilməsi imkanları mövcuddur: "Kanada sözügedən missiyaya qoşulmaq barədə qərar qəbul edib. Başqa ölkələr də bunda maraqlı olsa, bu məsələ Brüsseldə nəzərdən keçiriləcək və müzakirə ediləcək".

* * *

Açılış mərasimində iştirak edən Aİ-nin Ermənistandakı nümayəndəliyinin rəhbəri Vasilis Maraqos deyib ki, ötən həftə ərzində mülki missiya Ermənistan –Azərbaycan sərhədində 1000-ci patrulu həyata keçirib. Maraqosun sözlərinə görə, onların sərhədyanı bölgələrdə olması gərginliyin azaldılmasına və yerli əhali arasında təhlükəsizlik hissinin artmasına kömək edir: "Biz bütün Aİ və beynəlxalq ictimaiyyətin diqqətini bu münaqişəyə cəlb edirik və hesabatlarımızla Aİ-nin dəstəyi ilə Ermənistan və Azərbaycan arasında nizamlanma prosesinə töhfə veririk. Hesab edirəm ki, biz hamımız razıyıq ki, bu region davamlı sülh və sabitliyə layiqdir və ümid edirəm ki, biz birlikdə bu məqsədin həyata keçirilməsinə töhfə verə biləcəyik".

Əlbəttə, Azərbaycan Prezidentinin dediyi kimi, bu, çox məyusedici bir məqamdır. İntəhası, Azərbaycan Vətən müharibəsində və sonrakı dönəmdə ən azı 3 dəfə nümayiş etdirib ki, bizim üçün Ermənistanı kimin dəstəkləməsinin, ermənilərin silahlı dəstələrinin hansı ölkənin və ya missiyanın arxasında gizlənməsinin heç bir əhəmiyyəti yoxdur. Yaranacaq istənilən təhlükə, təhdid dərhal aradan qaldırılacaq. Azərbaycanın siyasi imkanlarının bütün dünyada, o cümlədən Avropada köklü şəkildə genişləndiyi indiki dövrdə hansısa mülki və ya hərbi missiya bölgədə mövcud reallığı dəyişmək iradəsinə və gücünə malik deyil.

İki ölkənin sərhədində ofislərini sərgiləyən Aİ missiyasının, faktiki olaraq, Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası, nəqliyyat dəhlizlərinin açılması və digər proseslərə heç bir təsiri yoxdur.

**İ.HƏSƏNQALA**
**XQ**

KÖŞƏ

# Məşədi İbad və Roma statutu

**Məşhur Azərbaycan filmi "O olmasın, bu olsun"da "mənə meymun deməyin bəs deyil, hələ bir əl də verirsən?" ifadəsi, çox güman ki, hamının, elə yazımızı oxuyanların da yaxşı xatirindədir. Filmi nə üçün yada saldığımızı sonda diqqətə çatdıracağıq. Hələlik isə Ermənistanın Roma statutu avantürasındakı bir yenilikdən söz açaq.**

Məlum olduğu kimi, Ermənistan parlamenti Beynəlxalq Cinayət Məhkəməsinin Roma statutunu ratifikasiya etdi, ölkə prezidenti isə sənədi təsdiqləməklə, onu dövlətin hüquqi münasibətlər sistemindəki yerini qanuniləşdirdi. İndi qalır qanunun qüvvəyə minməsi. O da məlumdur ki, məsələnin mahiyyəti Rusiya Prezidenti Vladimir Putinin Ermənistana daxil olacağı təqdirdə həbsi ilə bağlıdır. Çünki BCM onun və digər bir sıra Rusiya rəsmilərinin həbsinə dair order verib.



Əvəz RÜSTƏMOV
evez.rustemov@gmail.com

Şübhəsiz, Ermənistan tərəfindən belə bir addımın atılması Moskva – İrəvan münasibətlərindəki gərginliyə əlavə rəng qatıb. İstər Ermənistanda, istərsə də Rusiyada bununla bağlı söz-söhbətlər bitmir. Baş nazir Nikol Paşinyanın isə mövqeyi budur ki, İrəvan özü üçün yeni təhlükəsizlik təminatlarına ehtiyac duyur və Roma əsasnaməsini bu səbəbdən qəbul edib. Sənədin Azərbaycanı məsuliyyətə cəlb etmək baxımından vacibliyindən söz açan Nikol onu da bildirmişdi ki, ötən müddətdə Rusiyaya Roma statutunun ikitərəfli münasibətlərə zərər vurmaması üçün variantlar təklif edib. Söhbət hansı variantlardan gedir, baş nazir bu barədə danışmamışdı.

İndi məsələni gündəmə gətirən Ermənistan parlamentinin vitse-spikeri, hakim "Vətəndaş sazişi" Partiyası idarə heyətinin üzvü, yəni Paşinyanın komandasının təmsilçisi Akop Arşakyan da əslində konkret deyil. O deyib ki, Ermənistan Rusiyanı Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunun tələblərindən yan keçməyə imkan verəcək dövlətlərarası saziş imzalamağa dəvət edib. Vitse-spikerin sözlərinə görə, belə bir saziş ikitərəfli dövlətlərarası hüquqi münasibətlərin beynəlxalq strukturlarda yoxlanılmasının qarşısının alınması üçündür.

Əlbəttə, istər Paşinyanın, istərsə də Arşakyanın qeyri-ciddiliyi göz önündədir. Başa düşmək olmur ki, Ermənistan iqtidarı özünü axmaq yerinə qoyur, yoxsa qarşısındakıları. Necə yəni, Roma statutundan yan keçmək. Yaxşı, tutalım, məsələ Rusiyaya izah edildi, Moskva buna razılığını verdi. Bəs, Avropa, dünya? Görəsən, təpədən-dırnağa anti-Rusiya motivləri ilə silahlanmış beynəlxalq ictimaiyyət "ağıllı Arşakyana" nə deyəcək? Deməyəcək ki, nədi, bizi dolamısınız? Axı, dünyada hamı bilir ki, hazırda Roma statutunu müdafiə etmək Putinin cinayət məsuliyyətinə cəlb edilməsinə razılığın ifadəsidir. Ermənin iqtidarı isə belə demək mümkünsə, köhnə hamama yeni nırxlar qoyur. Öz aləmində diplomatik davranır.

Digər tərəfdən, A.Arşakyan bildirir ki, Roma statutunun qüvvəyə minməsinə hələ çox var. Həmin vaxtadək Rusiya ilə təklif etdiyi tərzdə dövlətlərarası müqavilə bağlamaq mümkündür. Bu, deyəsən, lap ağ oldu. Arşakyan, faktiki olaraq, Rusiya kimi dövlətə, obrazlı desək, gedən qatara çatmaq və minmək şansı yaradır. Göründüyü kimi, Ermənistan parlamentinin vitse-spikeri Moskvanı ələ salmaq yolu tutur. O boyda Rusiya bapbalaca Ermənistana minnətçi düşəcəkmiş. Hər halda, bundan gülməli nə isə düşünmək mümkün deyil.

Sonda "O olmasın, bu olsun"dakı məşhur epizoda bir qədər ətraflı şəkildə yenidən qayıdaq. Filmdə Məşədi İbad ziyafət əsnasındakı fikirləri ilə onu təhqir edən, axırda əl verib sağollaşmağa gələn Həsən bəyə belə deyir: "Cəhənnəm ol, mürtət oğlu, mürtət. Mənə meymun deməyin bəs deyil, hələ bir əl də verirsən? Axmaq!" İndi Ermənistanın hakim siyasi komandasının təmsil edən vitse-spiker A.Arşakyan və eyni ağlın daşıyıcıları Həsən bəy kimi davranırlar. Ölkəsinin Rusiyaya Roma statutunun ikitərəfli münasibətlərə mənfi təsirini heçə endirmək üçün təkliflər verdiyini deyən Arşakyan hazırda qarşı tərəfdən cavab gözlədiklərini vurğulayır. Yada salaq ki, haqqında söz açdığımız filmdə Məşədi İbadın Həsən bəyə yuxarıdakı sitatda diqqətə çatdırdığımız fikirlərindən sonra dava düşmüşdü, aləm bir-birinə dəymişdi. Bəs, indi burada nə olacaq görəsən?

# Həm sülhdən dəm vururlar, həm də hərbi xərcləri ikiqat artırırlar

## *Paşinyan, deyəsən, məğlubiyyətdən nəticə çıxarmayıb*

(əvvəli 1-ci səhifədə)

Oktyabrın 30-da Ermənistanın 2024-cü il üçün dövlət büdcəsi layihəsinin parlamentin daimi komitələrində ilkin müzakirəsi zamanı isə N.Paşinyan bildirib ki, Azərbaycanla sülhün və münasibətlərin normallaşdırılmasının 3 əsas prinsipi razılaşdırılıb. "Tərəflər razılaşdırılmış prinsiplərə sadiq qalarsa, sülh və münasibətlərin nizamlanması sazişinin imzalanması reallaşar. Birinci prinsip Ermənistan və Azərbaycanın bir-birinin ərazi bütövlüyünü qarşılıqlı olaraq tanımasıdır. İkinci prinsip Alma-Ata sazişi əsasında delimitasiyanın həyata keçirilməsi, üçüncü isə qarşılıqlı və bərabərlik əsasında hərəkət etməli olan tərəflərin suverenliyi və yurisdiksiyasına əsaslanan regional kommunikasiyaların açılmasıdır. "Tərəflərin hər biri öz ərazisində sərhəddə gömrük nəzarətini, eləcə də kommunikasiyanın təhlükəsizliyini təmin etməlidir", – deyə baş nazir əlavə edib.

Bununla belə, Paşinyan elə həmin iclasda bildirib ki, gələn ilin dövlət büdcəsində müdafiə xərcləri 309 milyard dram (768 milyon 656 min ABŞ dolları) artırılacaq. O qeyd edib ki, hökumət üçün silahlı qüvvələrdə islahatların aparılması mühüm əhəmiyyət kəsb edir. Üstəlik, N.Paşinyan müzakirələr zamanı qeyd etmişdi ki, bununla da 2024-cü ildə büdcədən müdafiəyə ayrılan xərclər 2018-ci illə müqayisədə 125 faiz artmış olacaq.

Doğrudur, Paşinyan büdcədə müdafiə xərclərinin artırılmasını yarada biləcəyi sualların yayınmaq üçün dərhal əlavə edib ki, xərclərin artan dinamikası heç bir halda bəyan etdikləri sülh gündəliyinə zidd deyil. Ancaq buna inanmaq çətindir. Fakt faktlığında qalır. Rəsmi İrəvan bir tərəfdən sülhdən danışır, digər tərəfdən gələn ilin müdafiə xərcləri artırır. Bu, az imiş kimi, hələ bir iddia da edir ki, xərclərin artımı heç bir halda sülh gündəliyinə zidd deyil. Ermənistan iqtisadçılarının hesablamalarına görə, bununla da 2024-cü ildə ölkənin müdafiə büdcəsi, orduya ayrılan xərclər əvvəlki illə müqayisədə iki dəfə artmış olacaq.

Bundan əlavə, Ermənistanın son vaxtlar Fransa və Hindistandan silah-sursat alması da diqqətdən yayınmamalıdır. Oktyabrın 23-də Parisdə Fransa və Ermənistan müdafiə nazirləri – Suren Papikyan və Sebastyan Lekornyu "Thales" şirkətinin istehsalı olan üç ədəd "GM 200" radarının alqı-satqısına dair müqa-



vilə və gələcəkdə Fransanın "Mistral" yaxınmənzilli hava hücumundan müdafiə sistemlərinin tədarükünə dair anlaşma memorandumu imzalayıblar.

Paralel olaraq, Avropa İttifaqının Ermənistandakı Mülki Missiyası (EUMA) adlanan, əslində isə hərbiləşdirilmiş strukturun gücləndirilməsi prosesi gedir. Dünən yayılan məlumatda missiyanın tam heyətlə təmin olunduğu açıqlanıb. Bunu missiyanın rəhbəri Markus Ritter noyabrın 1-də EUMA-nın tarixi adı Dərələyəz olan, ermənilərin Vayoçdzor adlandırdıqları vilayətin inzibati mərkəzi Yexeqnadzorda yeni ofisinin açılış mərasimində deyib. Qeyd edək ki, açılış mərasimində Ermənistan prezidenti Vaaqn Xaçatryan da iştirak edib.

Markus Ritter bildirib ki, hazırda missiyanın 23 Aİ ölkəsindən 93 üzvü var. Missiya Ermənistan və Azərbaycanın bütün sərhədlərini əhatə edən Qafan, Gorus, Cermuk, Yexeqnadzor, Martuni və İcevanda bildirilmiş 6 stansiyadan patrul xidməti təşkil edir. Alman zabit ötən həftə missiya üzvlərinin mininci patrulu tamamladıqlarını fəxrlə bəyan edib.

Ermənistan iqtidarının bütün bu addımları ağır məğlubiyyətdən, deyəsən, nəticə çıxarmadığından, bölgənin yeni qarşıdurmaya sürükləmək istəyindən xəbər verir.

**Hərbi ekspert, ehtiyatda olan polkovnik Üzeyir Cəfərov da "Xalq qəzeti"nə bildirib ki,** Ermənistanın davranışları bizi təəccübləndirməməlidir. Onun sözlərinə görə, gün ərzində İrəvandan müxtəlif bəyanatlar səsləndirir, fərqli fikirlər eşidilir. Eyni zamanda, İrəvan regionda sülhün bərqərar olması üçün addımlar atmaq əvəzinə, silahlanma prosesini həyata keçirir: "Hindistandan müəyyən silah-sursat alınıb. O cümlədən Fransa ilə Ermənistan arasında müqavilə imzalanıb. Bu onu deməyə əsas verir ki, Ermənistan bundan sonra da bölgədə hansısa qüvvələrin əlində alət olmaq prosesini davam etdirəcək. Əlbəttə, bu Ermənistan üçün əlavə problemlər yaradacaq".

Üzeyir Cəfərov qeyd edib ki, Ermənistan həmin silahları nə Türkiyəyə qarşı, nə də Gürcüstana qarşı istifadə etməyəcək: "Həmin silahlar sırf Azərbaycana təzyiq göstərmək və ya öz ələmlərində təhdid etmək niyyəti ilə əldə edilir. Düşünürəm ki, Ermənistan özü də Azərbaycanın belə addımlardan qorxub-çəkinən olmadığını dərk edir. Bununla belə, məlum hərəkətindən də əl çəkmir".

Hərbi ekspert qeyd edib ki, biz də işimizi ehtiyatlı tutmalıyıq: "Silahlı Qüvvələrimizi əvvəlki qaydada lazımı silah-sursatla təmin etməliyik. Ordumuzun döyüş qabiliyyətini artırmaq üçün nə tələb olunursa, onu etməliyik. Qarşıdakı illərdə regionda çox mürəkkəb proseslər baş verəcək".

Həmsöhbətimiz Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətləri qaydaya salmaq üçün ağıllı qərarlar verməsinin, rasional addımlar atmasının, təklifləri irəli sürməsinin, nəticədə regionda həyata keçiriləcək iqtisadi layihələr-



dən bəhrələnməsinin gözlənildiyi bir zamanda İrəvanın hərəkətlərinin anlaşılmaz olduğunu da vurğulayıb: "Təəssüf ki, Ermənistanın daxilindəki problemlər ona doğru-düzgün addımlar atmağa imkan vermir. Bu da Hayastanın uzun illər bəzi qüvvələr tərəfindən kənardan idarə olunmasının nəticəsidir. Erməni xalqı bu gün həmin siyasətin acısını çəkir. Hər halda, Hayastan Azərbaycanın irəli sürdüyü təklifləri dəyərləndirməlidir. Bir sözlə, hər şey Ermənistanın özündən asılı olacaq. İrəvan doğru-düzgün qərar verəcəksə, bundan əhalisinin rifahı yaxşılaşacaq, iqtisadiyyatı dirçələcək. Yox, əgər səhv addım atacaqsa, təxribatlar törədəcəksə, Azərbaycan buna seyrçi qalmayacaq".

Mövzu üzrə söhbətləşdiyimiz **siyasi şərhçi İlyas Hüseynov** isə bildirib ki, Ermənistan siyasi rəhbərliyi müxtəlif dövrlərdə çoxsaylı təzadlı açıqlamalarla çıxış edib, ziddiyyətli və biri-biri ilə fərqli mövqelər sərgiləyib: "Bu xüsusda hərbi, siyasi və təhlükəsizlik məsələləri də önəmli xarakter daşıyır. Ermənistan baş naziri bir tərəfdən sülhdən danışır, sülh müqaviləsi imzalanması istiqamətində bir sıra bəndlərin razılaşdırıldığını qeyd edir.



Digər tərəfdən büdcədə müdafiə xərclərinin ikiqat artırıldığı bildirilir. Ayrılan vəsait heç də müdafiə olunmaq, təhlükəsizlik sistemini gücləndirmək üçün deyil, əksinə, aqressiv siyasətin davam etdirilməsi, eskalasiya və revanşist addımların atılması üçün edilir. Bu da Ermənistan siyasi rəhbərliyini proqnozlaşdırılması mümkün olmayan bir persona kimi gündəmə gətirir".

Ekspert qeyd edib ki, Ermənistanın hakim zümrəsi arasında Cənubi Qafqazda yaranmış yeni geosiyasi reallıqları inkar etmək və revanş götürmək niyyətində olan adamlar az deyil: "Paşinyanın siyasi komandasında belələrinin sayı çoxdur. Digər tərəfdən, Ermənistanın açıq şəkildə sülhə meyilli olduğunu da iddia etmək mümkün deyil. Çünki ötən dövr ərzində separatçılığın gücləndirilməsi, onlara təbrik məktubunun göndərilməsi, eyni zamanda, hazırkı postmüharibə reallıqları ilə daban-dabana zidd addımlar atması müşahidə olunub. Bundan başqa, Fransadan silahların alınmasına dair anlaşma memorandumu imzalanıb. Hindistandan silah-sursat gətirilməsi və yeni sazişlərin imzalanması kimi hallar heç də Ermənistan siyasi rəhbərliyinin sülhə səmimi yanaşdığını deməyə əsas vermir. Əksinə, hazırkı siyasi elita daha çox gərginliyin olmasında maraqlıdır. Onların davamlı gərginlikdən özləri üçün siyasi xallar qazanmaq, hakimiyyətlərinin ömrünü uzatmaq üçün istifadə etdiyini aydın şəkildə görürük".

*Səxavət HƏMİD*
*XQ*

# Bakıdan "qırmızı kart" alanların "həyəcan siqnalı"

## *Onları narahat edən Azərbaycanın bölgədə söz sahibi olmasıdır*

**Ermənipərəst Qərbin anti-Azərbaycan koalisiyası tükənməkdə olan arsenalının son "güllələrini" havaya boşaltmaqla məşğuldur. Son vaxtlar Bakıya qarşı növbəti "hücum" cəhdləri okeanın o tayından edilməkdədir. Bu dəfə "Lemkin Soyqırımların Qarşısının Alınması İnstitutu"nu qabağa veriblər.**



Birləşmiş Ştatların Pensilvaniya ştatında lövbər salmış bu institut oktyabrın 31-də Azərbaycanın yaxın günlərdə və ya həftələrdə Ermənistana qarşı "hərbi müdaxilədən dərin narahatlıq keçirdiyini" açıqlayaraq, "qırmızı bayraq həyəcanı" elan edib. Ermənipərəst müttəfiqlərdən "həyəcan siqnalı" ilə ayağa qaldırılanlardan biri də ABŞ Dövlət Departamentidir. Dünyanın supergücünün xarici diplomatiya idarəsi bu barədə "Amerikanın səsi"nin erməni xidmətinin sorğusuna cavab olaraq, "Ermənistanın suverenliyinə və ərazi bütövlüyünə qətiyyətli dəstəyini təsdiqlədiyini" açıqlayıb. Lemkin İnstitutunun Ermənistan və Azərbaycan arasındakı durumdan narahatlığı ilə bağlı ABŞ Dövlət Departamenti qeyd edib ki, "Ermənistanın suverenliyinin və ərazi bütövlüyünün istənilən formada pozulması ciddi fəsadlara səbəb olacaq".

### Suyun niyə bulandığı məlumdur

Dövlət Departamentinin açıqlamasında Ağ evin ikitərəfli dialoqdan müntəzəm şəkildə irəliləyiş gözlədiyi vurğulanır, bölgədəki vəziyyətin daim izlənildiyi və güc tətbiqindən çəkinməyin vacibliyi xüsusi olaraq qeyd edilir. Ermənistanın ABŞ-ın yaxın tərəfdaşı və dostu olduğunu bildirən xarici siyasət idarəsi Ermənistanın siyasi və iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsi üçün rəsmi İrəvanla əməkdaşlığın genişləndiriləcəyini bəyan edib.

İki ölkə arasında qarşılıqlı maraqlara söykənən əməkdaşlıqla işimiz yoxdur. Amma onlardan birinin "suverenliyinin və ərazi bütövlüyünün pozulmasının" kim, yaxud kimlər üçün "ciddi fəsadlara səbəb olacağı" barədə ikincinin bəyanatı bəzi suallar doğurur. Əgər hədəfdə Azərbaycandırsa, bunu tam əminliklə deyə bilərik ki, Bakı otuz ildən artıq sürən Qarabağ münaqişəsini "ciddi fəsadlara səbəb olmadan" artıq həll edib. Və bu zaman tərəflərdən heç birinin suverenliyinə və ərazi bütövlüyünə xələl gəlməyib. Bu, baş vermiş olsaydı, İrəvan və Bakı ölkələrin ərazi bütövlüyünün qarşılıqlı surətdə tanınması ilə bağlı rəsmi açıqlamalarda bulunmazdılar. Məsələnin siyasi tərəfinə gəldikdə isə iki ölkə arasında sülh müqaviləsinin harada və nə vaxt imzalanacağı barədə Bakının öz mövqeyi var və onu açıq şəkildə bildirib. Bəli, təklif olunan yeni platformada sülhün yalnız bölgə dövlətlərinin iştirakı ilə "3+3", yaxud "tet-a-tet" formatda əldə olunacağı nəzərdə tutulur. Əlbəttə, bu zaman ikiüzlülüyünə şübhə yeri qalmayan Avropa İttifaqının və ABŞ-ın sülhyaratma təşəbbüslərinə ehtiyac yoxdur. Yəqin diqqətli oxucuya "qırmızı bayraq və xəbərdarlıq" şousunun əsl məramı bəlli oldu.

**Ekspert rəyi**



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

**Qeyri-hökumət təşkilatı olan Lemkin İnstitutunda dörd-beş nəfər fəaliyyət göstərir. Açığı, bizim və Ermənistan mediasından kənar bu institutun nə adını eşidiblər, nə də özünü tanıyırlar. Onun qaldırdığı hay-küy isə birinci növbədə həm ABŞ-dakı, həm də Avropadakı ermənipərəst lobbilərin, guya, Azərbaycana təsir göstərməsinə hesablanıb. Yəni, bu institutun sözünü eşidən və onunla hesablaşan yoxdur.**

**ABŞ Dövlət Departamentinin açıqlamasına gəldikdə isə hesab edirəm ki, bu da müəyyən mənada Ağ ev Administrasiyasının özünə xal qazanmaq jestidir. Çünki bu idarəni ermənipərəst konqresmenlər Ermənistana kömək etmədiyinə, bu səbəbdən Qarabağı tam itirdiyinə görə qınayırdılar. İndi Ağ ev göstərməyə çalışır ki, o, erməniləri böyük bir bəladan xilas edib. Guya, onun xəbərdarlığı olmasaydı, Azərbaycan Ermənistanın yarısını boşaldacaqdı və s. Halbuki, rəsmi Bakı ən yüksək səviyyədə dəfələrlə bəyan edib ki, bizim qonşunun ərazisində gözümüz yoxdur. O ki qaldı, Zəngəzur dəhlizinə, ona Azərbaycanın marağı itib. Bu yolu İran ərazisi vasitəsilə reallaşdırmaq niyyətindəyik. İndi Ermənistan Naxçıvana dəmir yolunun onun ərazisindən keçməsi üçün Azərbaycana yalvaracaq. Ona görə Bakı indiki durumda İrəvanla nə sülh müqaviləsini imzalamağa tələsir, nə də kommunikasiyaları açmağa.**

### Durbininizi çevirin, cənablar!

Qayıdaq Azərbaycanın üzərinə "həyəcan bayrağını silkələyən" Lemkin İnstitutunun üstünə. Bu institutun Azərbaycana qarşı narahatlıq dolu "bayraqqaldırma" aksiyasının zəminində Bakının Zəngəzuru işğal etməyə hazırlaşdığı barədə erməni mediasının və onlara "züy tutan" qərbli "bacı və qardaşlarının" feyk xəbərlərinin dayandığı şübhə doğurmur. Deyəsən, qeyri-hökumət təşkilatı kimi fəaliyyət göstərən bu institutda son xəbərləri izləmirlər. Ya da bölgədəki vəziyyət barədə yalnız hayların dezinformasiyalarını oxuyurlar. Ola bilsin ki, onlar özlərindən çox uzaqdakı bölgədə baş verənlərə binoklun tərs gözü ilə baxırlar. Əgər obyektiv və tərəfsiz informasiyaya çıxışları olsaydı, o zaman öyrənərdilər ki, Ermənistan ərazisindən Naxçıvana keçəcək Zəngəzur dəhlizi layihəsi Azərbaycan üçün artıq cəlbediciliyini itirib. Bunu Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib. Rəsmi Bakının mövqeyi sayılan bu fikri bir həftə bundan əvvəl "POLİTİCO" nəşri də oxucuların nəzərinə çatdırıb. İndi Azərbaycandan Naxçıvana İran ərazisindən keçəcək avtomobil və dəmir yolunun inşası ilə məşğuldur. Yəni, İrəvan daha çox özünə fayda verəcək layihədən imtina edəndən sonra Bakı bu variantı seçdi. Çünki indi bölgədə siyasi-iqtisadi oyun qaydalarını diktə edən tərəf odur.

### Etnik yarımçıqlıq kompleksi

Bu məqamda oxucuları ermənipərəst Lemkin İnstitutu barədə məlumatlandıraq. Üç il əvvəl ABŞ-ın Pensilvaniya ştatında təsis edilmiş "Lemkin Soyqırımların Qarşısının Alınması İnstitutu" Türkiyə ilə bərabər, Azərbaycanı da hədəf seçib. Bu gün ABŞ başda olmaqla, ermənipərəst dövlətlər Lemkinin yalanlarınıın ucundan tutub ucuzluğa getməyi, uydurma faktlarla Azərbaycanı gözüqıpıq etməyi qarşılarına məqsəd qoyublar. Ötən əsrin ortalarında "1915-ci ildə türklər 1,5 milyon ermənini qırıblar" yalanını dünyaya üfürən ukraynalı-yəhudi əsilli polşalı hüquqşünas Rafael Lemkin (1900–1959) beynəlxalq rəyi Türkiyəyə qarşı kin və düşmənçiliyə kökləməklə məşğul olub. Yarandığı gündən, yeri gəldi-gəlmədi, Azərbaycana qarşı yalan və böhtanlar yağdıran, onu ittiham edən bu qeyri-hökumət təşkilatı beynəlxalq ictimaiyyətdən Azərbaycanın cəzalandırılmasını istəyir. Bu ilin yanvarında iddia edirdi ki, "Azərbaycan "Artsax"ı (Qarabağ) 23 gündən çoxdur blokadada saxlayır". "Azərbaycan Prezidenti Əliyev on ildən artıqdır ki, erməni soyqırımı ideologiyasını təbliğ edir, azərbaycanlılarda zorakılıq və vəhşiliklərlə ifadə olunan ermənilərə nifrət hissi aşılayır. Azərbaycan cəzalandırılmalı, erməniləri qorumaq, insanların və malların sərbəst hərəkətini təmin etmək üçün bağlanan yollara BMT sülhməramlıları yerləşdirilməli, Azərbaycana hərbi yardım dərhal dayandırılmalıdır".

Bu tip şər-böhtanla kifayətlənməyən Lemkin adına İnstitut hesab edir ki, "soyqırımı"na şərik olan millətlər və təşkilatlar məsuliyyətə cəlb edilməlidirlər. Ölkəmizə qarşı Qərbin "səlib yürüşçüləri"nin tələbləri ilə tam üst-üstə düşən bu tezislərin Lemkin İnstitutuna erməni diasporundan ötürüldüyü qəti şübhə doğurmur. Fəaliyyətini qlobal müstəviyə daşımaq niyyətində olan institutun ABŞ-dakı erməni diasporu ilə sıx əməkdaşlıq qurduğu, onların müxtəlif məsələlərlə bağlı eyni platformadan çıxış etmələri göz önündədir. Həm də bunu açıq şəkildə həyata keçirməkdən, haylara dəstək olmaqdan çəkinmir. "Birgə fəaliyyətdən" əyani misal: ABŞ-da qondarma erməni soyqırımının tanınması ilə bağlı institut bu il mayın 7-də sosial şəbəkələrdə aşağıdakı mesajı paylaşıb: "Lemkin İnstitutu dünyadakı erməni diasporunu ABŞ-ın 50 əyalətində soyqırımın tanınma prosesini tamamladığına görə təbrik edir!". Bu da humanitar təşkilatın dünyaya üfürdüyü "ədalətli, tərəfsiz" yanaşması. Belə misalların sayı onlarcadır. Bəs niyə Soyqırımların Qarşısının Alınması İnstitutu bugünədək Xocalı ilə yanaşı, Qaradağlı, Ballıqaya, Başlıbel və Ağdabanda dinc əhaliyə qarşı törədilmiş soyqırımlarına etiraz səsini ucaltmaması bir tərəfə, onları araşdırmağa cəhd də etməyib?

Azərbaycana qarşı təkcə Lemkin İnstitutu deyil, ermənipərəst bütün təşkilat və idarələr "qırmızı həyəcan bayrağı" qaldıra bilərlər. Yalana, saxtakarlığa və din pərdəbazlığına bürünmüş "ultimatumları" Bakı çox eşidib. Əslində, əski parçasından fərqlənməyən belə psevdo-bayraqların birinin hansı aqibətlə üzləşdiyinə bütün dünya şahidlik etdi. Deyəsən, Cənubi Qafqazdan, faktiki olaraq, qovulmuş kənar güclərin, yad ünsürlərin arsenalı tükənib. Azərbaycanın qətiyyətli mövqeyindən əməlli-başlı əndişələnmiş həmin cəbhənin əlində qalan elə "virtual həyəcan bayrağı" imiş. Bakı isə onları oyun qaydalarını kobud şəkildə pozduqlarına görə, bölgənin geosiyasi meydanından "qırmızı kart"la çıxarıb.

**Ekspert rəyi**



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri, siyasi ekspert**

**Əslində, bu, erməni diasporunun canfəşanlığıdır. Qərbin media portallarında ermənilər, yaxud maraqları üst-üstə düşən adamlar tərəfindən yazılmış məqalələrin şahidi oluruq. Hamısı onu diqqətə çatdırmağa çalışır ki, guya, Azərbaycan Ermənistana hərbi müdaxiləyə hazırlaşır. Fəqət, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən sülh gündəmi bəyan edilib. Onu da bildirib ki, Azərbaycanın Ermənistanın torpağında gözü yoxdur. Düzdür, ortada anklav məsələsi var ki, onlar da Ermənistan torpağı sayıla biməz. Bu məsələ mütləq öz həllini tapmalıdır. Hərbi yolla deyil, danışıqlar vasitəsilə, delimitasiya nəticəsində həll olunmalıdır.**

**Digər bir məsələ Ermənistandan deportasiya olunmuş azərbaycanlıların geri qayıtmasıdır. Bu, heç də ərazi iddiası deyil, beynəlxalq humanitar hüquq çərçivəsində tanınan haqdır. Ermənilər isə necə deyərlər, "qara məni basınca, mən qaranı basım" aforizmi ilə hərəkət edirlər. Onlar təcavüzkar dövlət kimi torpaqlarımızı otuz il ərzində işğal altında saxlayıblar. İndi də ideoloji şou yaradıblar. Məqsəd bu yolla Azərbaycana təzyiq göstərmək, eləcə də Qarabağ ermənilərinin geri qayıtması kimi şüarlar səsləndirirlər. Bəli, Bakı onların Qarabağa qayıtmasına etiraz etmir, amma bununla paralel şəkildə Ermənistandan qovulmuş azərbaycanlıların məsələsi də həll olunmalıdır.**

***İ.HƏSƏNQALA***
***XQ***

# Üçtərəfli bəyanatın 9-cu bəndi ləğv olunurmu?

## *Paşinyanın anti-Rusiya davranışındakı yeni məntiq*



**(əvvəli 1-ci səhifədə)**

Əlbəttə, Ermənistan bölgədəki bütün nəqliyyat əlaqələrinin bərpasında maraqlıdır. Baş nazir Nikol Paşinyan yaxşı başa düşür ki, bu, son dərəcə vacibdir. Ancaq məsələyə bir qədər fərqli yanaşır. O bildirir ki, Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yol suveren Ermənistanın ərazisindən keçir və buna görə də həmin yolda ölkəsinin sərhəd və gömrük nəzarəti tətbiq edilməlidir. Üçtərəfli bəyanatda Nikolun dediyinin yolverilməzliyi haqqında bir şey yoxdur. Yalnız sırf bu mənada onu haqlı saymaq mümkündür. Reallıq isə budur ki, erməni baş nazir gücünü söz oyununda sınayır, manipulyasiya yolu tutur.

Göründüyü kimi, sənəddə çox aydın şəkildə qeyd edilir ki, yola nəzarəti Rusiya FTX-si etməlidir. Paşinyan sırf bu məsələni son bir aydakı çıxışlarının, müsahibələrinin hamısında inkar etməklə məşğuldur. Özü də, necə deyərlər, utanıb çəkinmədən. O, yola Rusiya hərbçilərinin nəzarət etməsi ilə bağlı nə isə yazılmadığını vurğulamaqdadır.

***

Ümumən, qeyri-reallığı həqiqət kimi təqdim etmək təkcə Paşinyanın deyil, bütövlükdə, onun komandasının şakəridir. Böyük anlamda yanaşsaq isə bu, tipik erməni xəstəliyinin simptomudur. Təsadüfi deyil ki, onilliklər ərzində boş xülyalar danışıblar. O qədər çox danışıblar ki, dedikləri yalanlara özləri də inanmağa başlayıblar. Görünür, üçtərəfli bəyanatın 9-cu bəndi ilə bağlı da eyni durumdur. O da görünür ki, Nikol bir neçə dəfə həmin bənddə yer alan müddəanı dandıqdan sonra hansısa həmkarı ona orada Rusiya FTX-si ilə bağlı yazılanları başa salıb. Yəqin, o zaman Paşinyan 9-cu bəndi tamamilə "ləğv edib". Gülməlidir, deyilmi?

***

Əlqərəz, "Hraparaq" da yazır ki, N.Paşinyan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın 9-cu bəndini ləğv etdiklərini dar çevrədəki həmkarlarına bildirib. Yəni, məsələnin rəsmi təsdiqi yoxdur. Belə yanaşma Paşinyan iqtidarının adətidir. Söhbət heç vaxt heç nəyi birbaşa, açıq şəkildə bildirməməkdən gedir. Nikol, eyhamlı danışmaqla, öz aləmində, diplomatik davrandığını sanır.

Eyhamlı danışmaqdan söz düşmüşkən, Paşinyan bir neçə gün əvvəl Ermənistanın 2024-cü il üçün dövlət büdcəsi layihəsinin müzakirəsi zamanı ölkəsinin Təhlükəsizlik Xidmətinin tərkibində xüsusi bölmənin yaradıldığını bildirib və deyib ki, məhz həmin bölmə Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirəcək yola nəzarəti həyata keçirəcək. Onu da nəzərə alaq ki, rəsmi Bakı Ermənistandan keçməklə Naxçıvana yol məntiqindən daşındığını açıqlayıb. Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev yolun İran ərazisindən keçəcəyini deyib. Şübhəsiz ki, bu, Ermənistanın məsələ ilə bağlı üçtərəfli bəyanatda nəzərdə tutulmuş öhdəlikləri yerinə yetirməyə razı olmamasından irəli gələn fikirdir. Bu, həm də o deməkdir ki, Bakı İrəvanın təhlükəsizlik təminatına güvənmir. Deməli, Nikolun ölkəsinin Təhlükəsizlik Xidmətində əlavə bölmə yaratmasına və bunun üçün büdcədən vəsait ayırmasına ehtiyac yoxdur.

***

Məsələyə bir qədər fərqli yanaşmaq, eləcə də Azərbaycanın Naxçıvana yolla əlaqədar son qərarına aydınlıq gətirmək üçün üçtərəfli bəyanatın 6-cı bəndinə diqqət yetirək. Bu bənddə Laçının Azərbaycana qaytarılması ilə yanaşı bildirilir ki, "Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 kilometr enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır. Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir".

Əlbəttə, Ermənistan bu bəyanat üzrə bir çox öhdəliklərini yerinə yetirmədiyi kimi, Laçın yolu üzrə yeni hərəkət marşrutu məsələsinə də əhəmiyyətsiz yanaşdı, ümumən, təxribatçı mövqe tutdu, Qarabağdakı separatçı qurumu az qala ayrıca dövlət kimi təqdim etməyə çalışdı, Laçın dəhlizi məntiqinə kökləndi və ona bir növ, eksteritoriallıq hüququ qazandırmağa cəhd göstərdi və sair. Bütün bunlar Azərbaycanı qəti addımlar atmağa vadar etdi və bu il sentyabrın 19-da başlamış və cəmi 23 saat 43 dəqiqə davam etmiş lokal xarakterli antiterror tədbirləri ilə ölkəmiz suverenliyinə qovuşdu. Artıq nə separatçı qurum var, nə də onun üçün nəfəslik funksiyasını yerinə yetirən Laçın dəhlizi. Azərbaycanla Ermənistan arasında hələlik tam müəyyənləşməmiş sərhəd xətti mövcuddur ki, həmin xətdə Laçın sərhəd nəzarət-buraxılış məntəqəsi fəaliyyətdədir. Deməli, üçtərəfli bəyanatın yeni marşrut məntiqi də yoxdur.

Belə görünür ki, üç il əvvəl Naxçıvana Ermənistandan keçməklə gedəcək olan yol məsələsi məhz üçtərəfli bəyanatın 6-cı bəndinə qarşılıq irəli sürülmüşdü. Yəni, o zaman Laçın dəhlizi məntiqi var idisə, ölkəmiz üçün də Zəngəzur dəhlizi məntiqi meydana çıxmışdı. Bu, Prezident İlham Əliyev başda olmaqla Azərbaycan dövlətinin son dərəcə incə düşünülmüş gedişi idi və əslində, 44 günlük müharibədən sonrakı diplomatik savaşın mühüm elementi kimi özünü göstərirdi. Hər halda, indi belə nəticəyə gəlmək mümkündür.

***

Bəli, Ermənistan üzərinə götürdüyü heç bir öhdəliklərə riayət etmədi, ötən müddətdə Qarabağdakı separatçı rejimi hər cür təmin etməyə və möhkəmləndirməyə girişdi. Üstəlik, N.Paşinyan, demək olar, bütün platformalarda Zəngəzur dəhlizi ideyasına qarşı barışmaz mövqeyini ortaya qoydu. Heç fərqinə də varmadı ki, bu cür ritorika ilə özünü çətin duruma salır. Bu gün isə o, faktiki olaraq Zəngəzur dəhlizinin tərəfdarı kimi çıxış edir. Nəinki çıxış edir, eyni zamanda, az qalır ki, ideyanın reallaşması üçün yalvarsın. Nikolun durmadan məsələdən söz açması fikrimizin təsdiqidir. Onu da deyək ki, erməni baş nazir söhbəti Zəngəzur dəhlizi şəklində deyil, "Dünya kəsişməsi" kimi qoyur.

N.Paşinyan özünün "Dünya kəsişməsi"ndə Rusiyanı heçə saymaq yolunu tutur. Nəzərə alaq ki, üçtərəfli bəyanatın 9-cu bəndinin ləğvi məsələsinin gündəmə gəlməsi də İrəvanın anti-Rusiya siyasətinin "məhsulu" kimi meydana çıxıb. Böyük ehtimalla Nikol Moskvanın adekvat davranışının nədən ibarət olacağını yoxlamaq istəyir. Ona görə məsələni şayiə kimi ortaya atır. Əlbəttə, Kreml şayiəyə reaksiya verən deyil. Amma ümumi ab-havadan və Rusiyanın siyasi istableşmentinin fikirlərindən reaksiyanın nədən ibarət ola biləcəyini təxmin etmək mümkündür.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Azərbaycandan kənarda yaşayanlar Heydər Əliyevin necə böyük lider olduğunu daha yaxşı dərk edirdilər

**Görkəmli şair, dramaturq, nasir və publisist, ictimai və dövlət xadimi, Azərbaycan Respublikasının birinci dərəcəli dövlət müşaviri, fövqəladə və səlahiyyətli səfir, Əməkdar incəsənət xadimi Hidayət Orucovla müsahibəmiz davam edir.**



## İkinci söhbət

***– Hidayət müəllim, danışdıqlarınızdan bəlli olur ki, Heydər Əliyevin birinci hakimiyyəti illərində, yaxşı vaxtlarında, hakimiyyətin zirvəsində olanda onunla şəxsi tanışlığınız, münasibətiniz olmayıb. Nədən Heydər Əliyev 1987-ci ildə bütün səlahiyyətlərini itirəndən sonra inadla, dönmədən onu müdafiəyə qalxdınız? Bu bir əxlaq məsələsi idi, yoxsa milli heysiyyatdan, qeyrətdən doğan qərar?***

– Mən qısa müddətdə Mığrıda işləyəndən sonra İrəvana bir inqilabçı ruhu ilə getmişdim. Əlbəttə, Bakıya gəlib rahat və yaradıcı bir mühitdə işləyə bilərdim, karyera qurardım. Bunun üçün perspektivlər böyük idi. Amma Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın həyatına da biganə qalmaq, onları öz talelərinə buraxmaq, soy-kökə, doğma yurda etinasızlıq, öz ruhumu tərk edib getmək olardı. Burada da erməni təzyiqi altında olan xalqımıza müsbətə doğru bir dəyişikliyə nail olmaq istəyirdim. İliyinə qədər millətçi olan ermənilərin əhatəsində buna nail olmaq çətin və mürəkkəb bir iş idi. O zaman üzə vurmasalar da, bizə olan münasibəti açıq hiss edirdik. Bir müddət işləyəndən sonra bunu daha aydın hiss etdim. Amma Azərbaycanda Heydər Əliyevin hakimiyyətə gəlişindən sonrakı fərqi də aydın gördüm. O zaman dərk etdim ki, nüfuzlu, güclü Azərbaycanın, onun qətiyyətli, sözübütöv, qüdrətli rəhbərinin olması nəinki Qərbi Azərbaycanda, bütün Sovet İttifaqı ərazisində yaşayan həmvətənlərimizin taleyində çox mühüm rol oynayır.



Ona görə mən Heydər Əliyevlə cəmi bir dəfə, qəfil bir görüşdən başqa heç vaxt görüşməsəm də, onu şəxsən tanımasam da ona heyran oldum, Heydər Əliyevçi oldum. 1987-ci ildə ona qarşı təqiblər başlayanda özümə mənəvi və əxlaqi bir borc bildim ki, Heydər Əlirzaoğlunun özünün xəbəri olmadan belə, heç bir təşəkkür gözləmədən onu müdafiə edim. Bəlkə də təvazökarlıqdan kənar görünür, amma həqiqətdir ki, Heydər Əliyevi elə məqamlarda müdafiə etmişəm, Azərbaycanda bəlkə də heç bir yazıçı, heç bir jurnalist, onu mənim kimi ardıcıl müdafiə etməyib. O zaman Azərbaycandan kənarda yaşayanlar, xüsusilə Ermənistanda yaşayanlar Heydər Əliyevin xalqımız üçün necə böyük dəyər olduğunu daha yaxşı dərk edirdilər. İrəvandan Heydər Əliyevin böyüklüyü, bütün azərbaycanlılar üçün müstəsna bir şəxsiyyət olduğu daha aydın görünürdü. Lakin Heydər Əliyev haqqında əfsanələr gerçək olanda, onun şöhrəti nəinki Azərbaycanın, Cənubi Qafqazın silsilə dağlarını aşıb Sovet İttifaqına, dünyaya yayılmağa başlayanda artıq ermənilər ona qatı düşmən kimi münasibət bəsləməyə başladılar.

Bir xatirəni də danışım. 1960-cı illərdə Azərbaycanda mədəni həyatda da bir qədər durğunluq var idi və teatr, incəsənət arxa planda idi. Heydər Əliyev gələndən sonra təbii ki, bu sahəyə də çox böyük diqqət və qayğı göstərməyə başladı. Yadımdadır, o illərdə SSRİ xalq artisti, SSRİ Ali Sovetinin deputatı, məşhur teatr rejissoru Hraçya Qaplanyanı Bakıya dəvət etmişdilər. İstəyirdilər onu teatrda islahatlar aparmaq üçün bir məsləhətçi kimi istifadə etsinlər. Heydər Əliyev onu şəxsən qəbul etmişdi. Qaplanyan İrəvana qayıdandan sonra mənə danışdı ki, Heydər Əliyev ona deyib: "Mənə dedilər, qonşu respublikada belə bir teatr rejissoru var. Mən də dedim, niyə Moskvadan, ayrı respublikalardan mütəxəssis çağıraq, elə öz qonşularımızdan dəvət edək".

Qaplanyan danışırdı ki, "Azdrama"nı gəzəndə baxdım ki, səhnə avadanlığı, texnika çox köhnədir. Əksər avadanlıq lap sıradan çıxmış vəziyyətdə idi. Bütün bunları Heydər Əliyeviçə bir ürəyiyanlıqla dedim. Heydər Əliyev də dedi: "Görürsünüz də, bütün bunları mənə heç kim deməyib. Lazım olan qurğular, səhnə avadanlığı barədə məlumat verməyiblər". Deyir, "Mən barmağımı dişlədim ki, birinci katibə danışdıqlarım Bakıdakı həmkarlarım üçün yaxşı olmayacaq. Çünki eşitmişdim ki, Heydər Əliyeviç işinin öhdəsindən gələ bilməyən bir neçə naziri bir gündə işdən çıxarır. Ona görə vəziyyəti düzəltmək üçün dedim: "Heydər Əliyeviç elə bizdə də avadanlıq belə idi, son vaxtlar dəyişməyə başlamışıq".

Qaplanyan Bakıda Azərbaycan Akademik Milli Dövlət Dram Teatrında Şekspirin "Üçüncü Riçard" pyesini tamaşaya qoymalı idi. Bu da bir erməni bicliyi idi ki, demişdi bir erməni əsəri qoyum truppanı tanıyım. Qərara gəlmişdi Hakop Paronyanın "Şərqli diş həkimi" pyesini səhnələşdirsin. Paronyan Türkiyə erməni olduğu üçün əsərinin dili çox qəliz idi. Ona görə rejissor demişdi bu əsəri ancaq Hidayət tərcümə edə bilər. Tərcümə etdim və əsəri səhnəyə qoydular. Tamaşada Hökümə Qurbanova və bizim digər məşhur sənətkarlarımız oynadılar. Buna baxmayaraq, sonra heç Qaplanyan da bura gələsi olmadı, məsləhətçiliyi də baş tutmadı.

Yəni Heydər Əliyevin əzəməti, böyüklüyü məni elə şövqləndirmişdi ki, 1982-ci ilin noyabrında o SSRİ-nin baş şəhəri Moskvaya dəvət olunanda, Siyasi Büronun üzvü seçiləndə, Nazirlər Soveti sədrinin birinci müavini təyin ediləndə ona bir şeir də yazmışdım. Şeirdə belə misralar var:

*Dağ başında dalıb kövrək xəyala,*
*Zirvələrdən əl edirəm hər yala,*
*Ayaqlarım yol maşını!*
*Şimala*
*Yön alıram, qarlı, buzlu bir səhər.*

*Bu qış başqa qış olacaq, əzizim,*
*Donmayacaq çayım, çeşməm, dənizim!*
*İzsiz göyə iz salacaq hər izim,*
*Öz qınında çatlayacaq çox qəhər.*

*Məlikməmməd oyanacaq o başdan,*
*Dəli Domrul sağ çıxacaq vuruşdan,*
*Simurq quşum, bu qışdakı uçuşdan*
*Başlayacaq Aya, Günə min səfər*

***– Hidayət müəllim, siz Bakıya gələndə Heydər Əliyevə münasibət necə idi? Onun qoyub getdiyi kadrların söhbətlərində, danışıqlarında bir dəyişiklik hiss edirdinizmi?***

–Bakıya 1984-cü ildə gəldim və bir müddətdən sonra hiss etdim ki, açıq bəyan etməsələr də, üstüörtülü bəzi dairələrdə Heydər Əliyevə münasibətdə bir qərəz, kin var. Əlbəttə, tənqid etməyə, haqqında nəsə danışmağa cəsarət etmirdilər. Çünki Heydər Əliyev Siyasi Büronun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini idi.

Sovet İttifaqı da yavaş-yavaş çalxalanmağa başlayırdı deyə, ermənilər donosbazlıq edirdilər. 3 ildən bir az artıq müddətdə Baş katiblərin üçü bir-birinin ardınca vəfat etdilər və 1985-ci ilin martında artıq Mixail Qorbaçov hakimiyyətə gəldi. Bundan sonra Kremldə ermənipərəst qüvvələr güclənməyə başlamışdı. Daha çox onlar Əliyevə qarşı gizli yazışmalar, donoslar təşkil etdirirdilər. Hiss edilirdi ki, Heydər Əliyevə qarşı çox ciddi şəkildə kampaniya aparırlır. Azərbaycanda da Əliyevin yaxınlarına münasibət sürətlə dəyişirdi...

Mən "Gənclik" nəşriyyatının baş redaktoru işləyirdim. Bir gün "Təbiətin yaşıl libası" kitabının müəlliflərindən biri, elmlər namizədi Mahmud Xəlilov həmin kitabın çapı ilə bağlı yanıma gəlmişdi. Heydər Əliyev də bir neçə ay olardı ki, Qorbaçovun təzyiqi ilə istefaya getmişdi. Kitabın da əsas müəllifi Heydər Əliyevin böyük qardaşı akademik Həsən Əliyev idi. Mahmud müəllimə dedim: "Siz bu təzə qəzetlərə baxın, mən də bir kitaba baxım, sonra qərarımı deyim". Kitabı bir xeyli vərəqləyib bəzi yerlərini diqqətlə oxudum və dedim mən bu kitabı çap edəcəm. Mahmud müəllim bir az diksinən kimi oldu, yəni Heydər Əliyevin qardaşı Həsən Əliyevin müəllifi olduğu kitabı çap etmək olar? Təkrar sual verdi ki, "nə vaxt çap edə bilərsiniz?" Dedim: "Gələn ilin planına salıb çap edərəm". Onu tam arxayın yola saldım. O gedəndən bir saat, saatyarım sonra Həsən müəllim mənə zəng etdi. Dedim: "Arxayın olun, kitabı çap edəcəyik, mən qərarımı bildirdim". Dedi: "Gəlib sizi görmək istəyirəm". Dedim: "Ağsaqqalı ziyarət edərlər. Mən özüm sizin yanınıza gələrəm". Vədələşdik, elə sabahı günü Coğrafiya İnstitutuna getdim.

Payız idi, hava da soyuq. Mən qəbul otağına girəndə, Həsən müəllimin yanında Moskvadan qonaqlar var idi. Qonaqları qoyub gəlib mənimlə görüşdü və üzbəüz otağa keçdik. Çox səmimi söhbətimiz oldu, bir az da uzun çəkdi. Açığını deyim ki, çox maraqlı tarixi hadisələr danışdı. Əlbəttə, hamısını danışmaq çox vaxt aparar. Amma maraqlı bir faktı deyim. Həsən müəllim danışırdı ki, 1918-ci ildə erməni quldur dəstələri ilə Zəngəzura gələn Andranik, Dro, Nijde onların yaşadığı kəndə də soxulublar və təkcə Heydər Əliyevin atası Əlirza kişinin yaxınlarından, ailəsindən 18 ya 19 nəfəri qətlə yetiriblər. Yəni 40-45 dəqiqədə Həsən müəllim mənə ermənilərdən o qədər zəngin faktlar danışdı, mən heyrətə gəldim ki, bu insan Azərbaycanın yeni tarixini nə qədər yaxşı bilir. Sonra yenə kitabdan söz saldı, dedim: "Həsən müəllim, kitabdan arxayın olun, onu çap edəcəyik". Sonra bir-iki nəfər mənə dedi: "Başın ağrıyacaq, yuxarıda eşidər-bilərlər, işini çətinə salma". Amma heç nəyə baxmadan kitabın çapını "genplana" saldım və həqiqətən də kitab 1988-ci ildə işıq üzü gördü.

İlk görüşümüzdən sonra Həsən müəllim hər dəfə "Azərnəşr"in binasının yaxınlığından keçəndə mütləq mənim yanıma qalxar, siyasi proseslərdən, yaxın tariximizdən çox maraqlı söhbətlər edərdi. Son dərəcə maraqlı və dərin zəkalı bir insan idi. İkinci bir tərəfdən də, dünya çapında kifayət qədər yaxşı tanınan təbiətşünas alim idi. Bununla yanaşı, həm siyasi prosesləri dərk edən, vaxtilə Azərbaycan rəhbərliyində təmsil olunan dövlət xadimi idi...

***– Həmin illərdə mən universitet tələbəsiydim, amma Heydər Əliyevə olan isti münasibətimdən hadisələri diqqətlə izləyirdim. Həqiqətən, ulu öndərə qarşı təkcə Moskvada deyil, Bakıda da son dərəcə ədalətsiz hücumlar olurdu. Demək istədiyim odur ki, onu müdafiə etmək, onunla bir səngərdə olmaq elə də asan məsələ deyildi. Yəqin Sizə də təzyiqlər az olmayıb?***

– Azərbaycanda, sözün əsl mənasında, Heydər Əliyevə qarşı ikinci cəbhə açılmışdı. Yəni Heydər Əliyevin qurub-yaratdığı, inkişaf etdirdiyi Azərbaycanda ən yüksək vəzifələrə irəli çəkdiyi milli kadrların böyük bir hissəsi ulu öndər vəzifədən gedən kimi onun əleyhinə çıxışlar etməyə başlamışdılar. Bir qism adamlar da sadəcə onlara dəyib-dolaşmasınlar deyə, kənara çəkilib susurdular. Ortada bir-iki tanınmış adam qalmışdı, onlardan biri mən idim, biri Əjdər Xanbabayev idi və s.

Yeri gəlmişkən, əvvəlcə elə rəhmətlik Əjdər müəllim haqqında söz açım. Əjdər müəllim "Azərnəşr"in direktoru, mən isə "Gənclik" nəşriyyatının baş redaktoru idim. Bir binada otururduq. Əjdər müəllim əvvəllər Dövlət Mətbuat Komitəsinin sədr müavini idi, amma Əbdürrəhman Vəzirov birinci katib təyin olunan kimi, Naxçıvandan, Qərbi Azərbaycandan olan bütün vəzifəli adamları bir-bir vəzifədən uzaqlaşdırdı. Onu da Mətbuat Komitəsindən "Azərnəşr"ə direktor göndərdilər.

Bir gün nahar fasiləsində gördüm Əjdər müəllim bir neçə əməkdaşımızla "Azərnəşr"in giriş qapısında durub söhbət edir. Bundan 20-25 gün əvvəl də Əjdər müəllim öncə Türkiyədə olmuşdu, sonra qayıdıb bir gün Bakıda qalıb İrana getmişdi. Bu müddətdə onu görməmişdim. Məni görən kimi çağırdı və dedi, sənin filan yazını oxudum, çox yaxşı idi. Mən də zarafatla dedim: "Əjdər müəllim, bunu İranda oxudunuz, yoxsa Türkiyədə?"

Dedi: "Mən onu Naxçıvanda oxudum, sonra Culfadan Moskvaya telefonda bir adama onun bəzi yerlərini oxudum, sonra getdim İrana". Heç ağlıma gəlməzdi ki, o Moskvada bunu kimə oxuya bilər. Dedim: "Təşəkkür edirəm ki, mənim yazılarımı oxuyursunuz". Dedi: "Mən sənin yazılarını nəinki oxuyuram, onları yığıram". Sonra qayıtdı: "Gedək mənim kabinetimə, sənə deyəcək sözüm var". Qalxdıq kabinetə. Əjdər müəllim stolun siyirtməsindən bir qovluq çıxartdı, üstünə elə rus dilində yazılmışdı "İdayat". Ordan elə materiallarımı çıxarıb göstərdi, məətəl qaldım, hətta dedim: "Əjdər müəllim, bunların çoxu heç mənim özümdə yoxdur. Verərsiniz, üzünü çıxarıb qaytararam". Dedi: "Baxarıq". Doğrusu, mənim heç ağlıma gəlməzdi ki, onun Heydər Əliyevlə yaxınlığı ola bilər. Bu söhbətimiz 1990-cı il may ayının sonunda nahar vaxtı oldu.

Bir neçə gün sonra iş vaxtının sonunda Dövlət Nəşriyyat Komitəsinin sədri Rəşid Mahmudovun yanına qalxdım, ona bir-iki sözüm vardı. Katibə dedi, yanında adam var, çıxsın sonra siz keçərsiniz. Keçdim sədrin müavini Rafael Məmmədovun kabinetinə. Gördüm Əjdər müəllim də, şair Taleh Həmid də burdadılar. Həmin günü mən maşınsız idim. Taləhə dedim, nə yaxşı burdasan, maşınnansa məni də evə apararsan. Dedi: "Baş üstə". Burada bir az söhbətləşəndən sonra mən Rəşid müəllimin yanına girib sözümü deyib çıxdım ki, Taleh məni gözləyir. Əjdər müəllim qaldı Rafael müəllimin kabinetində, biz durub getdik evə.

Evə çatıb əl-üzümü yudum, yenicə stola oturmuşdum ki, telefon zəng çaldı. Qaldırdım ki, Cəlal Əliyevdir. Hövlənək dedi: "Əjdəri vurdular!" Əvvəl ağlıma gəlmədi ki, hansı Əjdərdən söhbət gedir. Sonra dedi: "Bəs Əjdər Xanbabayevi deyirəm". Dedim: "Axı 40-45 dəqiqə əvvəl bir yerdəydik". Dedi: "Bilirəm".

Bundan xeyli əvvəl, bir gün iş otağımda oturub kitab oxuyurdum, qəfil qapı açıldı, Cəlal Əliyev girdi içəri. Açığı onu həyatda heç görməmişdim, amma qapıda görən kimi tanıdım. Mənim yazılarım onda maraq oyadıb, gəlib ki, görüm bu Hidayət kimdir? Təşəkkür etdi, xeyli söhbət etdik. Sonralar Heydər Əliyevin əsasən xaricdə çap olunmuş müsahibələrini gətirib mənə verdi. Ulu öndər hələ Moskvada idi, Bakıya gəlməyə imkan vermirdilər. Mən də əlaqələrimdən istifadə edib bu müsahibələri faksla İrana, Türkiyəyə, hətta Polşaya göndərdim. Polşada bir Kulik adlı redaktor tanışım vardı, mən ona göndərdiyim materialları o da başqa sosialist ölkələrinə yayırdı.

Aradan illər keçdi. Heydər Əliyev artıq Azərbaycan Prezidenti idi. Bir dəfə də Respublika sarayında tədbir öncəsi yüksək vəzifəli məmurlar, nazirlər həmişəki kimi salonun arxasındakı gözləmə otağına toplaşmışdılar. Heydər Əliyev hələ gəlməmişdi. Cəlal müəllim də oradaydı. Mənə baxıb dedi ki, "gördüm bir oğlan elə yazır e, heç nəyə baxmır. Dedim, görüm bu kimdir. Əvvəl kitab çap etmək bəhanəsiylə "sekretarımı" göndərdim. Bu gəlib Hidayət haqqında yüksək fikirlər söylədi. Sonra özüm durub getdim yanına..."

Cəlal Əliyevin Əjdər müəllimlə bağlı söylədiyinə heç cür inana bilmirdim. Bir-iki dost-tanışa, onunla bir binada yaşayan əməkdaşlarımıza telefon açdım. Konkret bir fikir deyən olmadı. Yadıma Bakı Dövlət Universitetinin müəllimi Əliyar Səfərli düşdü. Əjdər müəllimlə dost idilər. Əjdər müəllim də Mətbuat Komitəsinin mikrorayonda təzə istifadəyə verilmiş binasına yenicə köçmüşdü. Əliyar müəllimə zəng vurub Əjdər müəllimin təzə evinin telefonunu istədim, dedi məndə də yoxdur. Bir neçə dəqiqə fikrə getdim ki, kimdən öyrənim, bu xəbər düzdür, yoxsa yox. Telefon zəng çaldı. Qaldırdım ki, Əliyar müəllimdir. Dedi: "Day axtarma. İş-işdən keçib. Həkimin özü ilə danışdım. Əjdər artıq həyatdan köçüb". Çox mütəəssir oldum...

Sonra öyrəndik ki, Əjdər müəllim Heydər Əliyevlə çox sıx əlaqə saxlayırmış və onun Bakıya qayıtmasına hazırlıq işləri görürmüş. Bunu da təbii ki, o zamankı hakimiyyətə tabe olan xüsusi xidmət orqanları bilib və rəhbərliyə məlumat veriblər.

Əjdər Xanbabayevin "Azad qadın" heykəlinin arxasında yaşayan dostu bir neçə ay əvvəl rəhmətə gedibmiş. O da vaxtaşırı bazarlıq edib, elə qapıda ailəsinə verib çıxırmış. Bunu izləyiblər. Son dəfə də zənbili dostunun evində qapıda verib gəlir və maşına oturanda onu odlu silahla vururlar.

Dəfn günü Rəşid Mahmudov mənə zəng vurub dedi, sən orda çıxış et. Dedim: "Rəşid müəllim, yaxşı olardı Əjdər müəllimlə bir yerdə işləyən yaşlı adamlardan biri çıxış etsin. Axı mən onunla işləməmişəm, yaxından dostluğumuz olmayıb". Gördüm Rəşid müəllim çox təkid edir. Sonra bildim ki, heç demə çıxış edən tapılmırmış. Əjdər müəllim də çox nüfuzlu şəxs idi və Azərbaycanda ən peşəkar naşir idi. Heydər Əliyevlə əlqələrini bilib dəfnində qorxudan heç kim çıxış etmək istəmirdi. Mən razılaşdım.

Cənazəni Ensiklopediya Mərkəzindən götürdülər. Amma mitinq qəbiristanlıqda oldu. Orada şair Bəxtiyar Vahabzadə, mən, bir də Elmlər Akademiyasından bir nəfər danışdı. Açığı, mən çox emosional çıxış etdim. Düzdür, çəkiliş yox idi. Amma sonra bildim ki, Əjdər müəllimin qohumu Rizvan Vahabov xəlvəti çıxışları diktafona yazıbmış. Bir müddət sonra Rizvan həmin çıxışımı mənə bağışladı. Yazıçı-jurnalist Elmira Axundova mənim o çıxışımı "Naşirin ölümü" kitabına salmışdı.

Əjdər Xanbabayevin dəfnindəki çıxışımdan sonra mənə qarşı yeni hücumlar başladı. O vaxt Naxçıvanda mətbəələrə baxan bir idarə var idi, Mətbuat Komitəsinin tabeliyində idi. Onun müdirini tanıyırdım, bir neçə dəfə yanımda olmuşdu. Əjdər müəllimin qətlindən sonra məxsusi olaraq yanıma gəlmişdi. Dedi: "Əjdər müəllim Naxçıvana gəlmişdi, sizin qəzetdə dərc edilən, Heydər Əliyevi dəstəkləyən yazınızı oxudu. Sonra istədi bunu Heydər Əliyevə çatdırsın. Evdən zəng etmədi, Naxçıvandan da zəng etmədi. Culfaya getdik, ordan danışıq məntəqəsindən Moskvaya zəng vurdu və sizin yazınızı, demək olar, əvvəldən axıra qədər Heydər Əliyevə oxudu".

**(ardı var)**

***İlqar RÜSTƏMOV,***
***Əməkdar jurnalist***

# Ana dilinin və dilçiliyin böyük himayədarı



**Azərbaycan ədəbi dili dilçilik elminin inkişafı nöqteyi-nəzərindən tarixin müəyyən məqamlarında diferensiya və inteqrasiya baxımından təzadlı mərhələlərini yaşayıb. Bu faktorları şərtləndirən başlıca amil, ilk baxışda nə qədər paradoksal görünsə də, milli dövlətçiliyimizin taleyində yaşanan qabarmalar və çəkilmələrlə bağlıdır.**

Azərbaycan dil tarixi məktəbində ədəbi dilimizin ümumxalq dil platformasında formalaşması barədə postulatların məntiqi də təsdiq edir ki, hər bir dilin normal inkişaf mühiti dedikdə, o dilin daşıyıcısı olan xalqın dövləti və dövlətçilik təfəkkkürü başa düşülür.

Adi həqiqətdir ki, dilin areal və leksik genişliyi onun daşıyıcısı olduğu dəyərlərin miqyası ilə ölçülür. Bu məlum həqiqətin daha bir təsdiqi bütün dillərin inkişaf yollarının onun müxtəlif ictimai-siyasi, nəzəri mülahizələrin predmetinə çevrilməsi ilə bağlıdır. Azərbaycan ədəbi dilinin təşəkkül tapmasını ona görə də dilçilik məktəbimiz XIX əsrin sonlarına yaxın, milli mətbuatımızın ilk nümunəsi olan "Əkinçi"nin nəşri ilə başlayan, daha sonra "Şərqi-Rus", "Həyat", "Fyüzat", "İrşad", "Tazə Həyat", "Molla Nəsrəddin", "Bahar", "Kəşkül" və digər çoxsaylı qəzet-jurnalların fəaliyyəti ilə bağlayır.

Bununla belə, ədəbi dilimizin formalaşması dövrü 1918-ci illər ərəfəsi və ondan sonrakı dövrlərlə, demək olar ki, sinxronlaşdırılmış bağlılığı mübahisəsiz qəbul edilir. Elmi-filoloji qaydalar və normaları ilə dil tariximizin ən böyük faktı kimi Mizrə Fətəli Axundovun nəsr və dramaturgiyasında, milli mətbuatımızın standartı kimi qəbul edilən "Əkinçi" və "Fyüzat"ın səhifələrində, teatr tamaşalarında, nəhayət, Cümhuriyyətin elan olunmasından sonra dövlət dəftərxanalarında görünən ədəbi dil genişlənərək zənginləşmək üçün münbit şərait axtarışında idi.

1918-ci il may ayının 28-də Azərbaycan Demokratik Respublikasının 23 aylıq fəaliyyəti müddətində dilimizə Dövlət dili statusu verilməklə, onun işlənmə arealının sürətlə genişlənməsi üçün dövlətin iradəsi bu məsələdə həlledici oldu. Proses cəmiyyətin ictimai-siyasi həyatı ilə o qədər üzvi bağlılıqla inkişaf edirdi ki, onun qarşısını 1920-ci il aprel ayının 28-dən, yəni Cümhuriyyətin bolşevik Rusiyası tərəfindən devrilməsindən sonra da almaq mümkün olmadı. Dilçiliyimizdə məhz Azərbaycan ədəbi dilinin funksional tipologiyasının müəyyənləşməsi həmin dövrlərdən hesablanır. Üstəlik, həmin dövrlər onun müqayisəedilməz səviyyədə inkişafı, oynadığı sosial rol, işlənilmə zərurətinin artması – bütün bunlar dilimizin inkişaf tarixində yeni və əsaslı mərhələnin başlanğıcını qoydu.

Başlanan proses daxilində, xalqımızın ictimai-siyasi baxışları ilə heç də üst-üstə düşməyən yeni bir ictimai formasiya mühitində Azərbaycan ədəbiyyatı və mədəniyyətində, onların fonunda milli mətbuatımızın inkişaf tendensiyası müşahidə edilirdi. Azərbaycan peşəkar musiqi sənətinin əsasını qoymuş Üzeyir Hacıbəylinin şəxsində mədəniyyətimiz, Rza Təhmasib, Sidqi Ruhulla, Mirzağa Əliyev, Abbasmirzə Şərifzadə, Mustafa Mərdanov, Leyla Bədirbəyli və digər sənət adamlarının çiyinlərində dayanan teatrımız intibah dövrünü yaşayır və ölkənin ədəbi-mədəni həyatında gedən müsbət tendensiyalar ədəbi dilin inkişaf mühitini yaradırdı.

Sovetləşmənin birinci onilliyi müddətində Azərbaycan dilinin rəsmi olaraq Dövlət dili statusunda olması, 1922-ci ildə Azərbaycan hökumətinin qərarı əsasında yeni Əlifba Komitəsinin yaradılması, həmin komitəyə Azərbaycan dili üçün latın qrafikalı əlifba tərtibinin tapşırılması Xalq Komissarları Sovetinin Sədri, dramaturgiyamızda tarixi dramın banisi Nəriman Nərimanovun şəxsi nüfuzu ilə atılan addımlar idi. O addımlar ilkin nəticə verməkdə idi.

1926-cı ildə Bakıda keçirilmiş Birinci Ümumittifaq Türkoloji qurultayın tövsiyələrinə cavab olaraq, 1929-cu il yanvarın 1-dən Azərbaycan SSR-də kütləvi şəkildə latın qrafikalı əlifbanın tətbiq edilməsi də kinetik enerjinin göstəriciləri kimi qəbul edilə bilər. Baxmayaraq ki, 1940-cı il yanvarın 1-dən Azərbaycanda kiril yazısı əsasında tərtib edilmiş yeni qrafikalı əlifbaya keçildi, amma, necə deyərlər, proses başlamışdı və mütəxəssislərdə dilimizin fonetikasının kiril əlifbası ilə ifadəsinin qüsurlu olduğu barədə qənaətlər əvvəl elm və təhsil müəssisələrində, qəzet redaksiyalarında, hətta siyasi-inzibati rəhbərliyin kluarlarında pıçıltı ilə olsa da, müzakirə edilirdi.

1969-cu il iyulun `14-də Heydər Əliyevin respublikamızda siyasi hakimiyyətə gəlməsindən sonra Azərbaycan dili ətrafında yaradılmış buz qatlarının yoxa çıxması müşahidə olundu. Bu, daha çox o dövrdə Azərbaycan mətbuatının avanqardı olan "Kommunist" qəzetinin (indiki "Xalq qəzeti") 1969-cu il sentyabrın 18-də Akademik Dram Teatrının binasında 50 illik yubiley tədbirində ölkənin gənc və xarizmatik liderinin çıxışına siyasi tribunalardan "yığışdırılmış" ecazkar Azərbaycan dilindəki çıxışı ilə baş verdi. Bundan 42 gün sonra – noyabrın 1-də Azərbaycan Dövlət Universitetinin (indiki BDU) 50 illik yubileyində də Ulu öndər Azərbaycan dilində nitq söylədi. Respublikanın gənc rəhbərinin günümüzdə hamı üçün adi qarşılanacaq bu addımının ötən əsrin 70-ci illərində açıq səmada şimşək effekti yaratmasının səbəbini isə 15 il əvvəl ölkədə baş verən və partiya-sovet orqanlarında repressiv adlandıra biləcəyimiz "təmizləmə əməliyyatı" ilə yerli rəhbərliyə və ziyalılara verilən "dərs"də axtarmaq lazım gəlir.

Bu, 1956-cı il iyul ayının 24-də Azərbaycan KP MK bürosunun "Azərbaycan SSR Konstitusiyasına Azərbaycan SSR-nin Dövlət dili barəsində maddə əlavə edilməsi haqqında" qərarına Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosunun kəskin münasibətindən sonra Azərbaycan siyasi elitasında atılan cəsarətli addım idi. Xatırladaq ki, həmin qərarda Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin "Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir. Azərbaycan SSR ərazisində yaşayıb azlıq təşkil edən millətlərə həm öz mədəniyyət idarələrində, həm də dövlət idarələrində ana dilini sərbəst inkişaf etdirmək və işlətmək hüququ təmin edilir"-təkilifinin Ali Sovetinin üçüncü sessiyasının müzakirəsinə çıxarılması ilə bağlı təklifinə etiraz edilmirdi.

16-17 illik fasilədən sonra Heydər Əlirza oğlu Əliyevin Azərbaycan siyasi elitasının və SSRİ-nin müxtəlif subyektlərindən, o cümlədən Moskvadan gəlmiş qonaqların iştirakı ilə keçən mötəbər məclisdə bütün daşlaşmış ritualları pozması Ümumittifaq səviyyədə diqqətçəkən cəsarətli addım idi. Statistik, hətta, məlumatlı azərbaycanlıların bəlkə də unutduğu və yaxud unutmaq istədikləri o hadisəni, əlbəttə, Ümummilli lider yaxşı xatırlayırdı. Ancaq strateji planlarla Azərbaycanın 1-ci postuna gələn partiya lideri siyasətin şahmat oyununda mittelşpil mərhələsinə keçidi qaçılmaz sayırdı. Bu, həm də ona görə idi ki, həmin addımın davamı 1974-cü ildə Azərbayan SSR Dövlət Mükafatı nominantları siyahısında "Müasir Azərbaycan dili" dərsliyinin salınması oldu. Növbəti addımın Sovet Azərbaycanı Konstitusiyasına Azərbaycan dilinin Dövlət dili olaraq təsbit edilməsi artıq İttifaq miqyasında siyasi rəhbərliyin Sov. İKP MK-nın Siyasi Bürosunda bu məsələyə münasibət bildirməsi ilə nəticələndi.

Ümummilli liderimiz Azərbaycana ikinci dəfə siyasi rəhbərliyə gələndən sonra müstəqil Azərbaycan Respublikasının Prezidenti olaraq yeni Azərbaycan Respublikasının Konstitusiyası — Azərbaycan Respublikasının Əsas Qanununun hazırlanması üzrə komissiyanın sədri olarkən atdığı addımlar və bu addımlara ən yüksək səviyyədə reaksiyalar barədə danışırdı. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə qəbul olunmuş Ana Qanunumuzda Azərbaycan dilinin dövlət dili kimi salınmasından doğan o söhbətlər nə dərəcədə ibrətamiz idi...

Prezident Heydər Əliyevin dilimizin qorunaraq inkişaf etməsi ilə bağlı hansısa ali dövlət sənədinə atdığı imzanın arxasında nə qədər səmimiyyət olduğunu həmin tarix haqqında məlumatlı olanlar daha yaxşı bilirlər.

Belə sənədlərdən biri "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Azərbaycan Rrespublikası Prezidentinin 2001-ci il avqust ayının 9-da imzaladığı fərmanıdır. Fərmanın preambulasında həmin hadisənin xalqımızın və dövlətimizin həyatında gün kimi qalmasının hansı zərurətdən yarandığı və ümumiyyətlə, bu faktın fəlsəfəsi açılır: "Qədim və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqı dünya sivilizasiyasına bir çox dəyərli töhfələr vermişdir. Onların ilk nümunələri bəşər tarixinin böyük kəşfi olan yazı vasitəsi ilə Qobustan və Gəmiqaya təsvirləri, həmçinin epiqrafik abidələr şəklində daşların yaddaşına həkk olunaraq günümüzədək yaşamışdır. Tarixi faktlar sübut edir ki, bu qiymətli əsərləri yaradarkən Azərbaycan xalqı müxtəlif əlifbalardan istifadə etmişdir".

Ali dövlət sənədi ilə hər il avqust ayının 1-ni xalqımız Azərbaycan Respublikasında Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edir. Bunun ardınca ölkəmizdə "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Qanunu da xalqımızın ən böyük maddi və mənəvi sərvəti kimi qəbul etdiyimiz Azərbaycan dilinə qayğını dövlətin başlıca vəzifəsi elan edən sənəddir.

Əlbəttə, Ümummilli liderimizin imzaladığı analoji dövlət sənədləri xalqımız və dövlətimiz üçün ən vacib məsələlərin diqqətdə saxlanılması ilə bərabər, dövlərin və dövlətçiliyin yaratdığı ənənələr baxımından diqqətçəkəndir. 2003-cü ilin oktyabrında seçicilərin böyük əksəriyyətinin iradəsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyevin bu ənənələri qorumaq və inkişaf etdirməyə yönələn addımlarının nəticəsidir ki, xalqımız 20 ildən artıq müddətdə müdrik olduğu qədər də qətiyyətli, strateji düşüncəli dövlət xadimi ilə birlikdə addımlamağa səs verir. Bunun başlıca səbəbi ancaq son üç ildə xalqımızı 35 ilə yaxın müddətdə ən çətin sınaqlarla imtahana çəkən, ona Xocalı acısını yaşadan, həyatının 28 ilini Şuşasız yaşadan, on minlərlə oğul və qızını qətlə yetirən, 30 ilə yaxın müddətdə ərazisinin 20 faizindən çoxunu işğalda saxlayan, onun ləyaqəti ilə oynayan erməni separatizmini və Ermənistanı kapitulyasiya aktına məcbur etməsi deyil. Prezident İlham Əliyev bu 20 ildə təsdiq etdi ki, Ümummilli liderin və Zərifə xanım Əliyevanın ailəsində xalqımıza məxsus ən müqəddəs dəyərlərlə böyüyüb və həmin dəyərlərin daşıyıcısıdır. Məhz o dəyərlər Prezident İlham Əliyevin ölkə rəhbəri postunda fəaliyyətinin əsas generasiya mənbəyi olub və bu keyfiyyət onun taleyüklü strateji məsələlərə yanaşmasında xüsusilə qabarıq görünür.

Ölkə televiziyaları ilə yayımlanan, Prezident İlham Əliyevin Anar Kərimovu mədəniyyət naziri təyin olunması ilə bağlı videoformatda qəbul zamanı onun yeni təyin olunan nazirlə söhbəti zamanı Dövlət dilimiz olan Azərbaycan dilinin qorunmasına münasibəti nə qədər səmimi və ibrətamiz idi. Bu fikirlər hər birimiz üçün yol xəritəsi idi: "Əsrlərboyu bizi xalq kimi, millət kimi qoruyub saxlayan bizim ana dilimizdir, Azərbaycan dilidir. Azərbaycan dilinin qorunması hamımızın vəzifəsidir. Mən ana dilinin qorunması ilə bağlı müxtəlif vaxtlarda öz sözlərimi demişəm. Azərbaycan Milli Elmlər Akademiyasının kürsüsündən və digər tədbirlərdə demişəm ki, bizim zəngin dilimiz var, biz haqlı olaraq dilimizlə fəxr edə bilərik. Hesab edirəm ki, zənginliyi nöqteyi-nəzərindən Azərbaycan dilinin dünya dilləri arasında xüsusi yeri vardır".

Prezidentin son cümləsindəki təəssüf hissi xalqımızın tarixin müxtəif dövrlərində itirilmiş dövlətçiliyindən yaranan, dolğun dünyagörüşün və zaman-zaman yaratdığı, yaşatdığı, daşıyıcısı olduğu dəyərlərlə zəngin əsərlərin heç də hamısının gələcək nəsillərə çatmadığının etirafı idi. Buna görə idi ki, prezidentliyinin ikinci ilində 2004-cü il yanvar ayının 12-də Dövlət dilinə qayğının təzahürlərindən biri olan sərəncamını imzaladı. Sərəncamda Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin həmin vaxta qədər kiril qrafikalı əlifba ilə çap edilmiş əsərlərin ən gözəl nümunələrini latın qrafikası ilə yenidən nəşrinin kütləvi şəkildə həyata keçirilməsi müvafiq dövlət qurumlarına həvalə edilirdi. Həmin ilin dekabrında imzalanan digər sərəncam dövlət başçısı Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri kütləvi tirajla nəşr olunaraq ölkədəki bütün kitabxana şəbəkəsinə hədiyyə edilməsini reallaşdırdı.

İlham Əliyevin prezidentliyi dövründə xalqımızın tarixi köklərinə daha dərindən bağlanılması üçün atdığı müxtəlif addımlarla xarakterik olub.

Belə addımlardan biri Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – Türkdilli ölkələrin mədəniyyət səylərini birləşdirən beynəlxalq təşkilat olan TÜRKSOY-da Azərbaycanın fəal iştirakı ilə bağlıdır. Ümummilli liderimizin xarizması və türk xalqlarının perspektiv gələcəyi ilə bağlı keçirdiyi narahatlıq hissləri qısa müddətdə ölkəmizin bu nüfuzlu təşkilatda dominantlığını hiss etdirdi. 1996-cı il noyabrın 6-7-də Bakıda türk xalqlarının birliyi, ədəbi-mədəni əlaqələri ilə əlaqədar üç mühüm tədbirin– TÜRKSOY-un VIII toplantısı, Türk dünyası yazıçılarının III qurultayı və Məhəmməd Füzulinin 500 illik yubileyinin yekun tədbirlərinin keçirilməsi bunu ilk olaraq ortaya qoymuşdu.

İlham Əliyevin prezidentliyi dövründə türk xalqlarının vahid hədəf uğrunda birliyi nəinki TÜRKSOY-da, habelə müxtəlif platformalarda özünü göstərir. Bunun niyə belə olduğunu Prezident TÜRKSOY-un 30 illiyinə həsr olunmuş təntənəli tədbirin iştirakçılarına ünvanladığı təbrik məktubunda təşkilatın nə uğrunda çalışmalı olduğunu, hədəflərini belə göstərirdi: "Türk dünyası öz qədim və möhtəşəm mədəniyyəti ilə bəşər sivilizasiyası tarixinə iftixar dolu parlaq səhifələr yazmışdır. Türk xalqları şanlı keçmişlərindən güc alaraq zamanın sınaqlarından daim alnıaçıq çıxmış, günümüzədək milli mədəni özünəməxsusluğu qoruyub saxlamışlar. Misilsiz zənginliyi ilə seçilən ümumtürk mədəni irsinin mühafizə olunması, bu böyük sərvətin gələcək nəsillərə çatdırılması və dünyaya tanıdılması işində TÜRKSOY qardaş türk ölkələri arasında yaradılan ilk beynəlxalq qurum kimi ötən müddətdə təqdirəlayiq xidmətlər göstərmişdir".

Azərbaycan xalqının ədəbiyyatına və dilinə qayğını Prezidentin bütün fəaliyyəti ərzində görmək mümkündür. 2013-cü il aprel ayının 9-da təsdiq edilən "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nı, bu istiqamətdə hazırlanan sənədlərin içində strateji hədəfləri olan proqram kimi qəbul qəbul edilməsi təsadüfi deyil. Azərbaycanda dilçilik elminin inkişafına təkan verən və hazırda öz bəhrəsini verən bu sənəd dilçiliyimizdə yeni inkişaf istiqamətlərini müəyyənləşdirmək üçün vacib rol oynayır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin yaradılması isə təkcə dilimizin saflığının qorunması istiqamətində maarifləndirmə işinin aparılması deyil, mətbuat və televiziya sahəsində, dövlət və özəl qurumlarda, reklam lövhələrində Azərbaycan dilinin qrammatik normalarının qorunmasının təmin edilməsidir. Möhtərəm Prezidentimizin bu istiqamətdə gördüyü işlər çoxdur. Ali dövlət rəhbərimiz hər bir addımında Azərbaycan xalqının yaratdığı maddi-mənəvi dəyərlərin məcmusu olan Azərbaycan dilinə qayğı-diqqətini görür və yüksək qiymətləndiririk.

***Mahirə HÜSEYNOVA,***
***ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor***



# Heydər Əliyev və Azərbaycan teleradiosunun inkişafı

**Azərbaycan Televiziya və Radiosunun yaranmasının ildönümü sayılan 6 noyabr ərəfəsində efir jurnalistikasının keçib gəldiyi yol, uğurları və qarşıda duran hədəfləri iri planda diqqəti cəlb edir, yeni yanaşmalarla aktuallaşır.**

Ötən onilliklər ərzində maddi-texniki baza qənaətbəxş olmasa da, milli televiziya və radiomuzu yaradan insanlar fədakar əməkləri və yaradıcılıq axtarışları ilə onlayn mediamızın bu sahəsi inkişaf etdirib bugünkü yüksək səviyyəyə çatdırmışlar. Məhz o insanların yüksək peşəkarlığı, xalqa bağlılığı sayəsində minlərlə televiziya və radio mütəxəssislər – jurnalistlər, rejissorlar, operatorlar, montajçılar yetişdirmiş, zəngin audio-video materialları fondu yaranmışdır. Azərbaycan Televiziyası efir imkanlarının genişliyi, Azərbaycan Radiosu əhatə dairəsi və jurnalistikamızın bu sahəsində öz ənənələrini yaradaraq məktəbə çevrilmişdir.

Ümummilli lider Heydər Əliyevin respublikada hakimiyyətə hər iki gəlişi milli teleradionun inkişafı, onun dünya səviyyəsinə yüksəlməsi baxımından tarixi mərhələlər olmuşdur. Hər iki dövrdə efir jurnalistikanın maddi-texniki bazası müasirləşdirilmiş, peşəkarlıq səviyyəsi yüksəlmiş, cəmiyyət həyatında rolu və auditoriyaya təsiri əsaslı surətdə artmışdır.

Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi birinci dönəmdə ictimai-siyasi və mədəni həyata yeni texniki vasitələrlə daxil olan Azərbaycan Televiziyası təkcə xalqını keçmiş şərəfli tarixinin ən parlaq səhifələrinin təbliği ilə məşğul olmur, həm də mill-mənəvi dəyərlərimizin gəncliyin şüurunda həkk olunması missiyasını yerinə yetirirdi. Bu baxımdan Heydər Əliyev televiziyanın fəaliyyətinə xüsusi önəm verir, ilk növbədə, onun maddi-texniki bazasının möhkəmlənməsi, yayım arealının genişləndirilməsi üçün hər cür siyasi dəstək göstərirdi. Buna görə idi ki, 1985-ci ildə Azərbaycan Televiziyası texniki təchizatına, film istehsalı və müxtəlif proqramlarla Mərkəzi Televiziyadakı çıxışlarına görə SSRİ-də 4-cü yerə çıxmışdı.

Ümummilli lider ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə gələndən sonra isə Azərbaycanda teleradio məkanını sürətlə müstəqil dövlətin tələbatına uyğunlaşdırdı. Bu amili nəzərdə tutan Heydər Əliyev televiziyanın xalqımızın həyatında oynadığı rolu nəzərdə tutaraq deyirdi: "Azərbaycan Televiziyası xalqımızın milli sərvətidir!".

Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni inkişaf mərhələsi keçən qurumlardan biri də dövlət teleradiosu bazasında yenidən qurulan "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC olmuşdur. 2009-cu ildə yaradılan "İdman", 2011-ci ildə təsis olunan "Mədəniyyət" telekanallarının fəaliyyətinin, xüsusilə, son illərdə Azərbaycan Televiziyasında aparılan islahatların nəticəsidir ki, müxtəlif formatlarda və aktual mövzularda hazırlanan proqramlar tamaşaçıların maraqla qarşıladıqları verilişlərə çevrilib. Bunlarla bərabər, Azərbaycan Televiziyası media sektorunda yaranan tendensiyaları qorumaqla, onları konkret sosial-mədəni reallıqlar prizmasında əks etdirir.

– İctimai-siyasi proqramlar studiyasının hazırladığı, ölkəmizdə və kənarda baş verən aktual, ictimai-siyasi hadisələrin təhlil olunduğu "Həftə" proqramı, "Əsas məsələ" tok-şousu, "Hədəf" verilişi və digər yayım materialları təkcə informativ deyil, həm də maarifçilik yükü olan proqramlardır. "Telesəhər", "Obyektiv", "Sözümüz imzamızdır", "Döyüşçü", "Peşəkarlar", "Günə davam", "Görüş yeri", "Xalqın adamı", "Ekoetika", "Əslində biz", "Əsrin adamı", "Sözün düzü", "Çöl adamı", "Oralar", "Kinoman", "Texno xəbər", " 1 AZTV", "Üçbucaq", "2 x 2", "Atlan", "Məhşər" və digər biri birindən daha baxımlı olan verilişləri, həmçinin yerli və xarici filmləri də maraqla qarşılanır, geniş ictimai rəy doğurur.

"AzTV xəbər" informasiya proqramının hər gün 7 dəfə Azərbaycan, 1 dəfə rus və 1 dəfə ingilis dillərində efirə gedən buraxılışları yalnız ölkədə deyil, xaricdə də sabit auditoriya qazanıb. Möhtəşəm zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində Azərbaycan Televiziyası və Radiosu xalqımızın və kənarda yaşayan milyonlarla tamaşaçının əsas informasiya mənbəyinə çevrildi.

Nə cür əks olunmasından asılı olmayaraq, televiziya və radionun mövcud media resursları arasında dominatlığı, onun öz əhatə dairəsindəki tamaşaçı və dinləyici auditoriyasının əsas informasiya mənbəyinə çevrilməsi inkarolunmazdır. Əlbəttə, bu üstünlük, formasından asılı olmayaraq media mühitində rəqabətin aradan qaldırılması deyil. Son illərdə cəmiyyətimizin ancaq etibarlı informasiya mənbəyinə deyil, həm də maarifçilik və əyləncə məkanına çevrilən Azərbaycan Televiziya və Radiosu daxili istehsalat prosesində məhz bu məqamları prioritet istiqamətə çevirib.




Xatırladaq ki, Azərbaycan Televiziyası 67 illik yolda zəngin təcrübəsi ilə zəngin məktəbə çevrilib və bu gün də ölkənin televizya məkanında aparıcı rol oynayır. Maddi-texniki bazasının zənginliyi, uzun illər formalaşan ən yaxşı ənənələr əsasında yetişən peşəkar yaradıcı heyəti ilə Azərbaycan Televiziyası yenə öndədir, "Ana televiziya" statusunu qoruyub saxlayır.

– Bunlarla bərabər, Azərbaycan Televiziyasının yayım siyasətini müəyyənləşdirən şəxslər "Bu gün qazanılan istənilən uğurlarla kifayətlənmək gələcək tənəzzülün başlanğıcıdır" – gerçəkliyini yaddan çıxarmırlar. Bütün televiziya proseslərinin internetləşdiyi indiki dövrdə televiziya və internet texnologiyalarının bir çox sahələrdə – həm televiziya məzmununun yaradılmasında, həm də tamaşaçıya çatdırılmasında bir-birinə nüfuz etməsi üçün xüsusi şərait yaradılır. Azərbaycan telekanallarının internet yayımının eksperimental mərhələdən keçməklə çox vacib kütləvi informasiya vasitələri seqmenti kimi meydana çıxması artıq adi qarşılanır. Yaxın gələcəkdə genişzolaqlı internet texnologiyalarının inkişafı qlobal şəbəkənin yayım keyfiyyəti ilə alternativ kanallar arasındakı sərhədləri siləcək. Bu, şübhəsiz ki, televiziya yayımının yeni inkişaf səviyyəsinə gətirib çıxaracaq və teleməkana yeni perspektivlər açacaq.

Media diskursunun diqqətəlayiq mövzularından birinə çevrilmiş konvergensiya indi müxtəlif kontekstlərdə - sənaye hadisəsi kimi, təşkilati və idarəetmə qərarlarının məcmusu kimi, jurnalist fəaliyyətinin yeni xüsusiyyəti, yeni medianın yaranması üçün ilkin şərt kimi nəzərdən keçirilir. Azərbaycan Televiziya və Radiosunda bu prinsip prioritet istiqamət elan edilib: "İnformasiya şəbəkənin inkişafı dəyişdikcə, məlumatın yenilənmə tezliyi, yayılma sahəsi və məzmun müxtəlifliyi qorunmalıdır".

***Elməddin QULİYEV,***
***"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin məsul işçisi***

# İlin iqtisadi yüksəliş mənzərəsi

## 9 ayda ÜDM 2 dəfəyədək çoxalıb

**Azərbaycan Respublikasının 2024-cü ilin icmal və dövlət büdcələri üzrə layihələrin hesabatında Dövlət Statistika Komitəsinin məlumatına əsaslanılaraq bildirilir ki, cari ilin birinci yarısında ölkədə 60 milyard manatlıq, o cümlədən qeyri-neft sektorunda 36 milyard manatlıq Ümumi Daxili Məhsul (ÜDM) istehsal olunub.**

Ötən ilin eyni dövrü ilə müqayisədə ÜDM real ifadədə 0,5 faiz, qeyri-neft sektoru üzrə isə 3,1 faiz artıb. Bu ilin yanvar–sentyabr aylarında isə ÜDM istehsalı əvvəlki ilin müvafiq dövrünə nisbətən 98,5 faiz artaraq 34 milyard 647 milyon manata çatıb. ÜDM istehsalının 41,6 faizi sənaye, 9,5 faizi ticarət, 6,4 faizi kənd təsərrüfatı,



6 faizi nəqliyyat, 5 faizi tikinti, 2,3 faizi turistlərin yerləşdirilməsi, 1,7 faizi informasiya–rabitə sahələrinin, 18 faizi isə digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,5 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 8 min 949 manata yüksəlib.

Cari ilin ilk yarısında orta illik inflyasiya göstəricisi isə 12,7 faiz səviyyəsində qeydə alınıb. Hesabat dövründə ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksində ötən ilin müvafiq dövrü ilə müqayisədə 15,1 faiz, qeyri-ərzaq məhsulları üzrə11,4 faiz artım müşahidə edilib. Yeri gəlmişkən, 2023-cü ilin yanvar-avqust aylarında orta illik inflyasiya 11,7 faiz, illik inflyasiya isə 8 faiz olub.

Maliyyə Nazirliyinin "2024-2027-ci illər üzrə Ortamüddətli Büdcə Çərçivəsi"də İqtisadiyyat Nazirliyinin baza ssenarisinə əsaslanaraq bildirilir ki, ölkəmizdə 2023-cü ildə 9,5 faiz, 2024-cü ildə isə 5,3 faiz proqnozlaşdırılan orta illik inflyasiyanın azalan templə 2027-ci ildə 4,2 faizə qədər enəcəyi gözlənilir.

Respublikamızda inflyasiya mühitinin tənzimlənməsi ilə bağlı bu gün atılan addımlar gələcəkdə iqtisadi fəallığın artması ilə bərabər, əhalinin sosial rifahına da müsbət təsir edəcəyi gözlənilir. Eyni zamanda, ortamüddətli dövrdə əhalinin gəlirlərinin artaraq 2027-ci ildə 106 milyard manata, xərclərinin isə 102,6 milyard manata qədər yüksələcəyi proqnozlaşdırılır.

Prezident İlham Əliyev çıxışlarının birində inflyasiyanın ikirəqəmli olmasının narahatlıq doğurduğunu, ilin sonuna qədər onun birrəqəmli səviyyəyə düşə biləcəyinə ümid etdiyini vurğulayıb. Dövlətimizin başçısı, həmçinin inflyasiyanın ikirəqəmli olmasını təbii amillərlə yanaşı, subyektiv səbəblərlə də əlaqələndirib və hökumətin bunu ciddi araşdıraraq ilin sonuna qədər atılacaq addımlarla bağlı təkliflər verməsinin zəruriliyini bildirib. "Çünki Azərbaycanın bütövlükdə iqtisadi potensialı və iqtisadi sahədə əldə edilən nəticələr fonunda inflyasiyanın 12 faiz səviyyəsində olması, əlbəttə ki, arzuolunan deyil",– deyə ölkə rəhbəri qeyd edib.

Prezident İlham Əliyevin bu sözlərindən sonra Baş nazir Əli Əsədovun imzaladığı müvafiq sərəncam əsasında ölkədə inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyəyə endirilməsinin təmin edilməsi, inflyasiya proseslərini və onun səbəblərini kəmiyyət və keyfiyyətcə qiymətləndirməyə imkan verən təhlil və monitorinq sisteminin daha da təkmilləşdirilməsi, eləcə də bu sahədə qurumlararası koordinasiyanın gücləndirilməsi məqsədilə İşçi qrup yaradılıb. Nazirlər Kabineti Aparatının rəhbəri həmin qrupun rəhbəri təyin olunub. İşçi qrupa ölkədə inflyasiya proseslərinin təhlili üzrə işlərin daha da gücləndirilməsi və qiymət monitorinqinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görməsi, həmin tədbirlərin nəticəsi barədə ayda bir dəfə hesabatın Azərbaycan hökumətinə təqdim olunması tapşırılıb.

Azərbaycan Respublikasının 2024-cü ilin icmal və dövlət büdcələri üzrə layihələrin hesabatında, həmçinin cari ilin birinci yarısında əsas kapitala yönəldilən vəsaitin ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,4 faiz artaraq 7,1 milyard manat təşkil etdiyi, bunun 72,9 faizinin daxili, 27,1 faizinin isə xarici mənbələr hesabına formalaşdığı vurğulanır. Eyni zamanda, hesabat dövründə investisiyaların 2,8 milyard manatının (39,3 faiz) neft-qaz, 4,3 milyard manatının isə (60,7 faiz) qeyri-neft sektoruna yönəldildiyi diqqətə çatdırılır.

Azərbaycanda qeyri-neft sektorunun rəqabət qabiliyyətinin və bu sahədə istehsal edilən məhsulların ixrac potensialının gücləndirilməsi üçün qarşıya qoyulan mühüm vəzifələrdən biri xarici investisiyaların artırılmasına nail olmaqdır. Buna görə də son illərdə respublikamızda biznes mühitinin keyfiyyətcə yaxşılaşdırılması və ölkəyə xarici sərmayədarların cəlb edilməsi diqqət mərkəzində saxlanılır. Bu strateji istiqamətin önəmi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"-də və bir sıra dövlət proqramlarında vurğulanır, biznesin fəaliyyətinin beynəlxalq normalar əsasında formalaşması, habelə özəl sektorun inkişaf tempinin yüksəldilməsi məqsədilə yeni stimulların tətbiqi, iqtisadi islahatların davam etdirilməsinin zəruriliyi göstərilir.

Hazırda ölkədə investisiya mühitinin cəlbediciliyinin artırılması üçün müxtəlif layihələr həyata keçirilir, xarici investorların "bir pəncərə" prinsipindən yararlanmasına ciddi diqqət yetirilir, onlara müxtəlif istiqamətlərdə dəstək verilir. Birbaşa xarici investisiyaların təşviqi məqsədilə hazırlanan strategiyanın isə yaxın vaxtlarda təsdiqi gözlənilir.

Bu məqamda onu da vurğulamaq yerinə düşər ki, dövlət başçısı İlham Əliyev prezidentlik fəaliyyətinə başladığı ilk vaxtlardan etibarən xarici investisiyanın ölkəyə cəlbini sürətləndirmək üçün qanunvericiliyin müasirləşdirilməsi, yeni rəqəmsal həllərin tətbiqi önə çəkilib.

Azərbaycanda investisiya cəlbediciliyinin güclənməsinə təsir göstərən əsas amillərdən biri də mövcud sahədə qanunverici–institusional tədbirlərin həyata keçirilməsidir. Bu baxımdan 1995-ci il 13 yanvar tarixli "İnvestisiya fəaliyyəti haqqında" Qanun böyük əhəmiyyətə malikdir. Bu sənəd investisiyaların ölkə iqtisadiyyatına cəlbini stimullaşdırmaqla yanaşı, mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir. Bununla bərabər, "Xarici investisiyaların qorunması haqqında" Qanun da ölkədə sərmayədarların hüquq və mənafelərinin qorunması, yerli və xarici iş adamlarına bərabər əlverişli iş şəraitinin yaradılması ilə bağlı məsələləri tənzimləyir.

2024-cü ilin icmal və dövlət büdcələri üzrə layihələrin hesabatında, cari ilin ilk yarısında xarici ticarət dövriyyəsinin 23 milyard dollar təşkil etdiyi, bunun 14,8 milyard dollarının və ya 64,3 faizinin ixracın, 8,2 milyard dollarının və ya 35,7 faizinin idxal əməliyyatlarının payına düşdüyü, nəticədə xarici ticarət üzrə 6,6 milyard dollar həcmində müsbət saldoya nail olunduğu göstərilir.

Hesabatda qeyd edilir ki, makroiqtisadi sabitliyin qorunması məqsədilə fiskal və monetar siyasətlərin əlaqələndirilməsinin gücləndirilməsi milli valyutanın mübadilə məzənnəsinin cari ildəki kimi sabit qalmasını (1 ABŞ dollarına qarşı 1,7 manat) dəstəkləyəcək. İnflyasiya mühitinin tənzimlənməsi ilə bağlı atılan addımlar iqtisadi fəallığın güclənməsi ilə yanaşı, əhalinin sosial rifahına da müsbət təsir edəcək.

2024-cü ildə əsas neft-qaz kontraktları çərçivəsində investisiya qoyuluşlarının azalma fazasında olması nəzərə alınmaqla, əsas kapitala investisiyalar üzrə 1 faiz artım olacağı, o cümlədən qeyri-neft sektoru üzrə əsas kapitala investisiyaların 3 faiz artacağı da proqnozlaşdırılır.

Azərbaycan Prezidentinin 2022-ci il 22 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdəsosial-iqtisadi inkişaf Strategiyası" çərçivəsində Azərbaycan iqtisadiyyatının inkişaf perspektivlərinin reallaşdırılması, işğaldan azad olunmuş regionların ölkə iqtisadiyyatına reinteqrasiyası və həmin regionların inkişafı ilə bağlı olan investisiya və yenidənqurma siyasəti çərçivəsində nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi bu göstəricilərin daha da yaxşılaşmasına şərait yaradacaq.

***V.BAYRAMOV***
***XQ***

# Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru öz gücü ilə dirçəldir

## Gələn il bərpa-quruculuq işlərinə 4 milyard manat ayrılacaq

**Maliyyə Nazirliyinin 2024-cü ilin dövlət və icmal büdcələri üzrə layihələrin təqdimatında işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin yenidən qurulması və bərpası, həmin torpaqlarda müasir infrastrukturların yaradılması (elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi və s.) məqsədilə 2024-cü ilin dövlət büdcəsindən 4 milyard manat vəsait nəzərdə tutulub.**



Bununla yanaşı, keçmiş məcburi köçkünlərin sosial müdafiəsinin təmin edilməsi məqsədilə növbəti ilin dövlət büdcəsində 355 milyon manat vəsait proqnozlaşdırılıb. Bu vəsaitin keçmiş məcburi köçkün statusu olan və onlara bərabər tutulan şəxslərə (467 min nəfərə) 60 manat və 33 manat məbləğində vahid aylıq müavinətin verilməsi üçün 317 milyon manat, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər tərəfindən istehlak edilən kommunal xidmətlərin haqqının dövlət büdcəsinin vəsaiti hesabına qarşılanması üçün 21 milyon manat, digər tədbirlər üçün 18 milyon manat vəsait proqnozlaşdırılıb.

# SOCAR 7,5 milyon tondan çox neft və 12 milyard kubmetr qaz hasil edib

**Dövlət Neft Şirkətinin (SOCAR) məlumatında qurumun cari ilin üçüncü rübündə 15 min metrdən çox qazma işləri həyata keçirdiyi, 2 milyon tona yaxın neft, 2 milyard kubmetrə yaxın isə qaz hasil olunduğu bildirilib.**

Ölkə üzrə, ümumilikdə, ilin əvvəlindən 7,5 milyon tondan çox neft və 12 milyard kubmetr qaz hasil edilib. Qaz hasilatı ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,4 faiz artıb.

Hesabat dövründə SOCAR dünya bazarlarına 4,4 milyon tondan çox xam neft, Gürcüstan bazarına isə 71 milyon kubmetr təbii qaz ixrac edib. Şirkət öz imkanları ilə hasil etdiyi neftdən əlavə olaraq, beynəlxalq konsorsiumlar çərçivəsində Azərbaycanın payına düşən neft həcmlərini də ixrac edir.

Ümumilikdə cari dövrdə ölkə üzrə 5,8 milyard kubmetrdən çox qaz ixrac edilib. Qaz ixracında ötən ilin analoji dövrü ilə müqayisədə 12,9 faiz artım qeydə alınıb.




Şirkətin Azərbaycandakı emal kompleksində 1,6 milyon tona yaxın neft, 811 milyon kubmetrə yaxın təbii qaz emal olunub. Rüb ərzində SOCAR-ın respublikamızdakı müəssisələrində istehsal olunan 592 min ton neft, neft-kimya və qaz-kimya məhsulu xarici ölkələrə ixrac edilib və ötən ilin müvafiq dövrü ilə müqayisədə artım qeydə alınıb. Həmin dövrdə ölkə ərazisində təbii qaz istehlakı təqribən 2,5 milyard kubmetr təşkil edib.

# Valyuta ehtiyatları 66,4 milyard manata yüksəlib



**Mərkəzi Bankın sədri Taleh Kazımov keçirdiyi mətbuat konfransında Azərbaycanın strateji valyuta ehtiyatlarının 66,4 milyard manata çatdığını bildirib.**

T.Kazımov qeyd edib ki, Mərkəzi Bankın valyuta ehtiyatları on ayda 16,8 faiz artaraq 10,5 milyard manata yüksəlib.

***XQ***



# Kənddə zəhmət marafonu bar-bərəkət ünvanına çatıb

## Mövsüm bitməsə də, rekord miqdarda – 10 milyard manatlıq məhsul əldə olunub

**Ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunması, daxili bazarın mühüm növ kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi, eləcə də ixrac potensialının artırılması məqsədilə əkin sahələri ilbəil genişlənir.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ilin yanvar–sentyabr ayları üzrə Azərbaycanda kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 10 milyard manata çatıb. Bunun da 5,5 milyard manatı bitkiçilik, 4,5 milyard manatı isə heyvandarlıq məhsullarının payına düşüb. Cari ilin 9 ayında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı istehsalı 3 faiz, o cümlədən bitkiçilik 2,5 faiz, heyvandarlıq isə 3,5 faiz artıb.

İlin əvvəlindən torpağa atdığı hər bir dənin cücərib boy atması üçün səy göstərən, tər tökən əkin-biçin adamı indi zəhmətinin bəhrəsindən məmnundur, desək, yanılmarıq. Zamanında nəvaziş göstərib sığal çəkdiyi torpaq da borclu qalmayaraq kəndlinin zəhmətinin əvəzini birə-beş qaytarır, necə deyərlər, sahibinin üzünü ağardır. Eyni zamanda, dövlətin aqrar sektorun inkişafına verdiyi dəstək də sahibkarın karına gəlir, onu torpağa möhkəm bağlayır. Bu da son nəticədə ölkədə kənd təsərrüfatının ümumi məhsulunun artmasına səbəb olur. Təkcə onu qeyd etmək kifayətdir ki, son 20 ilə yaxın bir dövr ərzində ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalı iki dəfəyə yaxın artıb.

Bu sahədə əvvəlki dövrlərdə müşahidə olunan artım tendensiyası cari ilin 9 ayında da davam edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkədə bol məhsulun təməli üçün ilin əvvəlindən 919 min 784,7 hektar sahədə payızlıq və yazlıq dənli paxlalı bitkilər (qarğıdalı istisna olmaqla) əkilib. Bu ilin yanvar–sentyabr aylarında 917 min 526,9 hektarın məhsulu yığılıb. Həmin sahələrdən 2 milyon 937 min 443,6 ton məhsul tədarük edilib.

Əkin sahələri ötən ilin müvafiq dövrünə nisbətən azlıq təşkil etsə də, həyata keçirilən aqrotexniki tədbirlər sayəsində zəmilərdə bol məhsul yetişdirilib. Təkcə onu qeyd etmək kifayətdir ki, cari ilin 9 ayının nəticələrinə görə, hektarın məhsuldarlığı 32,7 ton təşkil edib. Bu sahədə ən yüksək məhsuldarlıq Qarabağ (41,4 ton) və Mil–Muğan (40,8 ton) iqtisadi rayonlarında qeydə alınıb. Ölkə üzrə bu sahədə ən yüksək göstərici isə Qarabağ iqtisadi rayonuna daxil olan Ağcabədi rayonunun payına düşüb (46,3 ton). Bu isə respublika üzrə ümumi göstəricidən 14,3 ton çoxdur.

Mövsüm ərzində ölkə üzrə 28 min 755,1 hektar sahədə dən üçün qarğıdalı əkilib. İlin 9 ayında 23 min 294,2 hektar sahədə yığım həyata keçirilib və nəticədə 163 min 496 ton məhsul toplanılıb. Bu sahədə hektarın orta məhsuldarlığı 70,2 sentner (ötən il 67,6 sentner) təşkil edib.

Son illər ölkədə kartof əkininə xüsusi marağın göstərilməsi "ikinci çörək" adlandırılan bu bitkiçilik məhsulunun istehsalının artmasına səbəb olub. Bu da daxili bazarın idxaldan asılılığının minimuma endirilməsi ilə nəticələnib. Mövsüm ərzində ölkə üzrə 49 min 475,5 hektar sahədə kartof əkilib. Əkin sahələrinin əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə azalmasına baxmayaraq, fermerlər bol məhsul yetişdirməyə nail olublar. Cari ilin yanvar–sentyabr aylarında sahələrdən 981 min 927,1 ton məhsul yığılıb. Hektarın məhsuldarlığı 200,1 sentner təşkil edib ki, bu da əvvəlki ilin müvafiq dövründəkindən 11 sentner çoxdur.

Hesabat dövründə hektarın orta məhsuldarlığı üzrə ən yüksək göstərici Naxçıvan Muxtar Respublikasında (261,7 sentner) qeydə alınıb. Bununla yanaşı, Qazax–Tovuz (237,6 sentner) və Lənkəran-Astara (226,4 sentner) iqtisadi rayonlarının fermerləri də sahələrdən bol məhsul əldə ediblər. Ölkənin rayonları üzrə bu sahədə ən yüksək göstəriciyə isə Qazax (350 sentner), Cəlilabad (311,8 sentner) və Tovuz (303,8) fermerləri imza atıblar.

Cari ilin ötən dövründə 61 min 227,5 hektar sahədə tərəvəz əkən təsərrüfat sahiblərinin də əməyi öz bəhrəsini verməkdədir. Bu ilin 9 ayında 60 min 179,5 hektar sahədə yığım həyata keçirən fermerlər 1 milyon 694 min 659,7 ton məhsul tədarük ediblər. Hesabat dövründə tərəvəzçilikdə hektarın məhsuldarlığı 281,6 sentner təşkil edib. Müqayisə üçün deyək ki, ötən il bu göstərici 258,4 sentner olub. Tərəvəzçilikdə ən yüksək göstəricilərə Qazax–Tovuz (387 min 993,8 ton) və Qarabağ (232 min 640,7 ton) iqtisadi rayonlarının fermerləri imza atıblar.

Ölkədə mühüm növ bitkiçilk məhsullarının yetişdirildiyi bostanlarda da ilin əvvəlindən kifayət qədər əkin həyata keçirilib. Həmin sahələrdə isə bol məhsul yetişdirilib. Mövsüm ərzində əkin həyata keçirilmiş 17 min 224 hektar sahədən ötən müddətdə 446 min 454,1 ton məhsul yığılıb. Bostanlarda hektarın orta məhsuldarlığı 254,1 sentner (ötən il 231,9 sentner) təşkil edib. Bu sahədə ən yüksək göstərici isə Mil-Muğan iqtisadi rayonunda (262,3 sentner) qeydə alınıb.

Hazırda ölkə üzrə meyvə və giləmeyvələrin ümumi əkin sahələri 226 min 395,5 hektar təşkil edir. Cari ilin 9 ayında bağlardan 787 min 55,2 ton məhsul yığılıb. İqtisadi rayonlar üzrə bu sahədə ən yüksək göstəricilərə isə Quba–Xaçmaz (274 min 664, 8 ton) və Mərkəzi Aran (110 min 353,4 ton) iqtisadi rayonlarının təsərrüfat sahibləri imza atıblar.

Bu il ölkənin 15 min 800 hektardan artıq üzüm bağlarında da bol məhsul yetişdirilib. Yanvar-sentyabr aylarında bağlardan 182 min 411,5 min ton məhsul yığılıb ki, bu da əvvəlki ilin müvafiq dövründəkindən bir qədər çoxdur.

Ölkədə məhsul bolluğunun təminatında mühüm rola malik olan şəkər çuğundurunun istehsalı da ilbəil artır. Cari ilin əvvəlindən ölkə üzrə şəkər çuğundurunun əkildiyi 4 min 534,8 hektar sahədən 47 min 677,9 ton məhsul tədarük edilib.

Azərbaycanın çayçılıq təsərrüfatlarının cəmləşdiyi Lənkəran-Astara və Şəki-Zaqatala iqtisadi rayonları üzrə mövcud 975,6 hektar sahədən ilin 9 ayında 962,3 ton yaşıl çay yarpağı yığılıb. Bunun da 921,8 tonu Lənkəran-Astara iqtisadi rayonunun payına düşüb.

Hazırda strateji məhsul sayılan pambıq yığımının qızğın çağıdır. Xatırladaq ki, mövsüm ərzində ölkənin əsas pambıqçılıq rayonlarında, ümumilikdə, 93 min 722,3 hektar sahədə əkin həyata keçirilib. Yığımın əvvəlindən tarlalardan 142 min 95,5 ton "ağ qızıl" toplanaraq tədarük məntəqələrinə təhvil verilib. Sahələrdə bol pambıq yetişdirməyə nail olan fermerlər məhsulu son qozasınadək yığmaq əzmindədirlər. Son günlərin əlverişli hava şəraiti isə onları bu məqsədə daha da yaxınlaşdırır.

Bütövlükdə isə, payız fəslinin son ayı olmasına baxmayaraq, ölkənin regionlarında müxtəlif nov bitkiçilik məhsullarının yığımı davam edir. Fermerlər isə yığımın optimal müddətdə başa çatdırılması üçün bütün imkanları səfərbər ediblər.

***M. YAQUBZADƏ***
***XQ***



# “Nur şəhəri”nin yubileyinə 12 nəğmə

## Birinci nəğmə

Mən ölkənin ikinci ən böyük şəhəri olan Gəncədə doğulub böyümüşəm. Orta təhsili də orada almışam. O vaxtlar tay-tuşlarım, dostlarım Bakını – paytaxtı görməyə tələsəndə, mənim ürəyim Mingəçevirlə döyünürdü. Yaşayış yeri kimi üç-dörd min illik tarixi olsa da, xəritəmizdə nisbətən yeni olan bu şəhəri mənə Səməd Vurğunun “Muğan” poeması sevdirmişdi. Poemanı nəğmə-nəğmə, sətir-sətir əzbər bilirdim. Mən Mingəçeviri görməyi necə arzuladığını, indi deyə bilmirəm.

Deyə bildiyim isə odur ki, uzun illər sonra bölgə müxbiri kimi ən çox söz açdığım şəhər məhz Mingəçevir olub. Mən bu şəhərin işıqlarını da sevmişəm, adamlarını da. Gecəsini də vəsf eləmişəm, gündüzünü də. Alimini, ziyalısını da yazı qəhrəmanına çevirmişəm, küçələrdə təmizlik işlərinə baxan sadə insanını da. Şəhər rəhbərliyi ilə görüşlərimi də səmimiyyətlə qələmə almışam, xiyabandakı yaşıllıqları sulayan bağbanla söhbətimi də. Ona görə işıqları və adamları yada salıram ki, Mingəçevir mənim “Gecə reportajı” hazırladığım ilk və hələlik yeganə şəhər olub. Üstəlik, həmin yazıya görə həmkarlarımın çoxsaylı xoş sözlərini də eşitmişəm.

Yaxşı bilirik ki, Kür şayı ölkəmizə Qazax rayonunun ərazisindən daxil olur, Salyanda Xəzərlə qovuşanadək çox ərazilərimizdən keçir. Həmin ərazilərin hamısında Kürlə salamlaşmışam – desəm, ifrata varmaram. Amma, nədənsə, mən bu çayın səsinə Mingəçevirdə daha çox vuruluram. Səməd Vurğun demiş:

**Kiçicik bir sudur yer üzündə Kür,**
**Baxsan bu dünyanın xəritəsinə.**
**Bəs niyə qəlbimdə ümman döyünür,**
**Mən qulaq asdıqca Kürün səsinə?**

## İkinci nəğmə

Bəli, Mingəçevirdə belə bir park var. Bu şəhərə hər gələndə tez-tez həmin ünvana baş çəkməyi özümə borc bilirəm. Belə parkın yaradılması qədirbilənlik əlamətidir və hamıda məmnunluq yaradır. Mən isə ona da məmnunam ki, yaradılmasının 65 və 70 illik yubileylərində yazı hazırladığım Mingəçevirin 75 illiyini də bu şəhərin sakinləri və qurucularının bəziləri ilə birlikdə qeyd edirik.

Ulu öndər Heydər Əliyevin “Halal insanlar şəhəri” adlandırdığı Mingəçevirin qurucuları bu şəhərdə daim hörmət və ehtiramla yad edilirlər. Vaxtilə bir yazıda qeyd etmişdim ki, 1948-1955-ci illərdə Mingəçevirdə aparılan inşaat – quruculuq işlərinə rəhbərlik etmiş İslam İslamzadənin, eləcə də şəhərin salınmasında onunla çiyin-çiyinə çalışaraq Mingəçevirin şərəfli tarixini yazmış əmək qəhrəmanları Qafar Xəlilov, Bəhlul Bayramov, Sarvan Salmanov, İsa Salahov, Qəşəm İsmayılov, Rəsul Balakişiyev, Məhərrəm Dadaşov, Qriqori Kuzmin, İvan Kiyasko, Əhmədfərid Əfəndiyev kimi insanların — şəhərin ilk qurucularının əziz xatirəsini əbədiləşdirmək, eyni zamanda, sıraları ildən-ilə seyrəlməkdə olan veteranlara diqqət və qayğı göstərmək məqsədilə şəhər icra hakimiyyətinin təşəbbüsü ilə “İlk qurucular parkı” yaradılıb.

“İlk qurucular parkı”nda görüşüb söhbət etdiyim Ağagül dayı da həmin qəhrəmanlardandır. Maraqlı həmsöhbətdir. Şəhərin təməlinin qoyulduğu illərdə fəhlə və mühəndislərin yaşadığı müvəqqəti baraklardan, ölkənin hər yerindən gəlmiş mütəxəssislərin vahid amala xidmət edərək “çəkici eyni zindana vurmasından”, nəhayət, Kürün ram edilməsindən, xəritəmizə yeni şəhərin düşməsindən həvəslə danışır.

1948-ci ildə Qərbi Azərbaycandan deportasiya olunublar. Xaldana köçüblər. 1948-ci ildə Mingəçevirdə quruculuq işləri başlayanda əvvəlcə iki qardaşı bura gəlib. Beton zavodunda işləyib. Ağagül Əliyev armatur istehsal edən sexdə çalışıb. Söhbət düşəndə həmişə iftixarla danışır. Deyir ki, hər dəfə gözümüzün qarşısında tikilən bu evlərin yanından keçəndə bəzən divarlara əlimi sürtürəm. Oğul, qəribə hissdir, – deyir. – Elə bilirəm bu evlərin hamısında mənim barmaq izlərim var.

Adil İsmayılov isə energetikdir. Şəkinin Qaradağlı kəndində doğulub. Neft və Kimya İnstitutunu bitirib. 1981-ci ildə təyinatla Mingəçevirə gəlib. İstilik Elektrik Stansiyasında mühəndis kimi fəaliyyətə başlayıb.

Mingəçevirdə – energetiklər şəhərində görülən işlərdən danışanda qulaq asmaqdan doymaq bilmirsən ki, bilmirsən:

– Düzdür, Mingəçevirin qurucuları həmişə hörmətlə xatırlanmalı, yad edilməlidir, – deyir. – Allah hamısına rəhmət eləsin. Şəhərin ayrı-ayrı vaxtlarında rəhbərlik edənlərin də əməyini qiymətləndirmək lazımdır. Amma, mənim səmimiyyətimə inanın. Mingəçevirin ən böyük qurucusu ulu öndər Heydər Əliyevdir, desək –yanılmarıq.

Adil İsmayılov o qədər maraqlı faktlar danışır ki, söhbətdən doymursan.

Əziz oxucu, sənə söz verirəm ki, bir gün Adil müəllimin danışdıqlarını kağıza köçürüb, olduğu kimi sizə təqdim edəcəm. Necə möhtəşəm işlərin görüldüyünün şahidi olacaqsınız.

## Üçüncü nəğmə

Elə buradaca, Mingəçevirin indiki səviyyəyə çatmasında ulu öndər Heydər Əliyevin göstərdiyi müstəsna xidmətlərini əks etdirən bəzi faktları biz də sadalayaq.

Sirr deyildir ki, “1969-cu ildə – Ulu öndər Heydər Əliyevin ölkəmizdə siyasi rəhbərliyə gəldiyi dövrdə Mingəçevir kiçik bir qəsəbəni xatırladırdı. Məhz onun rəhbərliyi illərində şəhər sürətlə inkişaf edərək ölkənin ən iri sənaye və energetika mərkəzlərindən birinə çevrilib.

1969-1982-ci illərdə Mingəçevirdə Azərbaycan İstilik Elektrik Stansiyası, Texniki-rezin məmulatları, Yol-tikinti maşınları təmiri, Aqrar-sənaye, dəmir-beton məmulatları və Çörək zavodları, Poliqrafiya müəssisəsi, evtikmə kombinatları inşa olunub. Bu illərdə şəhərdə 8130 şagird yerlik 8 orta ümumtəhsil məktəbi, 2240 yerlik 8 məktəbəqədər uşaq müəssisəsi, 1848 çarpayılıq xəstəxana, Poliklinika, Şahmat məktəbi, Gənc texniklər stansiyası və digər obyektlər tikilib istifadəyə verilib...

Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov bütün bunlar barədə həvəslə danışır. Bildirir ki, həmin dövrdə Energetiklər qəsəbəsində 20 minə yaxın əhalinin məskunlaşması üçün çoxmərtəbəli yaşayış binaları, 3 ümumtəhsil məktəbi, doğum evi, poliklinika, Tibb Məktəbi, Musiqi Məktəbi, uşaq bağçaları və digər sosial obyektlər tikilib. Yaradılan sənaye potensialı nəticəsində Mingəçevir respublikanın dördüncü sənaye şəhərinə çevrilib. İndi fərəhlə qeyd edə bilərik ki, ümummilli liderimizin başladığı işlər bu gün də onun siyasi kursunun layiqli davamçısı, cənab Prezidentimiz İlham Əliyev tərəfindən çox böyük peşəkarlıq və uğurla davam etdirilir.

## Dördüncü nəğmə

Nə xoşdur ki, bu şəhərin yubileyi Azərbaycanda böyük məmnunluqla qeyd edilən “Heydər Əliyev ili”nə düşür. Biz məmnunuq ki, bu 75 illik cənab İlham Əliyevin ölkədə ilk dəfə prezident seçilməsinin 20 illiyinə təsadüf edir. Bu yubileyin qeyd olunduğu 2023-cü il Azərbaycan tarixinə ölkəmizin suverenliyinin tam təmin edilməsi ilə yazılıb. Bu il Azərbaycan Prezidenti otuz il əlimiz çatmayan şəhər və rayonlarımızda da bayrağımızı ucaltdı, “Xalq qəzeti”nin yazdığı kimi, “bayraqların paradı”nın şahidi olduq. Bu il Azərbaycan beynəlxalq aləmdəki bütün bədxahlarının məkrli planlarını pozaraq, öz qətiyyətini və siyasi iradəsini diktə elədi. Bəli, bu il Azərbaycanın dördüncü böyük şəhəri olan Mingəçevirin 75 yaşı tamam olur. Mən də məmnunam ki, doğma Mingəçevirin 70 illiyi münasibətiylə də bir neçə yazı qələmə almışam və həmin yubiley tədbirlərində iştirak etmişəm.

## Beşinci nəğmə

Prezident İlham Əliyevin imzaladığı Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında nəzərdə tutulan müddəalar ölkəmizin hər yerində olduğu kimi, Mingəçevirdə də müvəffəqiyyətlə həyata keçirilib. Bütün bunların nəticəsində “Nur şəhəri” sürətlə inkişaf edərək, günü-gündən öz gözəlliyini, füsunkarlığını artırmaqdadır. Bu gün Mingəçevirdə iri istehsal müəssisələri, yeni mədəniyyət, ictimai və sosial obyektlər, park və istirahət mərkəzləri, məcburi köçkünlər üçün qəsəbələr, şəhid ailələri və Qarabağ əlilləri üçün yaşayış binaları, nümunəvi xidmət və ticarət obyektləri tikilib istifadəyə verilib. Ötən müddət ərzində ölkə Prezidentinin diqqət və qayğısı sayəsində 9 məktəb, 4 uşaq bağçası əsaslı şəkildə təmir edilib, 14 nömrəli orta məktəbin əsaslı təmiri başa çatmaq üzrədir. H.Əliyev Fondu tərəfindən 120 yerlik uşaq bağçası tikilib istifadəyə verilib. Bundan əlavə bir özəl uşaq bağçası tikilib.

Mingəçevirin tərəqqisini göstərən başqa faktlara da nəzər salaq. Şəhərin ən gözəl məkanlarından birində Ulu öndərin möhtəşəm abidəsi ucaldılıb və ən yüksək standartlara uyğun əzəmətli Heydər Əliyev Mərkəzi, Gənclər evi tikilib istifadəyə verilib. Şəhərin bütün küçələrində, Mingəçevir kəndi, Tərəvəzçilik sovxozu və Günəşli yaşayış massivlərində abadlaşdırma, yaşıllaşdırma işləri görülüb, səliqə-sahman bərpa olunub, yüzlərlə binanın fasadı, dam örtüyü, ümumi istifadə yerləri tam müasir formada əsaslı surətdə təmir edilib. Əhalinin istirahəti üçün 10-a yaxın park və istirahət mərkəzləri salınıb, “1941-1945” Abidə kompleksinə yeni görkəm verilib. Mingəçevir Dövlət Dram Teatrı, şəhər stadionu əsaslı təmir edilib şəhər sakinlərinin ixtiyarına verilib, Heydər Əliyev parkı, Heydər Əliyev prospekti boyu xiyabanlar və Teatr meydanı yenidən qurulub. Hazırda şəhərin su-kanalizasiya və istilik



sistemi dövlət proqramına uyğun olaraq, yenidən qurulur.

Prezidentliyi dövründə yeddi dəfə Mingəçevirin qonağı olan cənab İlham Əliyev burada bir sıra müəssisələrin – “Kür elektron avadanlıqları zavodu”, “İnterenerji beton dayaqları”, “İzolit” ASC-lərin ,”Kür” Olimpiya Tədris İdman Mərkəzinin, Şahmat məktəbinin, YAP şəhər təşkilatının inzibati binasının, Heydər Əliyev Mərkəzinin, Gənclər Evinin, Dövlət Bayrağı meydanının, “Günəşli” bağ massivinə çəkilən qaz xəttinin, Xaldan – Mingəçevir yolunun, Mingəçevir Sənaye Parkının, “Asan Həyat” kompleksinin, Sutəmizləyici qurğunun, Mingəçevir Avtomatik İdarəetmə və Nəzarət Mərkəzinin açılışlarını edib. Dövlər başçısının hər gəlişi ilə bağlı şəhərdə sosial-iqtisadi inkişaf, yeni iş yerlərinin açılması, abadlıq-quruculuq işləri vüsət alıb. Prezident İlham Əliyev Mingəçevir barədə 9 sərəncam imzalayıb, 36 milyon manat vəsait ayırıb. Ayrılan bütün vəsaitlər şəhərin inkişaf etdirilməsinə yönəldilib.

Bu məqamda cənab Prezidentin Mingəçevir haqqında söylədiyi fikirləri də yada salmaq yerinə düşərdi: “Mingəçevir çox müasir, gözəl şəhərə çevrilibdir. Artıq Mingəçevir təkcə energetiklər şəhəri deyil, sənaye şəhəridir, mədəniyyət mərkəzidir… Şəhər tamamilə müasirləşib, gözəlləşib, böyük abadlıq-quruculuq işləri aparılır, xiyabanlar, parklar salınır, binalar təmir olunur”.

## Altıncı nəğmə

Bu il fevralın 13-də Mingəçevirdə müstəqillik dövrümüzün ən böyük İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib. Tədbirdə geniş nitq söyləyən Prezident İlham Əliyev xatırladıb ki, Mingəçevir şəhərində təməli qoyulan yeni 1280 meqavat gücündə elektrik stansiyasının açılışı 2025-ci ildə olacaq:

“İndi Mingəçevir şəhərinin Azərbaycanın və nəinki Azərbaycanın, bütün Qafqazın elektroenergetika mərkəzi kimi yeni dövrü başlayır, təxminən 1300 meqavat gücündə olan stansiya, əlbəttə ki, bizim potensialımızı böyük dərəcədə gücləndirəcək. Bu, Azərbaycanın enerji təhlükəsizliyinə verilən növbəti töhfə olacaq, yüzlərlə yeni iş yerləri yaranacaq və beləliklə, Azərbaycan öz imkanlarından tam istifadə edərək həm daxili tələbatı ödəyəcək, eyni zamanda, həm elektroenergetika, həm də təbii qaz sahəsində daha böyük addımlar atacaq. Çünki yeni tikiləcək stansiyada şərti yanacağın sərfiyyatı kifayət qədər aşağıdır və bu, imkan verəcək ki, ildə təqribən 800 milyon kubmetr və ya 1 milyard kubmetr qaza qənaət edilsin. Bu gün Avropa məkanında Azərbaycan qazına böyük tələbat olduğu üçün bu, eyni zamanda, Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə olacaqdır”.

## Yeddinci nəğmə

İkinci Qarabağ müharibəsi Mingəçevirin tarixinə həm şəhərimizin 50 şəhid verməsi ilə – hətta, bir ananın iki oğlu şəhid olub – həm çoxsaylı qaziləri ilə, həm də düşmənin raket atəşlərinə məruz qalması ilə yazılıb. Gənclərin həmin qəhrəmanlığı, rəşadəti haqqında bu gün hər bir mingəçevirli qürurla danışır.

Ona görə də, şəhərdə şəhid ailələrinə və Qarabağ əlillərinə göstərilən diqqət və qayğı davamlı xarakter daşıyır. Belə ki, uzun illər mənzil almaq növbəsində dayanan bu qəbildən olan insanlar üçün 72 mənzilli yeni yaşayış binası tikilib istifadəyə verilmək üzrədir. Mənzil növbəsində dayanan şəhid ailələri və Qarabağ əlillərinin say çoxluğunu nəzərə alaraq, daha bir binanın tikintisi məqsədi ilə torpaq sahəsi ayrılıb, hazırlıq işləri görülür. Elə bir ay olmur ki, şəhərin məsul şəxsləri həmin zümrələrdən olan ailələrlə görüşüb, onların problemlərinin həllinə çalışmasınlar.

Aradan xeyli vaxt keçsə də 44 günlük müharibədə iki oğlunu itirən Sevinc xanımla olan söhbətimi heç vaxt yadımdan çıxara bilmərəm ki, bilmərəm: “Bəs qohum-əqrabadan niyə gəlib yanınızda qalmırlar. Tək yaşamaq çətin deyil?” Sualımıza Sevinc ana belə cavab vermişdi: “Gəlib, qalmaq istəyən çoxdur. Özüm istəmirəm. Adam olanda balalarımla rahat danışa bilmirəm”. – Bu da müharibənin ilk günü iki oğlunu – Əlisini və İslamını itirən ananın mənə cavabı.

## Səkkizinci nəğmə

44 günlük İkinci Qarabağ müharibəsi günlərində Azərbaycan Ordusunun qarşısında aciz qaldığını görən İrəvan rəhbərliyi bir neçə gecə həm Gəncəni, həm də Mingəçeviri raket atəşinə tuturdular. 2020-ci il oktyabrın 11-də ölkənin kütləvi informasiya vasitələri yazırdılar ki, ermənilərin Mingəçevirə hücumları Azərbaycanın Hərbi Hava Hücumundan Müdafiə Qüvvələri tərəfindən dəf edilib:

“Düşmənin silahlı qüvvələri oktyabrın 11-də gecə saat 04.00 radələrində Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan Mingəçevir Su Elektrik Stansiyasını hədəfə almaqla cəbhə zonasından 100 kilometrdən artıq məsafədə yerləşən iri sənaye şəhəri Mingəçevirə raketlər atıb. Raketlər Azərbaycan Ordusunun Hərbi Hava Hücumundan Müdafiə Qüvvələri tərəfindən zərərsizləşdirilib.” Bu barədə Baş Prokurorluğun məlumatında deyilir...Oktyabrın 11-də səhər saatlarında Azərbaycan HHM qüvvələri Mingəçevir istiqamətində uçuşlar həyata keçirməyə cəhd edən Ermənistana məxsus pilotsuz uçuş aparatını məhv ediblər.



## Doqquzuncu nəğmə

Gənc sənaye şəhəri olan Mingəçevirin əsası XX əsrin 40-cı illərinin axırlarında – 50-ci illərin əvvəllərində qoyulsa da, Mingəçevir yaşayış məskəninin adı çəkilən mənbələrin tarixi min illərlə ölçülür. Türk alimləri “Mingəçevir” sözünü türk mənşəli Mingəçöhr adlı sərkərdənin adı ilə əlaqələndirirlər. Akademik Ziya Bünyadov 4500 ildən çox tarixə malik olan bu yerin mənasını elmi cəhətdən belə izah edib: – “Bu ad 839-cu ildə yaşamış və xilafətə qarşı mübarizə aparmış Mingəçöhr El-Ferqaninin adı ilə bağlıdır”. Bu ərazidə yaşayış hələ eramızdan əvvəl III minillikdə mövcud olub. Arxeoloji qazıntılar sübut edir ki, burada yaşayan insanlar böyük mədəniyyətə malik olublar.

Bir neçə il bundan əvvəl qəzetimizdə Mingəçevir haqqında məqalə yazmışdım. Redaksiyaya zəng gəldi. Dəstəyin o biri başında cavan səsli bir oğlan özünü təqdim etdi:

– Etibar Əhmədovam, Mingəçevirdən zəng vurmuşam. Yazını oxudum. Xoşuma gəldi. Amma, narazı da qaldım. Mingəçevir haqqında yazıb, onun qədim tarixini qeyd etməmək, Mingəçevir kəndi barədə söz deməmək, məncə, düzgün deyil.

Haqlı iradı qəbul etdim. Söz verdim ki, bu dəfə Mingəçevirə gedəndə mütləq həmin kəndə baş çəkəcəm, onun sakinləri ilə həmsöhbət olacam. Danışdığımız kimi, getdim, bu kəndin ləyaqətli, səmimi insanlarının qonağı odum. Xeyli söhbət etdik. Bakıya qayıdıb, Mingəçevirin qədim tarixi və bu gün orada yaşayan insanlar haqqında yazı hazırladım. Yazının sərlövhəsi belə idi: “Mingəçevir – kəndim, kəsəyim mənim”.

Odur ki, bugünkü yazıda da qısa da olsa şəhərin qədim tarixini qeyd etməsək, kimlərinsə qəlbinə dəyə bələrik.

## Onuncu nəğmə

Mingəçevirin tikintisində fəal iştirak edən Sosialist Əməyi Qəhrəmanı, Azərbaycanın fəxri energetiki Sarvan Salmanovu da xüsusi xatırlamasaq insafsızlıq olardı. O, 1927-ci ildə İsmayıllı rayonunun Zoğallıq kəndində dünyaya gəlib, 2003-cü ildə isə doğma şəhəri Mingəçevirdə vəfat edib. Əmək fəaliyyətinə 1945-ci ildə Mingəçevir Su Elektrik Stansiyasının tikintisində başlayıb və burada müxtəlif vəzifələrdə çalışıb. İki dəfə Lenin ordeni və medallarla təltif edilmiş bu əmək qəhrəmanının obrazı Xalq şairi Səməd Vurğunun “Muğan” poemasında xüsusi qeyd edilib.

Poemanın “Mingəçevir qəhrəmanı” adlı on birinci nəğməsində oxuyuruq:

**Car çəkir çarxların çaxnaşıq səsi,**
**Car çəkir, qışqırır nəhəng motorlar.**
**Qızır baltaların polad pəncəsi,**
**İldırım, ildırım vurur Bozdağı.**
**O daşlı, qumsallı, gilli torpağı**
**Udur, lay-lay udur ekskavatorlar.**
**Hay salır, qışqırır nəhəng motorlar.**
**Və ya...**
**Bu səs mənim Sarvanımın,**
**Sarvanımın səsidir, bax...**

**O nəfəsi səndən aldı,**
**Ana torpaq, ana torpaq.**

## On birinci nəğmə

Əslində, mən bu qəbildən olan ifadələri pafos adlandırır və onlardan heç bir yazıda istifadə etmirəm. Amma son beş ildə bu şəhərə rəhbərlik edən, bütün həyatı Mingəçevirə bağlı olan, burada kiçik vəzifədən tutmuş ta şəhər icra hakimiyyətinin başçısı kimi məsul vəzifəyədək – mərhələ-mərhələ ucalan İlham İsmayılova sakinlərin inam və etimadını görəndə bu sözdən istifadə etməyi məqsədəuyğun saydım.

İlham müəllim beş ildir ki, bu şəhərə rəhbərlik edir. Amma otuz ildən çoxdur ki, Mingəçevirin abadlaşdırılmasında, inkişafında, sakinlərin problemlərinin həllində heç nəyi diqqətdən kənarda qoymayıb. Onunla birlikdə şəhid ailələrinin evində olmuşam, əhali ilə saysız-hesabsız görüşlərdə iştirak etmişəm. Hara getmişiksə, onu hamı öz doğması kimi qarşılayıb, sərbəst sözünü, fikrini deyib. Biliblər ki, heç kəsin qayğısı diqqətdən yayınmayacaq.

## On ikinci nəğmə

Dünya xəritəsinə baxanda çayların yarıya böldüyü şəhərlər çoxdur. Hələ məktəb illərindən bilirdik ki, London, Budapeşt, Moskva, Sankt-Peterburq, Paris, Bağdad, Tbilisi və onlarca digər şəhərin mərkəzindən nəhəng çaylar axıb keçir. O zaman mən dəfələrlə düşünmüşdüm ki, bəs o sırada Mingəçevirin adı nə üçün yoxdur?

Nə yaxşı ki, cənab Prezident 2015-ci ildə Azərbaycanda Birinci Avropa Oyunlarının keçirilməsinə nail oldu. Mingəçevirdəki “Kür” Olimpiya Tədris-İdman Mərkəzində – mütəxəssislərin fikrincə, MDB məkanında bu mərkəzin bənzəri yoxdur – keçirilən akademik avarçəkmə, kanoe və kayak idman yarışları keçirilməsi Avropada bizim Mingəçeviri də tanıtdı. Hamı gördü ki, mərkəzindən kükrəyən çayların axdığı şəhərlərdən biri də Mingəçevirdir.

## Epiloq

Məktəb illərində bir dəfə müəllimdən soruşmuşdum ki, bu poemada söhbət əsasən Mingəçevir Su Anbarının tikilməsindən və bu şəhərin salınmasından gedirsə, nə üçün əsərin adı “Muğan”dır? Müəllim demişdi ki, şair o bəndin, həmin su anbarının əsrlər boyu suya həsrət qalmış, ilanlar mələşən Muğan düzünə həyat gətirəcəyini nəzərdə tutmuşdu.

Mingəçevir, həqiqətən, Muğana həyat, Azərbaycanın hər yerinə isə işıq, “nur” gətirib. Həmin həyatın da, nurun da, elə Mingəçevirin özünün də 75 yaşı mübarək olsun!

*İlqar HƏSƏNOV,*
*“XQ”nin bölgə müxbiri*

Hamının və hər kəsin qayğısı

# Qış qapını almamış...

## Ölkənin xidmət qurumları soyuq aylara necə hazırlaşıb?

**Payız–qış mövsümünün sərt və ya mülayim keçəcəyi, soyuq-şaxtalı havalarda "mavi yanacaq", işıq və su probleminin yaranacağı irəlicədən bilinmir. Amma ötən illərin bu vədəsi xatırlananda kommunikasiya sistemlərində nə qədər çatışmazlıqlar üzə çıxdığı, hətta problemlərin həllinin müşkülə çevrildiyi də yaxşı xatırlanır. Payız–qış mövsümünə hazırlığın da səviyyəsi, bax, o qarlı-sazaqlı günlərdə dəyərləndirilir.**



Bəli, payız-qış günlərinin indiki xoş üzü olduğu kimi, sərtliyi də qaçılmazdır. Ancaq qarı ilə gözəllik, soyuğu ilə təmizlik gətirən təbiətin bu sərtliyi təkcə mövsümə ciddi hazırlaşmaqla, qaz, işıq və su tələbatını qarşılamaq üçün tədbirlər həyata keçirməklə aradan qaldırıla bilər.

**Bəs ilin ötən aylarında respublikamızın paytaxtında, rayonlarda payız–qış mövsümünə necə hazırlaşılıb? Yağışlı–qarlı havalarda kommunikasiya sistemləri ilə bağlı problemlərin yaşanmaması üçün hansı işlər görülüb? Sualın cavabı üçün əvvəlcə "Azəristiliktəchizat" ASC-yə müraciət etdik.**

Qurumun mətbuat xidmətindən 2023-2024-cü illər payız-qış mövsümünə hazırlıqla bağlı verilən məlumatda tabe təsərrüfatlar tərəfindən geniş tədbirlər planı tərtib edildiyi, hazırlığı yüksək səviyyədə həyata keçirmək məqsədilə Bakı şəhəri və ölkənin regionlarında fəaliyyət göstərən istilik təsərrüfatlarının rəhbərlərinin iştirakı ilə geniş istehsalat müşavirəsi keçirildiyi bildirilib. Həmin müşavirədə istilik təsərrüfatlarının rəhbərlərinin tədbirlər planının icra vəziyyətinə dair hesabatları dinlənilib və hər bir sahə üzrə işlərin gedişi ətraflı müzakirə edilib. Eyni zamanda, obyektlərin mövsümi hazırlığını qiymətləndirən müvafiq komissiyanın qazanxana və istilik şəbəkələrinin istismara hazırlığı haqqında ətraflı məlumat verilib.

Bütün bunlarla yanaşı, "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində payız-qış mövsümünə hazırlıq işlərinin aparılması Qaydası"nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin 2020-ci il 24 fevral tarixli qərarına uyğun olaraq istilik mövsümünə hazırlıqla bağlı təsdiqlənən bütün tədbirlərin müəyyənləşdirilən müddətlərdə başa çatdırılmasına dair müvafiq tapşırıqlar diqqətə çatdırılıb.



"Azəristiliktəchizat" ASC-nin məlumatında, həmçinin 2023-2024-cü illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar ötən dövrdə istilik təchizatı obyektlərinin, o cümlədən mövcud qazanxana, istilik şəbəkələri, nəzarət-ölçü cihazları və elektrik, nəqliyyat təsərrüfatlarının, habelə digər istehsal təyinatlı avadanlıqların etibarlığının təmin edilməsi məqsədilə bir sıra işlərin görüldüyü qeyd olunur. Hazırlıq tədbirləri çərçivəsində 1000 kilometrdən çox istilik xətlərinin hidravlik təzyiqi yoxlanılıb və 10 min metrdən çox müxtəlif diametrli magistral və məhəllədaxili istilik xətləri dəyişdirilərək yenilənib.

İlin soyuq aylarında əhalinin istilik təchizatının normal şəkildə təmin edilməsi məqsədilə 1150 ədəd qazan odluğu, 486 dəst istilik mübadilə aparatı, 3 min 230 ədəd nasos, 16 min 860 ədəd müxtəlif diametrli siyirtmə təftiş olunaraq istismara hazır vəziyyətə gətirilib. Bütün bunlarla yanaşı, 3 min 340 mühərrik, 561 elektrik avadanlığı, 561 nəzarət-ölçü cihazı və qaz təsərrüfatına aid 554 avadanlıq və digər qurğular saz vəziyyətə gətirilib. Bütövlükdə isə, səhmdar cəmiyyətdə payız-qış mövsümündə 49 mindən çox qurğu və avadanlığın, nəzarət-ölçü cihazının istismarını təşkil etməklə abonentlərin keyfiyyətli və dayanıqlı istilik enerjisi ilə təmin edilməsi nəzərdə tutulub.

İlin ötən dövründə mərkəzləşdirilmiş qaydada 288-i məktəb, 161-i uşaq bağçası olmaqla, ümumilikdə, 449 təhsil müəssisəsinin payız-qış mövsümündə istiliklə təmin edilməsi üçün bütün zəruri tədbirlər görülüb. Məlumatda qeyd olunur ki, bu müəssisələrin hər birinin qazanxanası payız-qış mövsümünə hazır vəziyyətə gətirilib. Belə ki, qurum tərəfindən 3 min 871 bina, 449 təhsil müəssisəsi, 152 səhiyyə obyekti, 2 min 224 sosial və təsərüfat obyekti soyuq aylarda istiliklə təmin edilir. Payız-qış mövsümünə hazırlıq çərçivəsində balansda olan bütün qazanxanalar, magistral və məhəllədaxili istilik xətləri yoxlanılır, ehtiyac duyulan yerlərdə əsaslı və cari təmir işləri aparılır və istilik mövsümünə hazırlıq işləri davam etdirilir.

Yaşayış binalarının daxili istilik sistemləri ilə bağlı məsələyə gəldikdə isə, qurumdan bildirildi ki, Mülki Məcəllənin 227, 235-ci maddələrinə və Mənzil Məcəlləsinin 29.3, 29.4, 35 və 38-ci maddələrinə əsasən çoxmənzilli yaşayış binalarında bütün mühəndis-kommunikasiya qurğuları bina və mənzil mülkiyyətçilərinin mülkiyyətindədir: "Onların istismarı, bərpası və yenidən quraşdırılmasına aid bütün xərclər mülkiyyətçilərin haqları hesabına ödənilməli olan xərclərə aiddir".

Artıq "Azəristiliktəchizat" ASC əhali istehlakçı qrupu ilə müqavilələrin bağlanılmasına başlayıb. Belə ki, Nazirlər Kabinetinin 5 sentyabr 2023-cü il tarixli qərarı ilə təsdiqlənən "İstilik enerjisindən istifadə qaydaları"nın 1.4-cü bəndinə əsasən, istilik və isti su təchizatı xidmətləri enerji təchizatı müəssisəsi ilə istehlakçı arasında bağlanılan müqavilə əsasında həyata keçirilməlidir. Bununla bağlı "Azəristiliktəchizat"ın əməkdaşları səhmdar cəmiyyətdə işlədiyini təsdiqləyən vəsiqəni təqdim etdikdən sonra müqavilə bağlanması üçün istehlakçıdan zəruri sənədləri–mənzil mülkiyyətçisinin şəxsiyyət vəsiqəsi və çıxarışın surətini təqdim etməyi xahiş edir. Beləliklə, müvafiq sənədlər əsasında "Azəristiliktəchizat" və istehlakçı arasında müqavilə imzalanır.

Sakinlərə müqavilənin mahiyyəti və zəruriliyi barəsində əvvəlcədən məlumatlar verilir, bütün binaların girişlərinə elanlar vurulur. Müqavilə bağlanılmadığı halda isə, istilik təchizatı xidmətlərindən istifadə qeyri-qanuni hesab olunur.

Xatırladaq ki, "Azəristiliktəchizat" tərəfindən yalnız Bakı üzrə yox, bütün Azərbaycanda mərkəzləşdirilmiş istilik xidməti və isti su təchizatı xidməti göstərilir, 180 mindən artıq mənzil mərkəzləşdirilmiş qaydada isidilir. Yuxarıda sözügedən müqavilə də, ilk növbədə, əhalinin istehlakçı hüquqlarının öz maraqlarına uyğun gəlir. Çünki burada onların hüquq və öhdəlikləri tam şəkildə izah olunur.

Hazırda ölkə üzrə bağçaların 6 faizi, məktəblərin isə 8 faizi "Azəristiliktəchizat" ASC tərəfindən istilik xidməti ilə təmin olunur. Digərləri isə həmin məktəblərin öz qazanxanaları vasitəsilə isidilir. Ümumilikdə, ölkə üzrə 3 min 871 yaşayış binası, 449 təhsil müəssisəsi, 152 səhiyyə obyekti, 2 min 224 sosial və təsərrüfat obyekti "Azəristiliktəchizat" tərəfindən istiliklə təmin olunur.

Artıq noyabrın 1-dən Azərbaycanın 14 dağlıq rayon və şəhərində mənzillərin və sosial obyektlərin istilik təchizatına başlanılıb. Noyabrın 15-dən isə bütün ölkə ərazisində istilik təminatının həyata keçiriləcəyi nəzərdə tutulub. Qurumdan onu da bildirdilər ki, artıq ölkə ərazisində payız-qış mövsümünə hazırlıq çərçivəsində nəzərdə tutulmuş tədbirlərin böyük bir qismi yekunlaşıb.

**Payız-qış mövsümündə ölkə əhalisinin "mavi yanacaq" la təminatı da xüsusi aktuallıq kəsb edir. Bəs, bu sahəyə cavabdeh olan "Azəriqaz" İstehsalat Birliyi tərəfindən hansı işlər görülüb?**

Qurumdan bununla bağlı sorğumuza cavab olaraq bildirildi ki, "Azəriqaz" İstehsalat Birliyinin əsas fəaliyyət istiqaməti Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi müvafiq dövlət proqramlarının icrası, ölkə ərazisində istehlakçıların təbii qazla fasiləsiz, keyfiyyətli və təhlükəsiz şəkildə təmin olunması, qaz sayğaclarının quraşdırılması və qazla təmin olunmayan bölgələrin qazlaşdırılması, qaz təchizatı şəbəkəsinin təhlükəsizliyinin və etibarlılığının artırılması işlərindən ibarətdir. Məlumatda qeyd olunur ki, həmin işlərin yerinə yetirilməsi və qəbul olunmuş dövlət proqramlarının icrası ilə bağlı "Azəriqaz" İstehsalat Birliyi tərəfindən cari ilin ötən dövründə müvafiq tədbirlər həyata keçirilib. Belə ki, payız-qış mövsümünə hazırlıqla əlaqədar birlik tərəfindən 2023-cü ilin yanvar-sentyabr aylarında 323 kilometr boru xətti çəkilib və ya yenilənib, 9 ayın təmir proqramı çərçivəsində 229 kilometr qaz kəməri əsaslı təmir edilib, 41 məntəqə təmir olunub və ya yenidən qurulub, 32 ədəd qaztənzimləyici və paylayıcı məntəqə istismara verilib. Həmçinin dayaqlar üzərindən düşmüş qaz kəmərlərinin əvvəlki yerlərinə qaytarılması, boruların korroziyadan qorunması üçün rənglənməsi, yeraltı qaz kəmərlərinə qrafik üzrə baxışların keçirilməsi və kipliyə yoxlanması işləri həyata keçirilib. Bütün bu tədbirlərin nəticəsi olaraq ölkə üzrə qazlaşdırmanın səviyyəsi 96,4 faizə çatdırılıb.

Qurumun məlumatında qeyd olunur ki, ötən müddətdə əhalinin keyfiyyətli və dayanıqlı təbii qazla təmin olunması və təhlükəsiz istismarın təmin edilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirilib. Hazırda bu işlərin davamlı olaraq nəzarətdə saxlanılması və ehtiyac yaranacağı təqdirdə qəza-bərpa briqadalarının hadisə yerinə çıxması tam nəzarət altındadır.

Havaların soyuması ilə əlaqədar təbii qaza ehtiyac da artacaq. Çünki payız-qış mövsümü ilə əlaqədar havalar soyumağa başlayır. Məlum olduğu kimi, təbii qazın istehlakı zamanı təyin olunmuş hüquqi-normativ sənədlərə və texniki təhlükəsizlik qaydalarına əməl edilməməsi bədbəxt hadisələrin baş verməsinə gətirib çıxara bilir. "Azəriqaz" İB-nin şöbə rəisi İlkn Behbudovun bildirdiyinə görə, bu kimi xoşagəlməz halların baş verməməsi üçün təbii qazın mənzillərdə və yaxud da obyektlərdə istehlakı zamanı qüvvədə olan qanunvericiliyin tələblərinə əsasən qaz təsərrüfatındakı təhlükəsizlik qaydalarına uyğun olaraq həm qaz qurğularının quraşdırılmasına, həm də bu qurğuların quraşdırıldığı otaqların ölçülərinə əməl etmək və standarta cavab verən cihazlardan istifadə etmək lazımdır.

Şöbə rəisi sonra dedi ki, əsasən, qış vaxtı, soyuq aylarda qarşılaşdığımız problemlərin ən başlıcası dəm qazıdır. Dəm qazı və onun otaqlara sızmasının isə səbəbləri çoxdur. Məlum olduğu kimi, dəm qazı həyatda ayrılıqda mövcud deyil. Bu, sırf texniki təhlükəsizlik qaydalarının tələblərinin və yanma prosesinin pozulması nəticəsində yaranır. Əgər biz texniki-normativ tələblərə əməl etsək, dəm qazının yaranmasının qarşısını ala bilərik. Bununla, həm özümüzün, həm də digər ailə üzvlərimizin həyatını qorumuş olarıq.

**Həmin tələblərə gəldikdə isə, İ. Behbudov dedi:**

– Təbii qazdan, əsasən, mətbəx və vanna otaqlarında, eləcə də qış aylarında digər otaqlarda istifadə olunur. Onun sözlərinə görə, vanna otağına müəyyən tələblər var. Belə ki, həmin otaqların ölçüləri standarta uyğun, minimum 7,5 kubmetrdən, hündürlüyü isə 2,5 metrdən aşağı olmamalıdır. Eyni zamanda, vanna otağının giriş qapısının aşağı hissəsində açıq yer saxlanılmalı, ventilyasiya kanalı vaxtaşırı yoxlanılmalı, işlək vəziyyətdə saxlanılmalıdır. Orada quraşdırılan qaz cihazı müəyyən edilmiş standartlara tam cavab verməlidir. Ən önəmlisi isə tüstü bacası vaxtaşırı yoxlanılmalı və standartlara uyğun quraşdırımalıdır.

Bəs bütün bunlar nəyə görə lazımdır? Biz bilirik ki, 1 kubmetr metanın yanması üçün, təxminən, 10 kubmetr hava tələb olunur. Hava çatışmazlığı yaranarsa, həmin məkanda yanma prosesi pozular və bunun da nəticəsində natamam yanma prosesi baş verər. Bu zaman dəm qazının yaranması qaçılmaz olacaq. Həmçinin standart ölçülər mətbəx otaqlarına da aiddir. Belə ki, mətbəx otaqları 4 gözlü qaz sobaları üçün minimum 15 kubmetr, 3 gözlü qaz sobaları üçün minimum 12 kubmetr, 2 gözlü qaz sobaları üçün isə minimum 8 kubmetr həcmində olmalıdır. Eyni zamanda, burada da havalandırma sitemi, nəfəslik və ventilyasiya kanalı quraşdırılmalıdır.

Fürsətdən istifadə edib əhalinin, istehlakçılarımızın diqqətini soyuq qış aylarında tüstü bacalarına yönəltmək istəyirəm. Çünki istehlakçılar tüstü bacalarının düzgün quraşdırılmasına xüsusi fikir verməlidirlər. Çoxları kustar üsulla hər hansı bir qaz qurğusunda pəncərədən və ya divardan yer açmaqla, müəyyən borulardan istifadə edərək onu 1-2 metr hündürlüyə qaldırmaqla hesab edirlər ki, mənzillərinin tüstü bacaları var. Havaların kəskin soyuması zamanı temperatur mənfiyə yaxınlaşır və yaxud mənfi olur.

Məlum olduğu kimi, yanmış məhsul isti məhsuldur və çöldə soyuq hava ilə üzləşən zaman kəskin soyuması baş verir. Belə olan təqdirdə orada konsentrasiya yaranır. Həmin borunun içərisində su buxarları əmələ gəlir və sorulma avtomatik olaraq zəifləyir. Bu zaman artıq yanma prosesi pozulur və bunun nəticəsində, qeyd etdiyimiz kimi, dəm qazı əmələ gəlir. Bu da bədbəxt hadisələrə səbəb olur. Ona görə də bina evlərində yaşayan istehlakçılarımıza tövsiyəmiz budur ki, payız-qış mövsümü başlayana qədər tüstü bacalarını mütləq şəkildə təmizləsinlər. Həyət evlərində yaşayan istehlakçılarımız isə tüstü bacalarının düzgün quraşdırılmasına diqqət yetirsinlər.

**Payız-qış mövsümündə əhalinin və iqtisadiyyatın elektrik enerjisi ilə etibarlı şəkildə təminatına cavabdeh olan "Azərişıq" ASC tərəfindən görülmüş işləri də qənaətbəxş hesab etmək olar.**

Qurumdan XQ-yə verilən məlumata görə, payız-qış aylarında istehlakçıları keyfiyyətli, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin etmək üçün ölkə a ərazisində genişmiqyaslı tədbirlər həyat keçirilir. Belə ki, qış mövsümü üçün yarımstansiyaların, paylayıcı qurğuların, kabel və hava elektrik verilişi xətlərinin normal və qəzasız iş rejiminin yaradılması məqsədilə ciddi və təxirəsalınmaz işlər görülüb.

Məlumatda bildirilir ki, "Azərişıq" ASC müasir elektrik enerjisi təchizatı sistemlərini elə formalaşdırır ki, təbiət hadisələri, kənar müdaxilə amilləri istehlakçıların fasiləsiz enerji təminatına daha az təsir etsin. "Abonentlərimizin hər hansı bir sualı yaranarsa, dərhal çağrı mərkəzlərimizə müraciət edə bilərlər. 24 saat fasiləsiz xidmət göstərən "Qəza Xidməti"nin operativ müdaxiləsi nəticəsində baş verən nasazlıq xarakterinə görə qısa vaxt ərzində aradan qaldırılacaq. Paylayıcı şəbəkələrin yenilənməsi, gücləndirilməsi və müasirləşdirilməsi prioritet hədəflər olmaqla yanaşı, elektrik enerjisi itkilərinin azaldılması da xüsusi diqqətdə saxlanılır",–deyə məlumatda qeyd olunur.

**Payız-qış aylarında yağan intensiv yağıntılar ölkə ərazisində, xüsusən də paytaxt Bakıda bir sıra problemlərə səbəb olur. Bu sahədə yarana biləcək fəsadların qarşısını almaq, yağış-kanalizasiya şəbəkələrinin işlək vəziyyətdə saxlanılması məqsədilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən kompleks tədbirlər icra olunur.**

Payız-qış mövsümünə hazırlıq tədbirləri çərçivəsində tullantı su sistemlərinin istismar vəziyyəti təftiş edilir, baxış quyuları, kollektorlar və xətlər bərk məişət tullantılarından təmizlənir. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin məlumatına görə, təsdiqlənmiş tədbirlər planına uyğun olaraq Bakı şəhərinin Səbail, Yasamal, Nəsimi, Nərimanov, Sabunçu və Binəqədi rayonlarında, həmçinin Sumqayıt və Xırdalan şəhərlərində aparılmış təftiş-qiymətləndirmə işləri nəticəsində subasma riskləri yüksək olan ərazilərdə baxış quyuları, kanalizasiya kollektorları və xətləri, eləcə də yağış barmaqlıqlarında toplanmış bərk tullantıların təmizlənərək onların tam ötürücülük qabiliyyəti təmin olunur.

Məlumatda qeyd olunur ki, payız-qış mövsümünə hazırlıq çərçivəsində 5 kilometr daşıyıcı kollektorun, 40 kilometr tullantı, 23 kilometr yağış su şəbəkələrinin yuyulması, 4 minədək kanalizasiya baxış quyusunun, 3 min yağış barmaqlığının təmizlənməsi nəzərdə tutulub. Eyni zamanda, kanalizasiya nasos stansiyalarında 13 ədəd nasosun quraşdırılması və 2 kilometr tullantı su xətlərinin dəyişdirilməsi planlaşdırılıb. İndiyədək 2 kilometr uzunluğunda kollektorun, 20 kilometr tullantı, 11 kilometr yağış suları xətlərinin yuyulması təmin edilib, 2100 baxış quyusu və 1800 yağış barmaqlığı təmizlənib.

Qurumdan bildirildi ki, tədbirlər planına uyğun olaraq yağış və kanalizasiya xətlərində yığılmış bərk tullantıların çıxarılması xüsusi texnika vasitəsilə həyata keçirilir. Həmin texnikanın köməyi ilə kollektorlara yüksək təzyiqlə su vurularaq çöküntülər təmizlənir və lilsoran qurğu vasitəsilə çıxarılır. Kollektorların, xətlərin və yağış barmaqlıqlarının təmizlənməsi mövcud infrastrukturun tam gücü ilə işləməsinə imkan yaradır. Bununla da, xətlərdəki tutulmaların qarşısı alınır və yağıntılar zamanı yaranan suların normal axıdılması təmin olunur.

Eyni zamanda, kanalizasiya nasos stansiyalarının istismar vəziyyəti bir daha yoxlanılır, ehtiyac olan nasoslarda və digər hidrotexniki qurğularda təmir-sazlama işləri aparılır. Bununla yanaşı, Abşeron yarımadasındakı Böyükşor, Xocəsən, Qu, Taşağıl, Masazır, Qotur, Bülbülə göllərində suyun səviyyəsi qiymətləndirilib, həmin göllərə xidmət edən nasos stansiyalarının iş rejimi buna uyğun təmin edilib.

Aidiyyəti qurumların qışa hazırlıq prosesi ilə bağlı verdiyi məlumatlardan çıxan nəticə budur ki, kommunal xidmətlərimiz qışa hazırdır. Ümid edək ki, bu qış rahat və qayğısız keçəcək…

***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Fransada Qərbi Azərbaycanla bağlı İctimai Birlik yaradılıb

**Fransada Ermənistandan deportasiya olunmuş azərbaycanlılar tərəfindən "Qərbi Azərbaycanlıların İrsinin Qorunması və Qayıdış Hüququ" İctimai Birliyi yaradılıb.**

Təşkilatın əsas məqsədi Ermənistan ərazisində Azərbaycan xalqının əsrlər boyu yaratdığı zəngin mədəni irsin dağıdılmasının qarşısının alınması, beynəlxalq ictimaiyyətin diqqətinin bu problemə yönəldilməsi və qərbi azərbaycanlıların öz tarixi dədə-baba torpaqlarına sülh yolu ilə qayıtmasına dəstək olmaqdan ibarətdir.

"Association pour la Protection du Patrimoine et le Droit au Retour des Azerbaïdjanais Occidentaux" adı ilə rəsmi qeydiyyata alınan təşkilatın həmtəsisçisi əslən İrəvandan olan Zaur Sadıqbəylidir.

***XQ***

# Ölkəmizin dünya turizm ailəsində nüfuzu yüksəlir

**Azərbaycan Dünya Səyahət və Turizm Şurasının rəsmi destinasiya tərəfdaşı seçilib. Bu haqda qərar Ümumdünya Səyahət və Turizm Şurasının noyabrın 1-də Ruandanın Kiqali şəhərində "Dayanıqlı gələcəyə körpülərin qurulması" mövzusunda keçirilən Qlobal Sammitində qəbul edilib.**

Noyabrın 3-dək davam edəcək sammitdə ölkəmizi Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir. Tədbir çərçivəsində Dünya Səyahət və Turizm Şurasının prezidenti və baş icraçı direktoru xanım Culiya Simpsonla görüş keçirilib, yeni turizm destinasiyası kimi ölkəmizin tanıdılması, turizmin inkişaf etdirilməsi perspektivləri müzakirə olunub.

Eləcə də sammit zamanı "Qlobal Liderlər Dialoqu" görüşündə bir sıra ölkələrin turizm nazirləri və səlahiyyətli şəxsləri ilə görüşlər keçirilib, cari tendensiyalar üzrə fikir mübadiləsi aparılıb.

Agentliyin məlumatına görə, Azərbaycan tərəfdaş ölkə olmaqla, həmçinin Dünya Səyahət və Turizm Şurasının otellər üçün nəzərdə tutulan 12 əsas fəaliyyət istiqamətini özündə birləşdirən "Dayanıqlı əsaslar" üzrə proqramına da üzv olub.

Xatırladaq ki, dünya üzrə qlobal səyahət və turizm şəbəkəsi kimi Dünya Səyahət və Turizm Şurası 1990-cı ildən fəaliyyətə başlayaraq dünya turizmi üzrə dövlət və özəl sektor təmsilçilərini bir araya toplayan və tərəfdaşlığı təmin edən əsas platformalardan biri hesab olunur.

***Q QASIMOV***
***XQ***

UZUN HƏSƏN – 600

# Heydər Əliyev Mərkəzində nadir tarixi sərgi



**Dünən Heydər Əliyev Mərkəzində Azərbaycan tarixinin önəmli bir səhifəsinə işıq salan "Uzun Həsən – Ağqoyunlu dövlətinin hökmdarı" sərgisinin açılışı olub. Bu, ölkəmizdə varisi indiki Azərbaycan və İran dövlətləri olan möhtəşəm Səfəvi türk imperiyasını qurmuş Şah ismayıl Xətainin babası Uzun Həsənə həsr olunmuş ilk sərgidir.**

Ağqoyunlu dövlətinin banisi Uzun Həsənin (1423 – 1478) anadan olmasının 600 illiyi münasibətilə təşkil olunmuş ekspozisiya gələn il yanvarın 17-dək davam edəcək. Sərgidə görkəmli dövlət xadimi və sərkərdə Uzun Həsənin həyatı, onun yaratdığı Ağqoyunlu dövlətinə dair məlumatlarla tanış olmaq və tarixi eksponatları izləmək mümkündür.

Mərasimi giriş sözü ilə açan Heydər Əliyev Mərkəzinin departament direktoru Əminə Məlikova bildirib ki, anadan olmasının 100 illik yubileyi silsilə tədbirlərlə qeyd edilən Ulu öndər Heydər Əliyev gənclərin biliklərə yiyələnməsinə xüsusi həssaslıqla yanaşır, onlara Azərbaycan tarixini yaxşı öyrənməyi tövsiyə edirdi. Ona görə də belə bir ildə tariximizin öyünclü səhifələrini yeni nəsillərə təqdim etmək ikiqat önəmlidir.

Sərgidə Azərbaycan Milli İncəsənət, Tarix, Xalça, Gəncə Diyarşünaslıq muzeylərindən eksponatlar nümayiş etdirilir. Türkiyənin İstanbul şəhərində yerləşən Hərb Muzeyindən gətirilmiş nadir eksponatlar da ekspozisiyada yer alıb. Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı




bu kolleksiyanın Türkiyədən kənarda ilk dəfə qardaş Azərbaycanda sərgiləndiyini söyləyib.

Yunus Əmrə İnstitutunun rəhbəri Şeref Ateş isə deyib ki, Türkiyənin və Azərbaycanın tarixi keçmişində mühüm yeri olan Ağqoyunlu dövlətinin hökmdarı Uzun Həsənə aid sərginin açılışı "Bir millət, iki dövlət" anlayışını təcəssüm etdirmək baxımından dəyərlidir. Türkiyə Respublikası Dövlət Arxivinin rəhbəri, professor Uğur Ünal ölkəsinin zəngin arxivlərinin bu sərgiyə töhfəsini məmnunluqla qeyd edib.

Sonra qonaqlar ekspozisiya ilə tanış olublar. Sərgi "Uzun Həsən və Ağqoyunlu dövləti", "Ağqoyunlu dövlətinin daxili və xarici siyasəti", "Ağqoyunlu dövlətində mədəniyyət və incəsənət", "Sara Xatun - Azərbaycan tarixində ilk diplomat qadın", "Despinə Xatun" və digər bölmələrdən ibarətdir. Burada Uzun Həsən, onun anası, apardığı diplomatik danışıqlar nəticəsində bir çox müharibələrin qarşısını almağa müvəffəq olmuş Sara Xatun, Uzun Həsənin həyat yoldaşı Despinə Xatun haqqında məlumatlar yer alıb. Burada Ağqoyunlu dövlətində mədəniyyət, o cümlədən memarlıq və incəsənətin inkişafını nümayiş etdirən fotoşəkillər, Türkiyənin Topqapı Sarayı Muzeyi tərəfindən təqdim edilən miniatürlərin, Türkiyənin Dövlət Arxivləri İdarəsi tərəfindən təqdim edilən Uzun Həsənin fərman və məktublarının surətləri ziyarətçilərə təqdim edilir. Sərgidə Ağqoyunlu dövlətinə məxsus sikkələr, arxeoloji qazıntılar nəticəsində tapılan keramika nümunələri, mis əşyalar da yer alıb.

Eksponatlar arasında 1470-1480-ci illərə aid Təbriz miniatürlərinin əsasında tikilmiş Ağqoyunlu dövləti hökmdarının rəsmi geyimini də görmək mümkündür. Sərgi üçün xüsusi olaraq üzərində XV əsrə aid nadir Təbriz miniatürünün təsvir edildiyi xalçalar, eləcə də Uzun Həsənin mum heykəli və portreti də hazırlanıb.

Ekspozisiyada Ağqoyunlu dövrünə aid bəzi məlumatlar həm də multimedia və interaktiv vasitələrlə çatdırılır, Uzun Həsənə həsr edilən film də nümayiş olunur.

Uzun Həsənin 600 illiyi münasibətilə "Azərpoçt" MMC tərəfindən poçt markası da dövriyyəyə buraxılıb və sərginin açılışında həmin markanın təqdimatı olub. Sərgi çərçivəsində Heydər Əliyev Mərkəzi Azərbaycan və ingilis dillərində "Ağqoyunlu dövlətinin hökmdarı – Uzun Həsən" adlı kitab da hazırlayıb.

***XQ***

# TÜRKSOY Teatr Festivalı davam edir

**Xəbər verdiyimiz kimi, Azərbaycanda I Beynəlxalq TÜRKSOY Teatr Festivalı keçirilir. Bakı teatrlarında türk ölkələri kollektivlərinin tamaşalarının nümayişi davam edir. Festival iştirakçıları teatr bayramı barədə duyğu-düşüncələrini XQ-yə belə açıqladılar:**

**Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor İsrafil İsrafilov:**

– TÜRKSOY tərəfindən keçirilən ilk festivalın iştirakçılarıyıq. Bu bayram günümüz üçün də böyük mədəniyyət hadisəsidir, sabahkı nəticələri də daha əhəmiyyətli olacaq. Ümumilikdə, prosesin teatr mədəniyyətinə böyük xeyri var.

**Hacı İsmayılov, Teatr Xadimləri İttifaqının sədr əvəzi, Xalq artisti:**

– Çox tarixi bir il yaşayırıq: ümumilli lider Heydər Əliyevin 100 illik yubileyidir və eyni zamanda milli teatrın yaranmasının 150 illiyidir. Ulu öndər tez-tez teatrlara gəlirdi, tamaşadan sonra yaradıcı kollektivlərlə görüşürdü. Deyirdi ki, əgər Azərbaycan xalqı 1873-cü ildə müsəlman Şərqində ilk milli teatrı yaradıbsa, Avropa mədəniyyətinə qovuşubsa, görün bu xalqın nə qədər böyük mənəviyyatı var. Bu il çox böyük mədəniyyət hadisələri oldu. Onlardan biri də I TÜRKSOY Teatr Festivalının Şuşada öz işinə başlamasıdır. Sonra da festival çərçivəsində Bakıda Türkdilli ölkələrin teatrlarının maraqlı tamaşaları ardıcıl nümayiş olunur.

Hansı tərəfdən baxsan, bu festivalın əhəmiyyəti çox böyükdür. Türk xalqlarının yaxınlaşması, mədəniyyətlərin öyrənilməsi, inkişafı baxımdan da əhəmiyyətli tədbirdir. Akademik Milli Dram Teatrında Özbəkistan, Qırğızıstan, Türkmənistan, Türkiyədən olan həmkarlarımızla İlyas Əfəndiyevin pyesi əsasında səhnəyə qoyulmuş "Qarabağnamə"yə baxdıq. Çox gözəl keçdi, sonra tamaşanı müzakirə etdik. Qarşıdakı günlərdə onların da tamaşalarına baxıb müzakirə edəcəyik. Bu festival, ümumilikdə, türk dünyasının mədəniyyət prosesinə təkan verəcək. Mənim fikrimcə, TÜRKSOY Teatr Festivalı böyük mədəniyyət bayramıdır.

**Nurəddin Mehdixanlı, Xalq artisti:**

– 2023-cü il türk dünyası üçün müxtəlif uğurlu hadisələrlə yadda qalacaq. Ona görə də Azərbaycanda TÜRKSOY-un I Beynəlxalq Teatr Festivalının keçirilməsi məqsədəuyğun hadisədir. Azərbaycan türk mədəniyyətinin ocağı olmaqda davam edir. TÜRKSOY-un və Azərbaycan Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən teatr festivalı bir-birimizi daha yaxından tanımağa kömək edəcək. Uzun illər ayrı düşmüşük. Böyük türk mədəniyyəti dünyasının yaranmasının yolu belə tədbirlərdən keçir. H.Cavid necə də gözəl deyib: "Turana qılıncdan daha güclü, ulu qüvvət, mədəniyyət, mədəniyyət, mədəniyyət".

**Əliqismət Lalayev, Akademik Musiqili Teatrın direktoru, Əməkdar**




**incəsənət xadimi:**

– Bakıda bütün türk dövlətlərinin ürəyincə olan bir sənət bayramı keçirilir. Teatr festivalı amalı xoş olan bir sənət yarışmasıdır. TÜRKSOY-un sənət bayramının Şuşada başlanması isə bir başqa qürurverici hadisədir. Şuşa türk dünyasından gələn qonaqları məftun etdi, biz də çox qürurlandıq. Orada unudulmaz görüş və toplantı oldu. Festivalın 3-cü günündəyik, dünən Səmərqənd Musiqili Dram Teatrı Akademik Musiqili Teatrın səhnəsində "Leyli və Məcnun" tamaşasını təqdim etdi. Bu mövzu Türk dünyasının ortaq mədəniyyət nümunəsidir. Belə festivalların keçirilməsi çox vacibdir. Müxtəlif sənət adamları bir araya gəlir, bir-birinin sənət əsərləri ilə tanış olur və bu da gələcək planlara stimul verir. Festival çərçivəsində biz qonaq olan Səmərqənd Musiqili Teatrı ilə qarşılıqlı əməkdaşlıqla bağlı memorandum imzaladıq.

***Ramilə QURBANLI***
***XQ***

# Qocaman bəstəkarın 70 illik yaradıcılıq hesabatı

**Azərbaycan Milli Konservatoriyasında Xalq artisti, görkəmli bəstəkar Tofiq Bakıxanovun yaradıcılığının 70 illiyinə həsr olunmuş tədbir keçirilib. Konservatoriyanın rektoru, Xalq artisti, professor Siyavuş Kərimi bəstəkarın Azərbaycan musiqisinə verdiyi töhfələrdən danışıb:**



– Tofiq Bakıxanovun tar və kamança üçün bəstələdiyi çoxsaylı musiqi əsərləri var. Tofiq müəllim musiqi tariximizə böyük töhfələr verən sənətkardır.

Musiqişünas-pedaqoq, şərqşünaslıq üzrə fəlsəfə doktoru Lalə Hüseynova Tofiq Bakıxanovun əsərlərindən söz açaraq bildirib ki, o, bizim üçün canlı tarixdir:

– Tarixin mahiyyətini bədii əsərlər daha doğru verir. Keçmiş dövrün musiqilərini dinləyəndə tarixi faktları görürük və gizli məqamları hiss edirik. Tofiq Bakıxanovun musiqisində də bu incə detalları görmək mümkündür. Onun "Xəzər Balladası" baleti 20-ci əsr neft sənayesi dövründə yazılan ən dəyərli musiqi nümunəsidir. 1960-cı illərin sonunda Fransadan və digər ölkələrdən məşhur rəqs festivallarından biri üçün balet əsərləri seçməyə gəlmişdilər. "Xəzər balladası" na baxanda heyran qalmışdılar. Bu balet Parisdə rəqs festivalında nümayiş olundu və sinkretik quruluşuna, mövzusuna və musiqisinə görə böyük uğur qazandı. Fransanın bir çox şəhərlərində də səhnəyə qoyuldu. Tofiq müəllim həm də bizim çox da üzdə olmayan muğam nümunələrimizi simfonikləşdirib.

Konsertin ilk hissəsi Xalq artisti, tarzən Əhməd Bakıxanova həsr olunmuşdu. Burada Əməkdar artist Aslan Növrəslinin ifasında tar ilə orkestr üçün ifa olunan musiqi nömrələri səsləndirildi. Növbəti, Azərbaycanın kamança ifaçısı, Əməkdar artist Ədalət Vəzirova həsr olunmuş hissədə isə Hüseyn Nağıyevin ifaları dinlənildi.

Bu gün Tofiq Bakıxanov yaradıcılığı kamillik zirvəsindədir. O, mahir ifaçı, bəstəkar olmaqla yanaşı, həm də görkəmli pedaqoqdur. Musiqi sənətinin müxtəlif problemlərinə həsr olunmuş elmi-publisistik məqalələrin müəllifi, musiqimizi xarici ölkələrdə geniş təbliğ edən fəal ictimai xadimdir. Tofiq müəllimi yaradıcılığının 70 illiyi münasibətilə təbrik edənlər ona ən xoş arzularını bildiriblər.

***Fidan SALMANOVA***
***Elşən AĞALAR (foto)***
***XQ***

Ölməzlik ünvanları

**Şamaxı Rayon Mədəniyyət Mərkəzində Respublika "Xatirə Kitabı" Redaksiyasının "44 gün – tarixi zəfər" adlı kitabının ilk 2 cildinin təqdimatı keçirilib.**

Nəşrdə 2016-cı ilin Aprel, 2020-ci ilin Tovuz döyüşləri zamanı və 44 günlük Vətən müharibəsində həlak olan igidlərimizin adları əbədiləşdirilib, ümumilikdə, 2 minə yaxın şəhid haqqında ensiklopedik məlumat yer alıb. Mərasimdə Zəfər salnaməmizi əbədiləşdirən çoxcildliyin nəşri şəhid ruhlarına ehtiram və qədirbilənlik kimi xarakterizə olunub.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Respublika "Xatirə kitabı" insan resurslarını əbədiləşdirən tarixi sənəd, müharibə ağrılarını özündə geniş əks etdirən ensiklopedik salnamədir. Daha öncə toplunun 20-yə yaxın cildi çap olunub. İkinci Dünya müharibəsi, Əfqanıstan döyüşləri, 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş, itkin düşmüş, əsir götürülmüş vətəndaşlarımız, Milli qəhrəmanlarımız haqqında əhatəli materiallar toplanaraq çap edilib. "Xatirə kitabı" Redaksiyası "Bakı xəbər" qəzeti ilə birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz!" silsiləsindən bir neçə kitab da nəşr edib. Hazırda isə "44 gün – tarixi zəfər" ensiklopedik nəşrinin 3-cü cildi üzərində işlər aparılır.

Təqdimat mərasimində Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov, "Xatirə kitabı"nın baş redaktoru Nəzakət Məmmədova, şair, publisist Rəfail Tağızadə, şəhid valideynləri Sübhan Allahverdiyev və Nəzakət Şəfayətova, sənətşünaslıq üzrə fəlsəfə doktoru Zülfiyyə Eldarqızı və ssenarist, rejissor Vüsal Nuru şəhidlərimizin adlarının əbədiləşdirilməsi istiqamətində görülən işlərdən, həyata keçirilən tədbirlərdən danışıblar. Qeyd olunub ki, toplunun ilk cildlərində Şamaxı, Ağsu, İsmayıllı və Qobustan rayonlarının da Vətən müharibəsi şəhidləri barədə məlumatlar yer alıb. Növbəti cildlər qalan bütün şəhid və itkinləri əhatə edəcək. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda qəhrəmanlıqla döyüşən və qələbə qazanan şəhidlərimizin heç vaxt unudulmayacağı, gələcək nəsillər tərəfindən hörmət və ehtiramla yad ediləcəyi vurğulanıb.

# "Xatirə kitabı": "44 gün – tarixi zəfər"






Çıxışlardan sonra redaksiya tərəfindən hazırlanan "Vətən daşı... və ya 44 günün dastanı" adlı layihə əsasında çəkilmiş sənədli filmlərdən biri nümayiş olunub.

Sonda cildlərin nüsxələri şəhid ailələrinə paylanıb.

***Ə.DOSTƏLİ***
***XQ***

# Şəhid yadigarları müqəddəsləşir



**Sumqayıt Dövlət Rəsm Qalereyası və AYB Sumqayıt bölməsinin birgə təşkilatçılığı ilə gənclik şəhərindəki Heydər Əliyev Mərkəzində şəhidlərimizin şəxsi əşyalarından ibarət "Sizi xatırladır" adlı sərgi-kompozisiya təqdim olundu.**

Mərasimdə şəhid ailələrinin üzvləri, əbədiyyətə qovuşmuş qəhrəmanlarımıza ədəbi nümunələr həsr edən şair və yazıçılar, ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Öncə sərgiyə baxış keçirildi. Ekspozisiyada tanınmış rəssamların Zəfər mövzulu əsərləri ilə yanaşı, şəhidlərə aid əşyaların da nümayiş etdirilməsi tədbirə kövrək notlar qatırdı. Milli qəhrəmanlar Polad Həşimovun, Qorxmaz Eyvazovun, eləcə də digər şəhidlərin hərbi libasları, süngüləri, qeyd dəftərləri, qol saatları, şəxsi sənədləri, fotoşəkilləri və s. onların haqqında həzin xatirələr "pıçıldayırdı"...



Təqdimat Azərbaycan Dövlət himninin səsləndirilməsi ilə başlandı. Sonra Ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş Vətən oğullarının xatirəsi 1 dəqiqəlik sükutla yad edildi.

AYB Sumqayıt bölməsinin sədri Gülnarə Cəmaləddin Birinci Qarabağ müharibəsi, Aprel döyüşləri, 44 günlük Vətən müharibəsi və antiterror tədbirləri barədə danışdı. Dövlət Rəsm Qalereyasının müdiri Ellada Həsənova tədbirin mahiyyəti haqqında iştirakçılara məlumat verdi. Ardınca AYB üzvü olan sumqayıtlı şairlər şəhidlərin fotoları yerləşdirilmiş çərçivələrə həkk olunmuş adlı şeirləri səsləndirdilər. Yığcam poetik nümunələrdə hər bir şəhidin həyat yolu, məramı, arzuları ifadə olunmuşdu. Şeirlər oxunduqca çərçivəli portretlərlə bərabər şəhidlərin ailə üzvlərinə təqdim edildi. Maraqlı idi ki, çıxışlar şəhid Toğrul Hacıyevdən əmanət qalmış tarda çalınan musiqi melodiyaları ilə müşayiət edilirdi.

Sonda şəhid valideynləri çıxış edərək tədbirin təşkilatçılarına, şəhidlərimizi daim yad edən, onların ruhuna sayğı göstərən şəhər rəhbərliyinə, Abşeron–Xızı Regional Mədəniyyət İdarəsinə təşəkkürlərini bildirdilər.

***Əli NƏCƏFXANLI***
***XQ***

Günün tələbi

# İnklüziv təhsil dairəsini genişləndirir

## *Ali təhsil müəssisələri bu sahədə geridə qalır*

**Sağlamlıq imkanları məhdud, eləcə də həssas təbəqədən olan uşaqların dünya ilə əlaqəsi, həmyaşıdları və böyüklərlə təmasları, hərəkətliliyi, ətraf mühitlə, təbiətlə ünsiyyətində onun təhsil alması mühüm rol oynayır. İnklüziv təhsil modeli məhz fiziki, sosial, emosional, əqli, linqvistik, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq hər bir şəxsə ümumi təhsil almaq imkanı verdiyi üçün önəm kəsb edir. Azərbaycanda inklüziv təhsilin tətbiqinə 2005-ci ildən pilot layihələrin icrası ilə başlanılıb.**

Hazırda ölkəmizdə 18 yaşadək əlillərin sayı 46 min 391 nəfərdir. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyindən verilən məlumata görə isə ölkəmizdə 40 ümumi təhsil müəssisəsində inklüziv siniflər təşkil olunub. 2023-2024-cü tədris ilində isə 245 nəfər sağlamlıq imkanları məhdud uşaq inklüziv təhsilə cəlb olunub. Rəqəmlər göstərir ki, ölkəmizdə sağlamlıq imkanları məhdud uşaqların 1 faizdən də azı inklüziv təhsilə





cəlb olunub. Bu da sirr deyil ki, belə uşaqların valideynləri övladlarını cəmiyyət arasına çıxarmaqdan daha çox, evdə təhsil almalarına üstünlük verirlər. Bunun obyektiv və subyektiv səbəbləri var. İnklüziv təhsil modelinin üstünlüyü isə ondadır ki, uşaqlar məhz ümumtəhsil müəssisələrində adi qaydada dərs ala bilirlər.

Bu təhsil modelinin tətbiq olunduğu məktəblərdən biri – Bakı şəhəri 202 saylı tam orta məktəbdə 16 sinifdə 29 şagird təhsil alır.

**Məktəbin direktoru Gülüstan Vəliyeva "XQ"yə açıqlamasında bildirdi ki, qaydaya görə hər sinifdə 2-dən çox şagird ola bilməz:**

–Məktəbimizdə 2016-cı ildən inklüziv təhsil modeli tətbiq olunur. Belə uşaqların təhsil aldığı sinifdə 20-dən çox şagird olmamalıdır. Şagirdlərin hazırlığı zamanı bəzən istədiyimiz nəticəni əldə edirik, bəzən bu, mümkün olmur. Adətən xəstəliyin ağırlaşması belə uşaqların adi qaydada təhsil almasına mane olur. Onlar xüsusi məktəblərə və ya ev təhsilinə cəlb olunurlar.

**Direktorun sözlərinə görə, belə uşaqlar tez yorulduqlarlına və bütün dərslərdə otura bilmədiklərinə görə, korreksion pedaqoqlar məktəbdə ayrılmış xüsusi resurs otağında onlarla məşğul olurlar:**

–Şagirdlərimiz arasında 100 dairəsində hesablama bacarığı olan, mətni əla oxuyanlar da var. Amma onlarda analiz-sintez prosesi çox zəifdir. Bəzən məktəbimizə sağlamlıqları qismən məhdud olan uşaqlar da onlayn qeydiyyatdan keçərək qəbul olunurlar. İnklüziv təhsilə cəlb olunmayan belə şagirdlərlə də korreksion pedaqoqlarımız məşğul olur, onların sosiallaşmasına maksimum kömək edirlər.

Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) inklüziv şəraitin yaradılması və sağlamlıq imkanları məhdud olan tələbələr üçün ali təhsil səviyyəsinin əlçatanlılığının yüksəldilməsi məqsədilə 2015-ci ildə İnklüziv Təhsil Mərkəzi yaradılıb.

**Mərkəzin direktoru Sevinc Məhsimova hazırda bu istiqamətdə çox böyük nailiyyətlər əldə etdiklərini bildirdi:**

–Mərkəzin yaradıldığı ilk dövrdə universitetdə cəmi 26 nəfər əlilliyi olan gənc qiyabi təhsil alırdısa, hazırda təkcə əlillik yox, digər kateqoriyadan olan, həssas təbəqəyə aid 200 nəfərdən çox tələbə inklüziv təhsilə cəlb olunub. Mərkəz ümumi auditoriyalarda, hamı ilə birgə təhsil alan tələbələrə keyfiyyətli təhsil almaqda yardımçı olmaqla, onların universitet həyatına tam inteqrasiyasına dəstək göstərir. Universitetin 3 saylı tədris binasında əlilliyi olan şəxslərin rahat bir şəkildə bütün imkanlardan yararlana bilmələri üçün hər şərait yaradılıb. Həmçinin, təhsil ocağında İnklüziv Təhsil Fondu yaradılıb.

**Sevinc Məhsimova UNEC-də Psixoloji Mərkəz, İnklüziv Təhsil Fondunun yaradıldığını, yardıma ehtiyacı olanların həmin qurumlara yönləndirdiklərini dedi:**

–Valideynlər bu cür tələbələrin həyatında vacib rol oynadıqları üçün onlarla da sosial iş aparırıq. Tədrisdə də bir çox yeniliklər tətbiq olunur. Məsələn, fərdi təhsil trayektoriyası çərçivəsində audio-dərslik, audio-mühazirələr təşkil edilir. Əlilliyi olan tələbələr üçün əlavə dərslərin keçirilməsi, üzrlü səbəbdən universitetə gəlməyənlərin evdən onlayn dərsə qoşula bilməsi üçün imkanlar yaradılır.

UNEC-də əlilliyi olan tələbələr arasında ikili diplom və mübadilə proqramlarının iştirakçılarının olması da təqdirəlayiq haldır. Eləcə də Erasmus+ beynəlxalq mübadilə proqramı çərçivəsində əlilliyi olan bir neçə tələbə Avropa universitetlərində təhsil alıblar.

Qurum rəsmisi əlilliyi olan gənclərin xüsusi bacarıqlarının üzə çıxarılmasına verilən dəstək sayəsində tələbələr arasında şairlər, yazıçılar, rəssamlar, riyaziyyatçılar, peşəkar İT mütəxəssislərin olduğunu vurğuladı. 2018-ci ildə UNEC təşkilatçılığı ilə əlilliyi olan gənclər üçün təşkil edilən əmək yarmarkasında 1200-dən çox ali təhsili olan gəncin iştirak etdiyini, onlardan 108-nin işə qəbul olunduğunu dedi.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetində hazırda 6 tələbə inklüziv təhsilə cəlb olunub. Bakı Dövlət Universitetində isə inklüziv təhsil alan tələbələrin sayı 16-dır.

**Təhsil eksperti Elmin Nuri inklüziv təhsilin, əsasən orta məktəblərdə həyata keçirildiyini bildirdi:**

–Azərbaycanda inklüziv təhsil, əsasən orta təhsil müəssisələrindədir. Əslində bu, təkcə orta məktəblərə şamil olunmamalıdır. Daha böyük yaş qruplarında da o problemi özündə daşıyan şəxslər vardır. Ali təhsil ocaqlarında inklüziv təhsil modelinin təmini ilə bağlı sorğular keçirilib. Müəyyən monitorinqlər aparılıb. Sağlamlıq imkanları məhdud şəxslərin təhsili üçün hansı işlər görüləcək, sualına lazımi cavab alınmayıb. Universitetlərdə sağlamlıq imkanları məhdud olan şəxslər üçün panduslar, əlavə liftlərdən başqa, demək olar ki, heç bir iş görülmür. Ali təhsil ocaqları arasında UNEC-də artıq bir neçə ildir ki, İnklüziv Təhsil Mərkəzi fəaliyyət göstərir. Təəssüflər olsun ki, bunu bir universitetin timsalında göstərə bilirik. Düşünürəm ki, bütün ali təhsil müəssisələrində bu, belə olmalıdır. Digər universitetlər isə zəruri infrastrukturun qorunub saxlanmasına çalışır və bununla da işlərini bitmiş hesab edirlər.

Müasir cəmiyyətdə hər hansı bir ayrı-seçkilik varsa, belə bir cəmiyyət tam hesab edilə bilməz. İnklüziv cəmiyyətə gedən yol məhz inklüziv təhsildən başlayır.

***Leyla QURBANOVA***
***XQ***

Beynəlxalq həyat

# Qəzzada atəşkəs olacaqmı?



*(əvvəli 1-ci səhifədə)*

Dünyada ümidverici xəbərlər dolaşır: Qəzzada vəziyyəti düzəltmək üçün cəhdlər edilməyə başlanılıb. Nüfuzlu "Politico" nəşri Birləşmiş Ştatların adlarını çəkmədiyi iki senatoruna istinadən yazır ki, Ağ ev hazırda İsraillə müharibədə HƏMAS-ın məğlubiyyətindən sonra Qəzza zolağında beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsi imkanını nəzərdən keçirir.

Bəlkə, bu yolla barışmaz düşmənləri bir müddət bir-birlərindən kənarda, məsafədə saxlamaq mümkün ola bilər. Hər halda, sülh naminə görülən bütün işlər alqışlanmalıdır. Axı, ən kövrək sülh belə qana susayan müharibələrdən üstündür.

Məqalədə o da bildirilir ki, ABŞ rəsmiləri artıq İsrail siyasətçiləri ilə Qəzzada sülhməramlıların yerləşdirilməsi ilə bağlı danışıqlar aparırlar. Qeyd olunur ki, indiki mərhələdə beynəlxalq qüvvələrin mümkün tərkibi ilə bağlı ilkin müzakirələr gedir. Onların tərkibində Amerika hərbçilərinin olması ehtimalı isə azdır.

"Bloomberg news" nəşri daha əvvəl bildirmişdi ki, ABŞ və İsrail diplomatları Qəzza zolağında ictimai asayişi qorumaq üçün sülhməramlı qüvvələrin yaradılması məsələsini müzakirə edirlər. Milli Təhlükəsizlik Şurasının sözçüsü Adrien Vatson "Bloomberg"ə verdiyi açıqlamada sülhməramlılar arasında ABŞ qoşunlarının yer alacağı ilə bağlı mülahizələri təkzib edib. Bundan əvvəl dövlət katibi Entoni Blinken demişdi ki, Ağ ev administrasiyası HƏMAS-ın süqutundan sonra Qəzzaya nəzarəti Fələstin Muxtariyyətinin üzərinə götürməsinə üstünlük verəcək.

Yeri gəlmişkən, ABŞ-ın "baş diplomat"ının yaxın günlərdə yenidən Yaxın Şərqə səfər edəcəyi, bu dəfə İsrail rəsmiləri ilə bərabər, Ankarada da Yaxın Şərqi ağuşuna alan ağır böhrandan çıxış yollarını tapmaq məqsədilə danışıqlar aparacağı barədə xəbərlər yayılıb. Diqqətçəkən məqam odur ki, E.Blinken Qəzzada həm təhlükəsizliyin, həm də idarəçiliyin təmin olunmasında beynəlxalq qurumların iştirakının mümkünlüyünü inkar etməyib.

Bu arada dünən məlum olub ki, Qəzzada mühasirədə qalan xarici vətəndaşların ilk qrupu ərazini tərk edərək Misirə doğru yola düşüb. Qeyd etmək lazımdır ki, əcnəbi vətəndaşların bölgədən təhlükəsiz çıxışı üçün "Rəfah" sərhəd keçidinin yenidən açılması gündəmə gəlib. Bu məsələ isə Qətərin vasitəçiliyi ilə İsrail, Misir və HƏMAS arasında əldə edilən razılaşma sayəsində mümkün olub. Azı 400 xarici vətəndaşın Misirə keçməsinə icazə verilib.

Xarici vətəndaşlarla yanaşı, təxminən 81 yaralı fələstinli də müalicə üçün Qəzzadan təcili yardım maşınları ilə Misir xəstəxanalarına aparılıb. Xəstələr oktyabrın 7-dən, yəni müharibə başlayandan bəri Qəzzanı tərk etməyə icazə verilən ilk fələstinlilərdir.

Xarici vətəndaşlar və fələstinlilərin münaqişə bölgəsini tərk etməsi Qəzzada yenidən kommunikasiya xətlərinin tamamilə kəsildiyi bir vaxta təsadüf edir. Anklavı telekommunikasiya xidməti ilə təmin edən "Paltel" (Fələstin Telekommunikasiya Şirkəti) iki gün bundan qabaq əvvəllər "Twitter" kimi tanınan "X" sosial media veb-saytında sakinlərə bütün telefon və internet xidmətlərinin tam kəsilməsi barədə məlumat yayıb.

Bununla da, Qəzzada yaşayan 2,3 milyon əhalinin dünya ilə internet əlaqəsi kəsilib və beynəlxalq yardımın çatdırılması dayandırılıb. Fələstinin səhiyyə orqanlarının verdiyi məlumata görə, telefon və internet xidmətində son fasilələr İsrailin Qəzzanın şimalındakı Cəbəliyə qəsəbəsindəki fələstinli qaçqın düşərgəsində azı 100 nəfərin ölümü, təqribən bir o qədər də sakinin yaralanması ilə nəticələnən hava hücumundan bir neçə saat sonra baş verib.

Məlumat üçün bildirək ki, Cəbəliyə etnik zəmində 1948-ci ildən bəri davam edən müharibələrdən qaçan fələstinli ailələr üçün sığınacaq məkanı olub. İsrail hərbçiləri qaçqın düşərgəsini buradakı HƏMAS komandirlərini hədəfə aldıqları üçün vurduqlarını bildirirlər. Bu arada xəbər yayılıb ki, İsrail hərbçiləri Qəzza zolağının şimalında HƏMAS-ın silahlı qüvvələrinin müdafiə xəttini yarıb.

Bəli, "bəşəriyyət hazırda Üçüncü Dünya müharibəsinin ərəfəsindədir". Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Numan Kurtulmuş Bosniya və Herseqovinadakı Saraybosna Universitetinin yeni tədris ilinin açılış mərasimində çıxışı zamanı deyib ki, Birinci və İkinci dünya müharibələrindən fərqli olaraq, indi əvvəlcə "proksi" güclərdən istifadə olunur.

Sadə el dilində desək, böyük dövlətlər "ilanı Seyid Əhməd əli tutmaq istəyirlər". N.Kurtulmuş həmçinin bildirib ki, dünyada islamofobiya meyilləri də sürətlə güclənir. TBMM sədri hazırda bəşəriyyətin özünün ən çətin dövrlərindən birini yaşadığını söyləyib. Onun sözlərinə görə, BMT heç bir humanitar problemi, o cümlədən qlobal yoxsulluğu, miqrasiya məsələlərini həll edə bilmir: "Çünki mövcud sistem buna imkan vermir. Daha ədalətli dünyaya ehtiyac yaranıb.

***Məsaim ABDULLAYEV***
***XQ***

## İKİNCİ BİLDİRİŞ
## Əmanətlərin Sığortalanması Fondu "Muğan Bank" ASC-nin ləğvedicisi təyin edildi




Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 18 oktyabr 2023-cü il tarixli Qərarı ilə məcmu kapitalının miqdarının banklar üçün müəyyən edilmiş minimum miqdarından az olduğuna, məcmu kapitalının adekvatlıq əmsalının 3 faizdən az olmasına, cari fəaliyyətini etibarlı və prudensial qaydada həyata keçirmədiyinə, habelə bankın daxili idarəetmə və nəzarət prosedurları adekvat olmadığına görə "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 16.1.6-cı, 16.1.7-ci, 16.1.9-cu, 16.1.18-ci, 57-ci və 61.1-ci maddələrinə əsasən "Muğan Bank" ASC-nin lisenziyası 19 oktyabr 2023-cü il tarixindən etibarən ləğv edilmiş, banka müvəqqəti inzibatçı təyin edilmiş və bankın müflisləşmə yolu ilə ləğv edilməsi barədə məhkəməyə müraciət olunmuşdur.

Bakı Apellyasiya Məhkəməsinin 24 oktyabr 2023-cü il tarixli 2-3(103)-54/2023 saylı qərarı ilə "Muğan Bank" ASC müflis elan edilmiş və iflas proseduruna başlanmışdır.

Bildiririk ki, Bakı Apellyasiya Məhkəməsinin sözügedən qərarına əsasən Əmanətlərin Sığortalanması Fondu "Muğan Bank" ASC-nin ləğvedicisi təyin edilmişdir.

## Azərbaycan İlahiyyat İnstitutu
## aşağıdakı vəzifələrin tutulması üçün müsabiqə elan edir:

Dillər və ictimai fənlər kafedrasının müdiri
- İslamşünaslıq kafedrasının müdiri
- Namizəd qarşısında qoyulan tələblər:

Kafedra müdiri vəzifəsinin tutulması üçün müsabiqədə iştirak edən vətəndaş aşağıdakılara malik olmalıdır:
- müvafiq kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına
- elmi ad və elmi dərəcələrə
- ən azı 5 il elmi-pedaqoji təcrübəyə

Müsabiqədə iştirak etmək istəyən şəxslər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidirlər:
- kadrlar uçotunun şəxsi vərəqəsi;
- tərcümeyi-hal;
- ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri;
- elmi və elmi-metodiki işlərin siyahısı;
- kafedra müdirinin kafedranın inkişafı ilə bağlı platforması.

Sənədlər elan dərc olunduqdan sonra 1 (bir) ay müddətində qəbul edilir.
**Qeyd -** namizədlərin göstəriciləri vəzifənin tələblərinə uyğun gəlmədikdə və ya ərizənin verilmə müddəti pozulduqda sənədlərin qəbulundan imtina olunur.
(+ 994 12) 436 - 77 - 66.
Ünvan: AZ1065, Bakı şəhəri, Yasamal rayonu, Məhəmməd Naxçıvani küçəsi 29.

## Teymur Əhmədov adına "AzNar" QSC səhmdarlarının nəzərinə!

8 dekabr 2023-cü il saat 12.00-da Göyçay şəhəri, Natəvan küçəsi 120 nömrəli ünvanda Teymur Əhmədov adına "AzNar" QSC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir
Ümumi yığıncağın gündəliyi:
**1.** "AzNar" QSC-nin icra orqanı barədə.
**2.** "AzNar" QSC-nin direktorlar şurası barədə.
**3.** "AzNar" QSC-nin yeni redaksiyada nizamnaməsi barədə.
Ümumi yığıncağa gələn səhmdarlar şəxsiyyəti təsdiqləyən sənəd, səhmdarların nümayəndələri isə şəxsiyyətini və nümayəndənin səlahiyyətini təsdiq edən etibarnamə təqdim etməlidirlər.
Əlaqə telefonu – +994202740517.
Ünvan – AZ2300. Göyçay şəhəri, Natəvan küçəsi 120.

***"AzNar" QSC***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### yanğınsöndürmə xortumlarının satın alınması məqsədilə
## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.
Müraciət üçün son müddət 2023-cü il noyabrın 17-si saat 17.00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu – (012) 404-37-00, daxili – 1132.
Ünvan – Bakı, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 241 (30357) 3 noyabr 2023-cü il, cümə

# Fərqanədə Azərbaycanın sənət inciləri



**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) ölkəmizin Mədəniyyət Nazirliyinin dəstəyi ilə Fərqanə vilayətinin Kokand şəhərindəki Beynəlxalq Sənətkarlıq Muzeyində milli stendimiz yaradılıb.**

Stenddə qədim tariximiz, zəngin mədəniyyətimiz, sənətkarlarımızın əl işləri, digər eksponatların nümayişi nəzərdə tutulub.

Xatırladaq ki, bu haqda razılıq sentyabr ayında muzeyin rəhbərliyi ilə danışıqlarda əldə olunub.

Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən stenddə nümayiş etdirilmək üçün Azərbaycan xalçası, xalqımıza məxsus ən qədim tikmə növü olan təkəlduz, ipəkdən hazırlanmış qadın baş geyimi – kəlağayılar, ağac üzərində oyma ilə hazırlanan, İçərişəhərin və Şuşa qalasının görüntülərini əks etdirən tablolar, Azərbaycan bayrağının əks olunduğu xəritə, milli musiqi alətlərimizin maketləri, milli geyimdə kuklalar, milli naxışlarla bəzədilən armudu stəkanlar, xüsusi dizayn ilə misdən hazırlanmış qədim çırağın maketi hədiyyə olunub.

Bundan başqa, Azərbaycan milli rəqsləri, xalq oyunu olan pəhləvanlıq sənəti, Molla Nəsrəddin haqqında bilgilər, xalça toxuyan Azərbaycan qadınları, muğam ifa edən üçlüyü əks etdirən ağac və plastikdən hazırlanan maketlər də əvəzsiz olaraq muzeyə verilib.

Yaxın zamanlarda muzeydə Azərbaycan stendinin açılışı nəzərdə tutulub.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

**Kokand**

## İdman xəbərləri

### Komandamız yarımfinalda




**Minifutbol üzrə Azərbaycan millisi Birləşmiş Ərəb Əmirliklərinin Ras Əl-Xayma şəhərində təşkil olunan dünya çempionatında uğurlu çıxışını davam etdirir.**

Yığmamız dörddəbir finalda Bolqarıstan kollektivi ilə üz-üzə gəlib. Millimiz bu mərhələdə də inamla çıxış edərək rəqib üzərində 3:1 hesablı qələbə qazanıb.

Yığmamızın qollarını Vüsal İsayev, Rəvan Kərimov, Mirmehdi Rzayev vurub. Bununla da, Azərbaycan millisi yarımfinala yüksəlib.

Azərbaycan komandası ilk görüşlərdə İraq (2:0), Misir (4:1), Küveyt (3:1) yığmalarına, səkkizdəbir finalda isə Portuqaliyaya (3:0) ilə qalib gəlib.

Millimiz yarımfinalda Qazaxıstanla qarşılaşacaq. Həmin görüş noyabrın 3-də keçiriləcək.

### Dünya çempionatında 17 medal



**İdmançılarımız universal döyüşün güləş versiyası üzrə dünya çempionatında böyük uğur qazanıblar.**

Gürcüstanın paytaxtı Tbilisidə keçirilən və 35 ölkədən idmançıların mübarizə apardığı yarışda Azərbaycanı 28 atlet təmsil edib. Yeniyetmələrdən ibarət komandamız turnirdə 1 qızıl, 3 gümüş, 2 bürünc medal qazanıb. Gənclər yığması 1 qızıl, 1 gümüş, 2 bürünc, böyüklərin komandası isə 1 qızıl, 2 gümüş, 3 bürünc mükafata layiq görülüblər.

### Güləşçilərimiz fəxri kürsüdə




**Azərbaycan güləşçiləri Rusiyanın Nefteyuqansk şəhərində sərbəst güləş üzrə beynəlxalq turnirdə 2 medal qazanıblar.**

Təmsilçilərimizdən Rəşid Babazadə (65 kq) və Şamil Zubairov (97 kq) bürünc medala sahib olublar.

Qazaxıstanın Çimkənd şəhərində isə yunan-Roma güləşi üzrə beynəlxalq yarışda Məhəmməd Şükürzadə (60 kq) 3-cü yeri tutub.

***Leyla SABİRQIZI***
***XQ***

## İdman aləmi




**Futbol tarixində ən çox bilet 1950-ci ildə keçirilən dünya çempionatında satılıb. Belə ki, həmin il Braziliyada təşkil olunan sayca 4-cü mundialın açılış matçına 81 min 649 tamaşaçı bileti satılıb.**

Finalda isə satılan biletlərin sayı 173 min 850-yə çatıb. Həmin gün ev sahibi Braziliya komandası Uruqvay futbolçularını qəbul edib. Çempionatın kubokunu isə başları üzərinə qonaqlar qaldırıblar. Belə ki, uruqvaylılar rəqibin qapısından bir top buraxsalar da, əvəzində iki top vurublar.

Bəzi mənbələrə görə, final görüşünü qonaqlar və jurnalistlər də daxil olmaqla, 180 minə yaxın tamaşaçı izləyib. O vaxtdan bəri dünya çempionatlarında bu qədər azarkeş (izləyici sayı) qeydə alınmayıb.

***Elçin ABBASOV***
***XQ***

## Memarlıq

### Barselonanın fəxri – “Casa Mila”

**“Casa Mila” tikilisi 1906-1910-cu illərdə memar Antoni Gaudi tərəfindən Barselonada tikilmişdir. Qəribəsi odur ki, binanın inşasına başlanan zaman Barselona əhalisinin yeni tikiləcək bina haqqında fikirləri o qədər də ürəkaçan deyildi. Lakin illər keçdi və “Casa Mila” Barselonanın fəxrinə, qürur məkanına çevrildi.**



Tikilinin dizaynı öz dövrünə görə yeniliklərlə dolu idi. Bina daşıyıcı və dayaq divarları olmayan, sadəcə, daşıyıcı sütunları olan dəmir-beton konstruksiyası üzərində hazırlanıb.

Gaudi ilə digər, layihələrdə əməkdaşlıq etmiş Josep-Maria Jujolun unikal dəmir məhəccərli eyvanlar improvizasiyasının nəticəsidir ki, sənət nümunəsinin özünəməxsus görünüşü var.

Binanın altıncı mərtəbəsindəki mənzil XX əsrin 20-ci illərinin üslubunda bəzədilib. Onun çardaq döşəməsi ilə dam eyvanı birlikdə ekskursiyalar zamanı ziyarətçilərə nümayiş olunur. Qalan digər mərtəbələr ofislər tərəfindən tutulub.

1984-cü ildə UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilən abidə 20-ci əsrin binaları siyahısında birinci olub.

***Leyla HADİ,***
***tələbə-jurnalist***

## Sağlamlıq

### Zəncəfil – faydasını bil

***Xalq təbabətində zəncəfildən virus xəstəliklərindən qoruyan ədviyyat kimi istifadə olunur. Amma, faydaları kimi özünəxas zərərləri olduğundan, ağına-bozuna baxmadan ondan həmişə istifadə etmək olmaz.***



1. Zəncəfil selikli qişalara qıcıqlandırıcı təsir etdiyindən mədə-bağırsaq sistemində iltihab, yara olan zaman zəncəfildən istifadə məsləhət görülmür.
2. Sağlam qaraciyər üçün zəncəfil faydalı olsa da, kəskin və xroniki hepatit, qaraciyər sirrozunda əks-göstərişdir.
3. Öd daşı xəstəliyi zamanı zəncəfildən istifadə daşları tərpədə bilər və nəticədə daş öd kanalına düşə bilər. Bu da arzuolunmayan nəticələr verər.
4. Babasili olan insanlarda zəncəfil qanaxma yaradar.
5. Yüksək temperatur zamanı zəncəfilli çay hərarəti daha da yüksəldir.

Buna görə də zəncəfildən istifadə edərkən diqqətli olmaq lazımdır.

### Quşəppəyi – sağaldır nəyi?

***Quşəppəyi faydalı dərman bitkisidir. Onun gövdəsindəki yerüstü yarpaqları oturaq, yuxarı yarpaqları saplaqlı, xırda, ağ rəngli çiçəkləri salxımvaridir. Tərəvəz bitkiləri becərilərkən bəzən mədəni bitkilərin toxumu ilə qarışıq bitmiş quşəppəyini alaq otu bilərək məhv edirlər.***



Bitki iltihabi xəstəliklərə qarşı çox faydalıdır. Bu xüsusiyyəti ilə həm də orqanizmi təmizləyir. Qanaxmalar zamanı, xüsusilə də burun qanaxmasında faydalıdır. Bağırsağın iş mexanizmini tənzimləyən bu bitki qəbizliyin qarşısını alır və həzm sistemini tənzimləyir. Həmçinin bağırsaq sancılarını aradan qaldırır.

Arterial təzyiqi tənzimləyən quşəppəyi ürək üçün də faydalıdır. Diş ağrılarında, ağız boşluğu xəstəliklərində yarasağaldıcı təsir göstərir. Böyrək və qaraciyərin funksional vəziyyətini tənzimləyir. Bağırsaq çatı və babasilin müalicəsinə kömək edir. Tərkibi kalsiumla zəngin olduğuna görə, sümük sağlamlığı üçün faydalıdır.

### Böyrəkotu – topla bir qutu



***Xalq təbabətində geniş istifadə olunan böyrəkotu (qumluq ödotu) zəngin tərkibinə görə bir çox xəstəliyə şəfadır.***

Həzm sistemi də daxil bir çox sağlamlıq problemlərinə faydalı olan böyrəkotunu qaynadıb bir fincan içdikdə öd, mədəaltı vəzi və mədə şirəsini artırır. Həzm pozuntusu kimi daxili problemlərə yaxşı təsir edir. Revmatizm və duzlaşmaya qarşı mükəmməldir. Sidik yolları və böyrək xəstəliklərinə gözəl təsir edir.

***Z.HÜSEYNLİ***
***XQ***

*✓ 2015-ci il noyabrın 10-da Bakının Suraxanı rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi tərəfindən Cəfərova Esmira Rəşid qızının adına verilmiş Dövlət və İctimai Mənzil Fondu evlərində yaşayış sahəsinin kirayə haqqında birtipli müqavilə itdiyi üçün etibarsız sayılır. Suraxanı rayonu, Hövsan qəsəbəsi, E. Qasımov küçəsi ev 14 b, mənzil 62.*

## Kosmos

### Ay Yerdənmi qopub?

**Şanxay Astronomiya Rəsədxanasının alimləri kəşf ediblər ki, Yerin dərinliklərində olan kütləvi anomaliya, təxminən, 4,5 milyard il əvvəl baş vermiş başqa bir göy cismi ilə toqquşmanın qalığı ola bilər. Ay, yəqin ki, bu fəlakət nəticəsində yaranıb.**

Bu barədə araşdırma “Nature” elmi jurnalında dərc olunub. Ayın əmələ gəlməsi hələ də sirr olaraq qalır. Əsas nəzəriyyəyə görə, planetimiz mövcud olanda onu Teya kimi tanınan Mars böyüklüyündə protoplanet vurub. Ayın planetlərarası kataklizm nəticəsində meydana çıxdığı güman edilir.



***Ayan NƏCƏF,***
***tələbə -jurnalist***

## Hava

### Hava yağmursuz və dumanlı olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən noyabrın 3-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Gecə və səhər bəzi yerlərdə zəif duman, az çiskin olacaq. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 13-16°, gündüz 19-23° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 758 mm civə sütununa enəcək, nisbi rütubət gecə 75-85, gündüz 50-60 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin axşama doğru bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 9-13°, gündüz 20-25°, dağlarda dağlarda gecə 4-9°, gündüz 11-16° olacaq.

***Q. QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4793
SİFARİŞ 2841
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır
00:00